Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 33 (6175) 4 sentyabr 2026-cı il | Qiyməti 40 qəpik

# Bakının növbəti uğuru



Bax:səh-2

## Vilayət Eyvazov vətəndaş qəbulu və sıra baxışı keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov avqustun 31-də və sentyabrın 1-də Sumqayıt şəhərində vətəndaş qəbulu keçirib.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyindən (DİN) məlumat verilib. Bildirilib ki, Sumqayıt Şəhər Polis İdarəsinin inzibati binasında qəbula gələn 585 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerində həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 458 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

## "Məkkə Müdafiə İttifaqı NATO-ya alternativ deyil"



**Məkkə Sazişini imzalayan ölkələr Məkkə Müdafiə İttifaqı adı ilə bağlı razılığa gəlib.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan mətbuat konfransında deyib. Hakan Fidan bildirib ki, Məkkə Müdafiə Alyansı genişlənmək üçün yaradılıb. Türkiyə XİN rəhbərinin sözlərinə görə, Məkkə Müdafiə İttifaqı NATO-ya alternativ deyil, rəsmi Ankaranın NATO-dakı öhdəliklərinə xələl gətirmir, eləcə də digər ittifaq və razılaşmalardakı öhdəliklərini dəyişmir.

## Bu özəl bağçalara dövlət dəstəyi veriləcək

**Məktəbəqədər təhsildə valideyn-dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə müsabiqəsinin qalibi olan özəl məktəbəqədər təhsil müəssisələrinin siyahısı açıqlanıb.**

Adalet.az xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyi (ETN) məlumat yayıb. Nəticələrə əsasən, 124 özəl məktəbəqədər təhsil müəssisəsi müsabiqənin qalibi olub. Seçilmiş məktəbəqədər təhsil müəssisələrinin adları, ünvanları, qəbul planı, dövlət dəstəyinin aylıq məbləği və valideynin üzərinə düşən aylıq ödəniş məbləği barədə ətraflı məlumatla keçid vasitəsilə tanış ola bilərsiniz.

Qeyd edək ki, növbəti mərhələdə müsabiqənin nəticələrinə uyğun olaraq, dövlət dəstəyi ilə özəl məktəbəqədər təhsil müəssisələrində uşaqlar üçün əlçatan imkanların genişləndirilməsi və qəbul prosesinin təşkili təmin ediləcək. Eyni zamanda maliyyələşmə müqavilələri çərçivəsində həmin müəssisələrin fəaliyyətinin monitorinqi həyata keçiriləcək. Müsabiqənin əsas məqsədi 2026-2027-ci tədris ilində həm paytaxtda, həm də regionlarda məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi, valideynlər üçün əlavə seçim imkanlarının yaradılması və dövlət-özəl əməkdaşlığının inkişaf etdirilməsidir.

*Əbülfət MƏDƏTOĞLU*

## Tofiq Abdinsiz qalmayan SÖZ!

Bax:səh-8

## Hərbi xidmətdən möhlətlə bağlı yenilik



**Rəsmi iş yeri olan vətəndaşların doktorantura təhsili aldığı halda müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququnun olub-olmamasına aydınlıq gətirilib.**

Adalet.az xəbər verir ki, bu barədə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti məlumat yayıb. Bildirilib ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 21.1.7-ci maddəsinə əsasən, əyani təhsilalma formasında doktoranturada (adyunkturada) təhsil alan şəxslərə təhsillərini bitirənədək müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət verilir. Qeyd olunub ki, Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na əsasən, doktoranturada təhsil əyani və qiyabi formalarda həyata keçirilir. Əyani təhsilalma forması istehsalatdan ayrılmaqla, qiyabi forma isə istehsalatdan ayrılmamaqla həyata keçirilir. Bu baxımdan, doktorantura pilləsində əyani təhsil alan çağırışçı istehsalatdan, yəni iş yerindən ayrılmaqla təhsil ala bilər. Həmçinin bildirilib ki, əyani təhsil alan doktorantlar elmi rəhbərin razılığı ilə təhsil aldıqları ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatda 0,5 ştat vahidi ilə müvafiq elmi və ya elmi-pedaqoji işlərə cəlb oluna bilərlər. Beləliklə, rəsmi iş yerinin olması əyani doktorantura təhsili alan şəxsin qanunla nəzərdə tutulan hərbi möhlət hüququna maneə yaratmır.

## ADY-dən xəbərdarlıq




**"Azərbaycan Dəmir Yolları" QSC (ADY) Bakı-Tbilisi-Bakı qatarına saxta bilet satışı ilə bağlı məlumat yayıb.**

Adalet.az xəbər verir ki, məlumatda deyilir: "Son günlər ADY-yə vətəndaşlardan bu marşrutla səfərlərə saxta biletlərin satışı ilə bağlı müraciətlər daxil olur. Bəzi turizm şirkətləri və sosial şəbəkə hesabları mövcud olmayan yerlər üzrə sərnişinlərə saxta biletlər təqdim edir.

Bununla bağlı hüquq-mühafizə orqanlarına tərəfimizdən müvafiq qaydada müraciət olunur, araşdırma aparılır, sui-istifadə hallarının qarşısı mütəmadi qaydada alınır, saxtakarlıq edən şəxslər və səhifələrin müəyyən edilərək hüquqi qaydada cəzalandırılması təmin edilir.

Bir daha bildiririk ki, ADY bu marşrut üzrə heç bir turizm şirkəti və ya vasitəçi ilə əməkdaşlıq etmir və bilet kvotası ayırmır.

Biletləri yalnız ADY-nin rəsmi saytı, "ADY Mobile" tətbiqi, dəmiryol kassaları vasitəsilə əldə etməyi tövsiyə edirik".

## "Rusiya ilə münasibətləri saxlamaq istəyirik"

**Biz Rusiya, Ukrayna və hər kəslə yaxşı münasibətlər saxlamaq istəyirik.**

Bunu ABŞ Prezidenti Donald Tramp deyib. "Bunun biznesə böyük təsiri olacaq: Rusiyanın böyük əraziləri, çox dəyərli torpaqları var, yaxşı şeylər baş verir", - Tramp bildirib.

### GÜNÜN LƏTİFƏSİ

**- Xanım, sizin sumkanızın ağzı açıqdır!**

- Oy, sağ olun! Yaxşı ki, sizin kimi adamlar hələ ki, vardır. Başqası olsaydı indi pulu götürüb qaçmışdı.

**- Yaxşı görək, 2 manat 50 qəpik, bu, puldu ki?**

# Prezident Sərəncam imzalayıb



**Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.**

Sənədin mətni Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Sərəncama əsasən, 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996-2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Bundan başqa "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılırlar.

Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görməlidir.

# İlham Əliyev Dmitro Şlapaçenkonu qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisi Dmitro Şlapaçenkonu qəbul edib.**

Bu barədə məlumat Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Dmitro Şlapaçenko etimadnaməsini dövlətimizin başçısına təqdim etdi. Ölkəmizlə BMT arasında əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanda COP29 və Ümumdünya Şəhərsalma Forumu kimi böyükmiqyaslı BMT tədbirlərinin keçirildiyini vurğuladı, bu il də BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə Mədəniyyətlərarası Dialoq Forumunun təşkil ediləcəyini dedi. Azərbaycanın BMT-nin vacib tərəfdaşı olduğunu və "orta güc" dövləti kimi bu qurumun mötəbər tədbirlərinə ev sahibliyi etdiyini vurğulayan Dmitro Şlapaçenko bu xüsusda Bakıda COP və Ümumdünya Şəhərsalma Forumunun təşkil olunduğunu xatırladı. O, bu gün Bakıda "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının keçirildiyini deyərək, ölkəmizdə BMT-nin İqlim Həftəsi tədbirinin də olacağını qeyd etdi.

Dmitro Şlapaçenko Azərbaycanın BMT-nin müvafiq qurumlarının fəaliyyətinə verdiyi dəstəyi yüksək qiymətləndirdi. O, Azərbaycanın hazırda həyata keçirdiyi inkişaf proqramına BMT-nin də öz təcrübəsi ilə dəstək verməyə hazır olduğunu bildirdi, bu xüsusda Qarabağda və Şərqi Zəngəzurda postmünaqişə şəraitində aparılan böyükmiqyaslı işlərin vacibliyinə toxundu. Minalar problemini qeyd edən Dmitro Şlapaçenko BMT-nin bu məsələdə Azərbaycana dəstək verməyə və təcrübəsini bölüşməyə hazır olduğunu dedi.

Dövlətimizin başçısı da işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərindən danışdı, ölkəmizin üzləşdiyi mina probleminin miqyasını qeyd etdi. Prezident İlham Əliyev bunun bərpa-quruculuq işlərinə mane olmasına baxmayaraq, Azərbaycanın minatəmizləmə sahəsində də ardıcıl fəaliyyətini davam etdirdiyini vurğuladı. Dmitro Şlapaçenko tezliklə Qarabağa səfər edəcəyini bildirdi, BMT Günü ilə əlaqədar Qarabağ Universitetində böyük bir tədbirin keçirilməsinin planlaşdırıldığını qeyd etdi. Görüşdə Cənubi Qafqaz regionunda transsərhəd çayların ekoloji mühitinin yaxşılaşdırılması və bu sahədə monitorinqlərin aparılması, Xəzər dənizinin suyunun azalması kimi ekoloji məsələlər də müzakirə olundu.

# Bakının növbəti uğuru

**Şanxay Əməkdaşlıq Təşkilatı 15 iyun 2001-ci ildə Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan tərəfindən yaradılıb. İlkin mərhələdə təşkilatın əsas məqsədi sərhəd təhlükəsizliyinin təmin edilməsi, qarşılıqlı etimadın möhkəmləndirilməsi və "üç şər qüvvə" adlandırılan terrorizm, separatizm və ekstremizmlə birgə mübarizə aparılması idi. Hindistan, Pakistan, İran və Belarusun üzvlüyə qəbulundan sonra isə ŞƏT coğrafi və siyasi baxımdan daha geniş təsir imkanları əldə edib. Bu gün təşkilat Avrasiyanın böyük hissəsini əhatə edən çoxtərəfli əməkdaşlıq platforması kimi çıxış edir.**

Bişkekdə keçirilən və ŞƏT-in 25 illiyinə təsadüf edən sammit təşkilatın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. "ŞƏT-in 25 ili: dayanıqlı sülh, inkişaf və rifah naminə birlikdə" şüarı altında keçirilən toplantıda regional təhlükəsizliklə yanaşı, ticarət, enerji, nəqliyyat-logistika, rəqəmsallaşma, ekologiya və humanitar əməkdaşlıq məsələləri də müzakirə olunub. Bu gündəlik göstərir ki, ŞƏT artıq fəaliyyətini yalnız təhlükəsizlik sahəsi ilə məhdudlaşdırmaq istəmir. Təşkilat tədricən iqtisadi və institusional əməkdaşlıq mexanizmləri yaradan daha geniş regional mərkəzə çevrilməyə çalışır.

Sammitin əsas siyasi sənədi ŞƏT-in 25 illiyinə həsr olunan Bişkek Bəyannaməsi olub.



Bəyannamədə üzv dövlətlərin beynəlxalq və regional proseslərə ümumi yanaşmaları, çoxqütblü dünya nizamının dəstəklənməsi, BMT-nin aparıcı rolunun qorunması və dövlətlərin daxili işlərinə müdaxilənin yolverilməzliyi kimi prinsiplər əksini tapıb.

Toplantının yekununda ümumilikdə 28 sənəd qəbul edilib. Bu sənədlər ŞƏT-in siyasi bəyanatlar səviyyəsindən daha konkret və praktik əməkdaşlıq mərhələsinə keçmək niyyətini nümayiş etdirir.

Qəbul olunan sənədlər sırasında ŞƏT-in Təhdid və Çağırışlara Qarşı Universal Mərkəzinin fəaliyyətinə dair müddəalar, Antinarkotik Mərkəzinin İcraiyyə Komitəsi haqqında əsasnamə və nüvə təhlükəsizliyinin möhkəmləndirilməsi üzrə çoxtərəfli tərəfdaşlıq bəyanatı xüsusi diqqət çəkir. Lahor şəhərinin 2026-2027-ci illər üçün təşkilatın turizm və mədəniyyət paytaxtı elan edilməsi də humanitar əlaqələrin genişləndirilməsinə verilən önəmi göstərir. Beləliklə, sammitdə həm sərt təhlükəsizlik məsələləri, həm də iqtisadi və mədəni inteqrasiyanı təşviq edən qərarlar qəbul olunub.

Azərbaycan 2016-cı ildə ŞƏT-in dialoq tərəfdaşı olub, 2025-ci ildə statusların yenidən təşkilindən sonra isə "ŞƏT tərəfdaşı" statusu əldə edib. Azərbaycanın təşkilat üçün əsas üstünlüklərindən biri onun Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsidir. Bakı limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Azad İqtisadi Zonası və gələcək regional kommunikasiya layihələri ŞƏT ölkələrinin Avropa bazarlarına çıxış imkanlarını genişləndirə bilər. Buna görə də Azərbaycanın təşkilatla əməkdaşlığı yalnız siyasi deyil, həm də ciddi iqtisadi və logistika məzmununa malikdir.

Bişkek sammitinin nəticələri ŞƏT-in Qərb strukturlarına qarşı klassik hərbi-siyasi blok yaratmaqdan daha çox, Avrasiyada alternativ əməkdaşlıq və koordinasiya mərkəzi formalaşdırmağa çalışdığını göstərir. Bununla belə, üzv dövlətlərin fərqli xarici siyasət maraqları təşkilat daxilində tam siyasi həmrəyliyin yaranmasını çətinləşdirir. Azərbaycan isə bu platformada hər hansı geosiyasi qarşıdurmanın tərəfinə çevrilmədən nəqliyyat, enerji, təhlükəsizlik və ticarət imkanlarını ön plana çıxara bilər. Bu yanaşma Bakının çoxvektorlu xarici siyasətinə və "orta güc dövləti" kimi mövqeyini gücləndirmək strategiyasına uyğundur.

**Sübhan**

# Bakının yaratdığı reallıqlar kontekstində İrəvanı nələr gözləyir?

**"Daşkənddə diplomatik strategiyalar, Ermənistanda isə siyasi terrorçuların iflası gündəmdədir. Cənab Prezidentin Daşkənd səfəri digər səfərləri kimi bütün dünya üçün maraqlı və diqqətçəkən oldu. Çünki bu səfəri geosiyasi çərçivədə qiymətləndirildə daha aydın görünür ki, Ali Dövlətlərarası Şuranın üçüncü iclası, Əbədi Dostluq Müqaviləsi, o cümlədən nəqliyyat və humanitar əməkdaşlıq üzrə yeni razılaşmalar, prezidentlərin bəyanatındakı siyasi mesajlarını dünyanın siyasi gündəmində müzakirələrə səbəb oldu. Bu, bizim üçün strateji yüksəlişdir".**

Adalet.az xəbər verir ki, bunu "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, Azərbaycan ölkəsinin siyasi maraqlarını, milli maraqlarının kontekstində dünya üçün ticari, nəqliyyat maraqlarını gündəmə gətirməklə gündəm yaradır:

"Bakı regional gündəliyi təkcə Qafqaz üzərindən həyata keçirmir. Mərkəzi Asiya ilə münasibətləri dərinləşdirərək, Cənubi Qafqazı daha geniş Türk dünyası və Transxəzər bağlantısı yaradır.Əsas məqsəd dövlətlərarası şəbəkə qurmaqla bizim regional çəkimizi Qafqazın hüdudlarından çıxardıb, dünyada əsas siyasi mərkəzlərlə birgə daha böyük, əhatəli, geniş, çoxvektorlu diplomatiyası ilə gələcəyin həm regional arxitekturasını, həm də dünyada güc mərkəzləri ilə strateji əməkdaşlığı gücləndirməklə dünyanın siyasi di-



zaynına və landşaftına müsbət töhfələrini verir".

Politoloqun sözlərinə görə, Azərbaycan regional strategiyasını institusionallaşdırmaqla, siyasi sabitlik, xarici tərəfdaşlıq modelini gücləndirməklə ölkəmizi dünyada söz sahibi, nüfuz sahibi statusunu qazanmışdır:

"Amma Ermənistanda isə daxili siyasi gərginlik, Azərbaycan ölkəsinin siyasi maraqlarını, milli maraqlarının kontekstində dünya üçün ticari, nəqliyyat maraqlarını gündəmə gətirməklə gündəm yaradır. Ermənistan terrorçu təfəkkürlü revanşist Xocalı qatillərini, insanlığa qarşı qatilləri həbs etməklə dünyada gündəmə gəlir ki, mən regionda yaranan siyasi reallıqlara uyğun öz siyasi mövqeyimi ortaya qoyuram. Dünya terrorçularla yox, sivil sülh düşüncəsi ilə daha maraqlıdır deyə çatdırır. İrəvan siyasi keçmişin mənfi addımlarının acı nəticələrini yaşayır".

R.Hüseynov deyib ki, Bu siyasi keçmişin formalaşmasında və Ermənistanın bu gün düşdüyü siyasi burulğanın yaranmasında Rusiyanın xüsusi rolu olmuşdur:

"Ermənistan uzun illər bu siyasi yanlışlıqların və xarici təsirlərin nəticələrini yaşamış, siyasi qərarlarında müstəqil və milli maraqlara əsaslanan xəttdən uzaq düşmüşdür.Bu gün isə həmin siyasi burulğan Ermənistanı daha ciddi seçimlər qarşısında qoyur. Rusiya ilə münasibətlərin tam bağlanması üçün addımlar atır. Bir vaxtlar siyasi himayəsinə və təsirinə arxalanan Ermənistan indi həmin münasibətlərin yaratdığı nəticələrlə üz-üzə qalır. Bu vəziyyət Ermənistanın illər ərzində yol verdiyi siyasi yanlışlıqların acı nəticəsidir.Dəyərli soydaşlar, bu mənzərə Azərbaycanla müqayisədə daha aydın görünür. Azərbaycan cənab Prezident İlham Əliyevin hakimiyyəti dövründə müqayisəolunmaz dərəcədə yüksək irəliləyiş əldə etmişdir.

Dövlətimizin siyasi sabitliyi, müstəqil xarici siyasəti, milli maraqlara əsaslanan strategiyası və çoxvektorlu diplomatiyası Azərbaycanı regionda və dünyada söz sahibi, nüfuz sahibi dövlətə çevirmişdir.

Bu fərqlilik bizim üçün çox önəmlidir. Bu irəliləyiş bizim üçün çox önəmlidir. Çünki bu, ölkənin siyasi qürurunu əvvəldən planlaşdırılan planlarla yüksəklərə qaldırmaqdır. Qürurlu ölkənin qürurlu vətəndaşları dövlətimizin uğurlarını qazandıran bu diplomatiyaya, bu siyasətə, bu strategiyaya, bu prinsipiallığa dəstək verir, etimad göstərir. Bundan sonra da belə olacaq".

**Vasif**

# "Köçəri xalqlar sanki müasir dünyada gedən qloballaşma proseslərini..."

**"Müxtəlif xalqları birləşdirən dostluq, birlik və qarşılıqlı hörmət dəyərlərini təbliğ etmək, ona nail olmaq indiki şəraitdə vacib məsələlərindən biridir. Bundan ötrü istifadə edilən bütün vasitələr, o cümlədən Dünya Köçəri Oyunlarının keçirilməsi faydalıdır. Xalqların bir ərazidən digərinə köçmələri, yeni məskənlər qurmaları, gəldikləri yerlərə özləri ilə mədəniyyətlərini, adət-ənənələrini gətirmələri tarixin müxtəlif dövrlərində olub. IV-VII əsrlərdə böyük köçün baş verməsi ilə bir sıra tayfaların və xalqların məskunlaşma yerləri dəyişib".**



Adalet.az xəbər verir ki, bunu Milli Məclisin sədr müavini Musa Qasımlı deyib.

Onun sözlərinə görə, bu proses özü ilə bəzi məsələləri gətirməklə yanaşı qarşılıqlı zənginləşməyə də xidmət edib: "Köçəri xalqlar sanki müasir dünyada gedən qloballaşma proseslərini özünəməxsus şəkildə həyata keçiriblər, sivilizasiya yaradıblar. Köçəri sivilizasiyası irsinin, mədəniyyətinin, qədim ənənələrinin, milli dəyərlərinin, idman növlərinin nümayiş etdirilməsi, qorunması və gələcək nəsillərə ötürülməsi baxımından qardaş Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən 6-cı Dünya Köçəri Oyunları əhəmiyyətlidir.

Belə kütləvi toplantılarda iştirak etməyin, keçirilən görüşlərin həm də böyük siyasi əhəmiyyəti vardır. Cənab Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın oyunların açılışında iştirak etmələri və keçirdikləri görüşlər həmin amala xidmət edir".

**Sübhan**

---


*Elxan ŞÜKÜRLÜ*


## "İmam övladları, seyidlər Azərbaycana niyə gəliblər?"



***Doğulduğum Naxçıvan torpağı təkcə Azərbaycanın dövlətçilik tarixində yox, həm də İslam tarixində və mədəniyyətində çox mühüm yer tutur.***

***Naxçıvan həmişə "Əhli-Beyt" təmsilçilərinin və ardıcıllarının sığındığı, qorunduğu və rahat yaşadıqları məkanlardan biri olub.***

***Arxada gördüyünüz bu "Seyidlər" türbəsi hazırki İranla Azərbaycanın düz sərhədində, Araz çayının sol sahilindəki Şahtaxtı kəndində yerləşir.***

***Çox şadam ki, bu türbənin yenidən bərpasında bizim yazdıqlarımızın da rolu olub. Şahtaxtı kəndinin heyrətamiz və mistik tarixindən, orada yaşayan tayfalardan, xüsusən də bu kəndin əsasını qoyanlardan biri olan məşhur seyid soyundan bəhs edən bir araşdırmamızdan sonra köhnə türbənin yenidən bərpasına razılıq verilib və belə bir gözəl mədəniyyət abidəsi yaradılıb.***

***Türbə Naxçıvana Qədim Hərzəndən köçüb gələn və nəsil şəcərəsi "Kuhi-Kəmər" seyidlərinə bağlanan çox nüfuzlu bir seyid ocağının təmsilçiləri - "Böyük Seyid" ləqəbli Mir Abdulla Ağanın oğlu Hacı Seyid Mir Mehdi Ağanın və onun 6 oğlundan üçünün məzarları üzərində inşa edilib.***

***Bu, o Seyid Mehdidir ki, onun barəsində məşhur güneyli yazıçı Pənahi Makulu "Xiyabani" tarixi romanında da bəhs edib.***

***Ümumiyyətlə, "Şahtaxtı" adının mənşəyi də seyidlərlə, dini təriqətlərlə bağlıdır.***

***Kəndin yaşlı sakinlərinin bu gün qürurla xatırladqıları və geniş yayılmış rəvayətlərdən biri budur ki, İmam Museyi Kazım soyundan olan Şah İsmayıl Ağqoyunlu hökmdarı Əlvənd Mirzə ilə döyüşdən öncə və sonra indiki Şahtaxtıya yaxın ərazidə - "İydəli Pir"də düşərgə salıb, Əlvənd Mirzəni məğlub etdikdən sonra da Araz çayını məhz buradan o taya - indiki adı "Poldəşt", köhnə adı isə "Ərəblər" olan kənd istiqamətində keçərək, Təbrizə yol alıb və özünü şah elan edib.***

***Sonradan "İydəli Pir"in yaxınlığında məskunlaşan əhali buranı elə Şah İsmayılın şərəfinə də "Şahtaxtı" - "Şahı taxta çıxaran yer" adlandırıb.***

***Rusiya İmperator Ordusunun hərbçisi, şərqşünas, İran tarixinin məşhur araşdırmaçısı Konstantin Nikolayeviç Smirnovun 1934-cü ildə yazdığı "Naxçıvan diyarının tarixi və etnoqrafiyasına dair materiallar" kitabında isə "Şahtaxtı" adının "Nemətullahiyyə" adlı təriqətə mənsub dərvişlərlə bağlı olduğu bildirilir. Smirnova görə, kəndin adı özünü "Şah" adlandıran dərvişin təkyəsini bu ərazidə qurması ilə bağlıdır...***

***Xatırladaq ki, "Nemətullahiyyə" təriqətinin qurucusu Seyid Mir Abdulla adlı şəxs olub və onun şəcərəsi də İmam Zeynəlabidinə qədər gedib çıxır.***

***Ümumiyyətlə, müasir tarixçi alimlərimiz çəkinmədən "İmam övladları, seyidlər Azərbaycana niyə gəliblər?" sualına cavab axtarsalar, bu, indiyədək Azərbaycan tarixinin qapalı saxlanan və ya bilərəkdən təhrif edilən bir sıra qaranlıq səhifələrinə də işıq tutar.***

***Azərbaycan böyük İslam sivilzasiyasının önəmli bir parçasıdır və nə qədər tarixi təhrif etməyə, yadlaşdırmağa və itirməyə çalışsalar da, onu heç kim bu xalqın gen yaddaşından və ənənələrindən silib apara bilməz!***

***Bu türbələr, seyid məzarları, orada yatan insanların həyat hekayələri isə həm də elə bizim şanlı tariximizin və böyük bir mədəniyyətə mənsubluğumuzun silinməz izləri, parlaq səhifələri, maddi sübutlarıdır!***

***Onları lağ, ironiya obyektinə çevirmək yox, qorumaq, öyrənmək, tədqiq etmək, əsl həqiqəti üzə çıxarmaq və Azərbaycanın İslam tarixindəki qiymətli rolunu qürur hissiylə yazmaq, xatırlamaq gərəkdir!***

---

## *"O, indi güclü türk dünyasının eşqi ilə axtarışa çıxıb..."*



**"Orta Asiya mənim üçün reallıqdan başqa ronmatikadır. Türküstan bozqırlarına səpələnmiş yurtlarda tariximizin bir elementini axtarmaq keçmişə duyulan həsrətdən başqa, çox şeydir.İndi dünya dəyişib, Qırğızıstan özünü Azərbaycanın əmin əllərinə əmanət etməyə hazırlaşır, müttəfiqlik özünün ən dərin qatlarına enir, iki dövlət Şərqi Qərbə bağlamağa hazırlaşır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

"Orta Asiyanın unudulmaz incisi Qırğız ellərinin Aytamtov kimi nəhəngin irsinə və məzarına sahiblik edir, Manasın mənəvi dünyasına boylanırıq.Sevgi dolu görürəm oraları.Bir də Platonovun "Can" əsərindəki bir türkmən gəncin Xəzər ətrafındakı, Sarıqamış çökəkliyindəki doğma tayfasını tapmaq üçün göndərildiyi proseslərdən təsirlənirəm. Nayman ana çox dəyişib, Çaqatay da artıq Moskvadan getmir, o indi güclü türk dünyasının eşqi ilə axtarışa çıxıb, üzü Tanrı dağlarına", - deyə o, bildirib.

**Vasif**

---

## Azərbaycan üçün Şanxay Əməkdaşlıq Təşkilatı nə qədər önəmlidir?

**"Cənab Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının tədbirlərində iştirak etmək üçün avqustun 31-də Qırğızıstana işgüzar səfəri bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini bir daha gündəmə gətirir. ŞƏT-in miqyasına baxanda bu platformanın Azərbaycan üçün əhəmiyyəti daha aydın görünür. Təşkilatın 10 üzvü var. Çin, Rusiya, Hindistan, Pakistan, İran, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Belarus. Bu ölkələrdə ümumilikdə 3,4 milyarddan çox insan yaşayır. ŞƏT məkanı təxminən 36 milyon kvadratkilometr ərazini, dünya ÜDM-inin təxminən 25%-ni və beynəlxalq ticarətin 15%-dən çoxunu əhatə edir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, Azərbaycanın hazırda ŞƏT-də dialoq tərəfdaşı statusunda olduğunu bildirib:

"Amma iqtisadi əlaqələrə baxdıqda təşkilata üzv ölkələrin Azərbaycan üçün çəkisi artıq kifayət qədər böyükdür. 2025-ci ildə Azərbaycanın xarici ticarətinin 10%-i Rusiya, 9,9%-i Çin, 1,6%-i Özbəkistan, 1,4%-i Qazaxıstan, 1,3%-i İran, 0,9%-i Belarus və 0,8%-i Hindistanın payına düşüb. Təkcə bu ölkələrin payını topladıqda 25,9% alınır. Pakistan, Qırğızıstan və Tacikistanı da nəzərə alsaq, ŞƏT ölkələrinin Azərbaycanın xarici ticarətində faktiki payı bundan bir qədər də yüksəkdir.Amma Azərbaycanın ŞƏT üçün əhəmiyyəti yalnız ticarətlə məhdudlaşmır.

Azərbaycan təşkilatın əsas iqtisadi mərkəzləri olan Çin və Mərkəzi Asiyanı Xəzər dənizi üzərindən Türkiyə və Avropa ilə birləşdirən nəqliyyat marşrutunun üzərində yerləşir.

Bu baxımdan Orta Dəhlizin inkişafı Azərbaycanın ŞƏT məkanındakı iqtisadi rolunu daha da artıra bilər. Əlqərəz, dünyanın hər 4 dollar ÜDM-indən təxminən birinin formalaşdığı, 3,4 milyarddan çox insanın yaşadığı belə böyük iqtisadi məkanla münasibətlərin genişlənməsi Azərbaycan üçün həm siyasi, həm də ticarət, investisiya, tranzit və logistika baxımından böyük iqtisadi imkan deməkdir".

**Vasif ƏLİHÜSEYN**

---

# "Paşinyan tələsməli, Azərbaycan və Türkiyə ilə sülh quruculuğunu tamamlamalıdır"

**"Rusiya Prezidenti Vladimir Putin Ermənistanda həbsdə olan əziz dostu Robert Köçəryanı anadan olması münasibətilə təbrik etdikdən bir gün sonra eks-prezidentin ermənilərə məktubu yayımlanıb. Köçəryan məktubda "Paşinyan hakimiyyətinin sona çatdırılması vacibdir" cümləsini işlətməklə xalqı seçkilərdə qələbə çalan baş nazirə qarşı faktiki üsyana çağırıb. Köçəryan anlayır ki, böyük korrupsiya itthamlarıyla bağlı üzləşdiyi ittihamlara görə həyatının sonuna qədər həbsxanadan çıxmaya bilər. Ona görə də o üsyan çağırışlarına üstünlük verib. Yəqin Putinin ad günü təbriki də Köçəryanı "həvəsləndirib"".**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, Nikol Paşinyan Putinin Köçəryana davamlı təbrik məktublarından çəkinsəydi, eks-prezidenti həbsə yollamazdı:

"Putin hələ aylar öncə medianın gözü önündə Paşinyanı bu sözlərlə xəbərdar etmişdi: "Ermənistanda Rusiyaya bağlı siyasi qüvvələrə təzyiqdən imtina et!". Paşinyan doğru olaraq bu çağırışı da qulaqardına vuraraq Kremlin dəstək verdiyi liderlərin tamamını həbsxanaya göndərdi. Yəni Paşinyan Putinin hədələrindən çəkinmir. Rusiyanın Ermənistan kənd təsərrüfatı məhsullarına qoyduğu qadağalar da işə yaramadı. Radikallar həbsdə olduğundan Kremlin Ermənistanda xaos yaradacaq yeganə alternativi erməni ordusundakı casus zabitləridir. Bəlkə onlar Kremlin əmri ilə Paşinyanı devirmək istəyələr. Ancaq Vaşinqton və Brüssel bu ehtimalı da nəzərə alaraq Rusiyanın Ermənistanla bağlı kəşfiyyat planlarının Paşinyanla bölüşürlər. Nikol Paşinyan tələsməli, Azərbaycan və Türkiyə ilə sülh quruculuğunu tamamlamalıdır. Rusiyanın təzyiqlərini tam neytrallaşdıracaq amil bölgədə sülhün bərpası və regional əməkdaşlığın genişləndirilməsidir. Bişkəkdə Prezident İlham Əliyevlə Nikol Paşinyan arasında görüş və müzakirələr sülh sazişinin imzalanacağı günü yaxınlaşdırmalıdır".

**Sübhan**

---

## *Peskov: "Ermənistanla İrlandiyanın fərqi..."*

**Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Avropa İttifaqına üzvlüklə bağlı Ermənistanda keçiriləcək mümkün referendumun nəticələri İslandiya ilə onların arasındakı fərqi göstərəcək.**

"İslandlar Avropa İttifaqını istəmədilər. Baxaq görək islandlarla ermənilər arasında nə kimi fərq ilacaq"- deyə Peskov "Vesti" xəbərlər xidmətinə bildirib. Kremlin mətbuat xidmətinin rəhbəri, Ermənistanın baş naziri Nikol Paşinyanın "Rusiya artıq bizim strateji müttəfiqimiz deyil" bəyənatını şəhr edərkən bildirib ki, Moskva hələ də Rusiya-Ermənistan müttəfiqliyinin hər iki xalqın maraqlarına uyğun olduğu qənaətindədir. "Əgər cənab Paşinyan başqa cür düşünürsə, deməli referendum keçirilərsə ermənilər referendumda müvafiq qərar qəbul edərlər".

Xatlrladırlq ki, İslandiyada keçirilən referendumun nəticələrinə görə, əksəriyyət Avropa İttifaqına üzvülüyün əleyhinə səs verib və ölkənin baş naziri bu məsələ ilə bağlı yeni danışıqların aparılmayacağını bildirib.

**Rüstəm HACIYEV**



Səxavət Məmməd

# Bizi tapan da deyir, "ver yeyim..."

**Rusiya-Ukrayna müharibəsi, Körfəzdə baş verən toqquşmalar və Çinin "Bir kəmər, bir yol" layihəsi Cənubi Qafqazın, eləcə də Xəzər hövzəsinin geostrateji əhəmiyyətini xüsusilə artırıb. Regionun "Orta Dəhliz" və "Şimal-Cənub" kimi qlobal nəqliyyat arteriyalarının ana qovşağına, əsas logistika mərkəzinə çevrilmə ehtimalı çox yüksəkdir. Dövlətlər, təbii ki, bu prosesdən maksimum qazanclı çıxmaq üçün addımlar atırlar. Ancaq bəzən strateji hədəflər deyil, dünyada sürətlə dəyişən konyunkturaya uyğun anlıq davranışlar sərgiləyirlər.**

**Hazırda kiçik dövlətlərin uzunmüddətli strateji hədəflər qoyması və buna çatmaq üçün iradə nümayiş etdirməsi real və effektiv sayıla bilməz. Səbəb çox sadədir: böyük dövlətlər əvvəlki kimi dözümlü və kiçik dövlətlərin nazı ilə oynayacaq səbrə malik deyillər. Hər kəs tortdan daha böyük pay götürmək üçün yarışır, savaşır.**

**Azərbaycan bu yarışda kifayət qədər əhəmiyyətli və üstün mövqeyə malikdir: bir tərəfdən Xəzər hövzəsi və Orta Asiya ölkələri ilə sıx inteqrasiya, digər tərəfdən isə İranla Rusiya arasında yerləşən unikal coğrafi məkan. Azərbaycan həm İran, həm də Rusiya ilə münasibətlərini sabit, mehriban qonşuluq müstəvisində saxlamalıdır. Bakı İrana Hind okeanına açılan qapı kimi, Rusiyaya isə böyük bazar kimi baxmalıdır. Azərbaycan özünü Şərqlə Qərb arasında körpü kimi görürsə, praktiki siyasətini də buna uyğun qurmalıdır. Bu o demək deyil ki, hansısa kənar təhdid qarşısında boyun əyməlidir; əksinə, yalnız öz milli maraqlarını qorumalı, yaranmış geopolitik fürsətlərdən maksimum istifadə etməlidir.**

**Yaranmış vəziyyətin region üçün təhlükələri də az deyil. Ermənistanın Zəngəzur koridoru üzərindəki nəzarəti və ya idarəçiliyi ABŞ-yə ötürmək cəhdləri region üçün ciddi risklər yaradır. ABŞ-nin İrana yönəlik həmlələri və hazırkı qlobal mənzərə göstərir ki, Vaşinqton nəinki müttəfiqlərinin, hətta öz strateji maraqlarını bile tam müdafiə etmək gücündə deyil. Rusiya-Ukrayna müharibəsi də sübut edir ki, Moskva Qərbin başçılıq etdiyi və 52 ölkənin dəstəklədiyi bu çətin müharibədə məğlub olmur. Bu iki real faktı nəzərə almadan həmin güclərdən birinə qarşı cəbhə açmaq və ya onlara qarşı açıq mövqe tutmaq böyük fəsadlar doğura bilər.**

**Qərb blokuna qarşı geoiqtisadi balans yaradan Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) zirvə toplantısındakı təmaslar və oradan verilən mesajlar göstərdi ki, regional avantüralara qapılmaq dövlətlərin suverenliyini birbaşa təhdid altına ala bilər. Bizdə bir çoxları Paşinyanın Putinlə polemikasını böyük bir uğur kimi qiymətləndirir, bundan fərəhlənirlər. Ancaq Putinin mətbuat konfransındakı mesajları onu deməyə əsas verir ki, Moskva artıq İrəvanla bağlı daha kəsərli addımlar atmaq niyyətindədir.**

**Putin açıq şəkildə bəyan etdi ki, hərbi bazaları da Ermənistandan çıxara bilərlər; hətta Ermənistan rahat şəkildə Avropa İttifaqına da inteqrasiya oluna bilər - sadəcə qərar versinlər və vaxt müəyyənləşdirsinlər. Hesab edirəm ki, bir dövlət başqa bir dövləti bundan daha açıq şəkildə təhdid edə bilməz.**

**Bəziləri iddia edə bilər ki, Rusiyanın başı Ukraynaya qarşı müharibəyə qarışıb və Ermənistana hərbi müdaxilə edə bilməz. Fərz edək ki, Rusiya Ermənistana təsir etmək istəyir; bunun üçün mütləq qurudan qoşun yeritməlidir? Xeyr. PUA-larla Polşa, Baltikyanı və Rumıniya kimi NATO ölkələrinin HHM sistemlərini test edən, dronlarla Ukraynanın Qara dəniz sahillərini blokadaya alan bir dövlət Ermənistana niyə qurudan qoşun yeritsin ki? Dron texnologiyaları varkən klassik qoşuna nə gərək var? Qaldı ki, Ermənistanın Ukraynadan fərqli olaraq heç bir coğrafi dərinliyi də yoxdur. Ermənistan hərb tarixində dronlarla təslimiyyət aktına imza atan ilk ölkə ola bilər. Və belə bir ssenarida Ermənistanı kim xilas edəcək? Heç kim.**

**BMT-nin təsir imkanlarını itirdiyi bir dövrdə ŞƏT kimi alternativ təşkilatlar genişlənməkdədir. Diqqət çəkən digər məqam Orta Asiya uğrunda gedən səssiz nüfuz savaşı və burada Hindistanın artan roludur. Azərbaycanın əsas strateji tərəfdaşlarından biri Pakistan, Ermənistanınki isə Hindistandır. Hindistanla Pakistan arasındakı fundamental fərq ondadır ki, Yeni Dehli sürətlə böyüyən iqtisadiyyatdır; müttəfiq olduğu ölkələrə və maraq zonasında olan regionlara böyük sərbəst kapital və investisiya yatırır. Pakistanın yanaşması isə daha çox passiv və resurs gözləyən dövlət modelini xatırladır. Faktiki olaraq muzdlu dövlət təsiri bağışlayır.**

**Hindistanın Orta Asiyaya, xüsusilə Özbəkistana böyük yatırımları var; hətta tərəflər arasında hərtərəfli müttəfiqlik sazişi imzalanıb. Hindistan Çinlə müqayisədə daha çevik və zərif siyasət yürüdür: Çin Orta Asiya ölkələrini kredit borcları ilə küncə sıxışdırdığı halda, Hindistan bərabərhüquqlu əməkdaşlıq xətti seçib. Hindistanın təhsil və insan kapitalına yatırım etməsi onun yanaşmasının nə qədər strateji olduğunu göstərir.**

**Hindistan Ermənistanla da eyni modeli tətbiq edir. Tərəflər arasında həm "Pinaka" yaylım atəşli raket sistemləri, "ATAGS" artilleriyası və HHM komplekslərinin tədarükü, həm də birgə hərbi sənaye istehsalına dair memorandum imzalanıb. Bu tərəfdaşlığın gələcək fəsadları ayrı bir yazının mövzusudur. Deməyim odur ki, böyük dövlətlərlə müttəfiqlik məhz bu formatda - qarşılıqlı dəyər yaratmaq üzərində qurulmalıdır. Nənəm demişkən: bizi tapan da deyir, "ver yeyim..."**

**Dünyadakı geopolitik gərginliyin hələ pik həddinə çatmadığını düşünürəm; əksinə, eskalasiya mərhələsi davam edir. Bu da o deməkdir ki, hərbi münaqişələrin coğrafiyası genişlənəcək və müharibəyə cəlb olunan ölkələrin sayı artacaq.**

**Cənubi Qafqazda sülhün və ya müharibənin taleyi nə Azərbaycandan, nə Ermənistandan, nə də Gürcüstandan asılıdır. Regionda maraqları toqquşan böyük güclər uzlaşacağı təqdirdə sülh bərqərar olacaq; əgər geopolitik sövdələşmə baş tutmasa, region yeni bir xaos dalğasına qərq olacaq.**

# MEDİA: "Azərbaycanla bağlı həqiqətə uyğun olmayan materiallar dərc edilib"




**Son günlər Böyük Britaniyanın "The Independent" və "The Guardian" qəzetlərində, habelə "BBC" yayım korporasiyasının rus dili xidmətində Azərbaycan Respublikası ilə bağlı həqiqətə uyğun olmayan və ictimai rəyi çaşdırmağa yönəlmiş materiallar dərc edilmişdir. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi bildirir ki, aşkar birtərəfli yanaşma və mülahizələrə əsaslanan bu yazılar ölkəmizin beynəlxalq imicini hədəf alan məqsədli informasiya kampaniyasının tərkib hissəsi təəssüratı yaradır.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin bəyanatında deyilir: "Məqalə müəllifləri mövzunu balanslı və obyektiv araşdırmaq, eləcə də qarşı tərəfin rəsmi münasibətini öyrənmək üçün hər hansı addım atmamış, sadəcə öz subyektiv mülahizələrinə əsaslanan tezisləri ictimaiyyətə təqdim etməyə üstünlük vermişlər.

Bu isə sözügedən materialların müəyyən lobbi dairələrinin maraqlarından irəli gələn siyasi sifariş xarakteri daşıdığına dair ciddi şübhələr yaradır və dərin təəssüf doğurur.

Ölkəmizin suverenliyinə, daxili və xarici siyasətinə, habelə beynəlxalq nüfuzuna kölgə salmaq məqsədi daşıyan bu kimi halların aidiyyəti üzrə araşdırılması və zəruri addımların atılması istiqamətində müvafiq tədbirlərin görülməsi təmin ediləcəkdir.

Bir daha adı çəkilən media qurumlarını ("The Independent", "The Guardian" və "BBC") bəyan etdikləri peşə prinsiplərinə sadiq qalmağa, Azərbaycan haqqında birtərəfli, qərəzli və həqiqətə uyğun olmayan materialların dərcindən çəkinməyə, eləcə də jurnalist etikasına uyğun olaraq tərəfsiz informasiya təminatını bərpa etməyə dəvət edirik".

# «Hamı hökmdarın güclü olduğuna inandığı müddətdə onun gücü həqiqətən artır»

**"Bəzən böyük müharibələrin mahiyyətini generalların xəritələri, cəbhə xətləri, raketlərin sayı deyil, qapalı otaqda deyilmiş bir cümlə daha yaxşı açır. İngiltərənin nüfuzlu "The Economist" jurnalının Vladimir Putinə yaxın mənbəyə istinadən yaydığı iddiaya görə, Rusiya prezidenti müharibənin hansısa mərhələsində yaxın ətrafına belə deyib:"They will hang me"."Onlar məni asacaqlar". Bu sözlərin həqiqətən deyilib-deyilmədiyini bilmirik. Jurnal mənbənin adını açıqlamır. Söhbətin nə vaxt və hansı şəraitdə baş verdiyi də məlum deyil. "Onlar" kimdir - Qərb, Ukrayna, rus elitası, yoxsa məğlubiyyəti bağışlamayacaq müharibə tərəfdarları - bunu da bilmirik. Ona görə bu cümləni Putinin təsdiqlənmiş sitatı kimi qəbul etmək olmaz".**

Adalet.az xəbər verir ki, bunu tanınmış jurnalist İbrahim Nəbioğlu deyib.

Onun sözlərinə görə, amma hətta anonim mənbənin söylədiyi bir cümlə kimi belə, o, müharibənin təhlükəli məntiqini göstərir:

"Çünki müharibəni başlamaqla müharibəni bitirmək eyni şey deyil. Hakimiyyət müharibəyə başlayanda qarşısına siyasi və hərbi məqsədlər qoyur. Ərazi, təhlükəsizlik, nüfuz, təsir dairəsi, tarixi iddialar...

Ancaq illər keçir, on minlərlə insan ölür, milyardlarla dollar xərclənir, iqtisadiyyat və cəmiyyət müharibənin tələblərinə uyğunlaşdırılır.Sonra qəribə bir mərhələ başlayır. Artıq sual "Nə qazanacağıq?" deyil. Sual dəyişir: "İndi dayansaq, bütün bunları necə izah edəcəyik?" "The Economist"in Rusiya elitasındakı mənbələrindən birinin söylədiyi başqa bir fikir buna görə daha maraqlıdır. Onun sözlərinə görə, elita daxilində getdikcə belə bir hiss yaranır: "Çar çılpaqdır".

Bu ifadə bəlkə də "Məni asacaqlar" cümləsindən daha əhəmiyyətlidir. Avtoritar hakimiyyətin ən böyük sərvəti təkcə ordu, polis və pul deyil. Onun əsas sərvətlərindən biri məğlubedilməzlik təsəvvürüdür.

Hamı hökmdarın güclü olduğuna inandığı müddətdə onun gücü həqiqətən artır. Elita ona tabe olur, məmurlar əmrləri yerinə yetirir, rəqiblər susur. Amma bir gün həmin insanların ağlına "bəlkə o, əvvəlki qədər güclü deyil?" sualı düşəndə hakimiyyətin görünməyən dayaqlarından biri çatlamağa başlayır".

İ.Nəbioğlu tarixdə bunun qorxunc nümunələri olduğunu deyib:

"1917-ci ildə II Nikolayın hakimiyyəti yalnız rus ordusunun məğlubiyyətlərinə görə çökmədi. Müharibə illərlə davam etdikcə dövlətin idarəolunmaz olduğu düşüncəsi saraya, generallara, aristokratiyaya, hətta monarxiyanın öz dayaqlarına yayıldı. Çar taxtdan endiriləndə onu devirənlər əvvəlcə bolşeviklər deyildi. Öz generallarının belə böyük hissəsi artıq onun hakimiyyətdə qalmasını çıxış yolu hesab etmirdi. Müharibənin hökmdarlar üçün ən təhlükəli xüsusiyyətlərindən biri budur. Bir müddətdən sonra məğlubiyyət dövlət üçün hərbi nəticə olmaqdan çıxıb rəhbər üçün şəxsi təhlükəyə çevrilə bilər.Və həmin andan etibarən dövlətin marağı ilə hökmdarın marağı ayrılmağa başlayır. Dövlət üçün kompromis sərfəli ola bilər; Cəmiyyət üçün müharibənin dayanması sərfəli ola bilər; Əsgər üçün evə qayıtmaq sərfəli ola bilər. Amma rəhbər üçün kompromis hakimiyyətini itirmək deməkdirsə, onun hesabı tamam başqadır.



Bu nöqtədə sülh qəribə şəkildə müharibədən daha təhlükəli görünə bilər.Psixologiyada buna yaxın bir anlayış var: batmış xərc yanılması. İnsan hansısa işə böyük pul, zaman və zəhmət sərf etdikdən sonra həmin işin mənasız olduğunu qəbul etməkdə çətinlik çəkir. Məntiqlə dayanmalı olduğu halda, əvvəlki itkiləri doğrultmaq üçün daha çox itkiyə razı olur.

Müharibədə isə bu mexanizm dəhşətli miqyas alır. Beş il döyüşmüsənsə, beş ilin qurbanlarına məna verməlisən. Bunun üçün altıncı ili də qurban verirsən.Altıncı ildən sonra yeddinci ili əsaslandırmaq daha asan olur.Beləcə, əvvəlcə məqsədə çatmaq üçün aparılan müharibə bir gün keçmiş qurbanları mənasız göstərməmək üçün aparılan müharibəyə çevrilir.

Əgər "The Economist"in mənbəsinin söylədiyi "Onlar məni asacaqlar" cümləsi doğrudursa, onun əsl ağırlığı da buradadır. Bu, qorxan bir insan haqqında cümlə deyil. Bu, daha təhlükəli bir vəziyyət haqqındadır:

"Bir ölkənin müharibədən çıxış qapısı ilə bir hökmdarın şəxsi çıxış qapısının artıq eyni yerdə olmaması haqqındadır". Tarix göstərir ki, belə anlarda ən təhlükəli sual hökmdarın müharibəni qazanıb-qazanmayacağı deyil. Ən təhlükəli sual budur: Əgər sülhdən sonra öz gələcəyini görmürsə, niyə sülhü seçsin ki?".

**Vasif**

# Hindistan Mərkəzi Asiyada Çinə meydan oxuyur?

**"Hindistanın Baş naziri Narendra Modi 29 avqust 2026-cı ildə Özbəkistana iki günlük dövlət səfərinə gedib. Maraqlı məsələdir ki, 2014-cü ildən Hindistan baş naziri olan Narendra Modinin Özbəkistana sayca dördüncü səfəridir. Gözləntilər ondan ibarətdir ki, Modi Mirziyoyevlə bu səfəri çərçivəsində xüsusilə bir sıra strateji məsələlərin müzakirə edə bilər".**

Adalet.az xəbər verir ki, bunu Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov deyib.

O, bildirib ki, aparılan təhlillər və atılan addımlar, həmçinin dövlətlərarası sənədlərə nəzər saldıqda aydın şəkildə görmək olar ki, Hindistan-Özbəkistan strateji tərəfdaşlığının dərinləşdirilməsi ikitərəfli və regional münasibətlərə ciddi təsir edən amillərdir:

"Burada ticarət və investisiyalar, enerji və kritik resurslar, müdafiə və təhlükəsizlik, rəqəmsal bağlantı, təhsil və humanitar əlaqələr xüsusilə qabarı şəkildə önə çıxmaqdadır. Həçinin səhiyyə, əczaçılıq, kənd təsərrüfatı, kimya və maşınqayırma sahələrində əməkdaşlıq həm Modi, həm də Mirziyoyev hökumətinin əsas prioritetləri sırasında olduğu üçün, regional və beynəlxalq məsələlərdə də tərəflər bir-birinin maraqlarını nəzərə alırlar. Statistik məlumat olaraq qeyd edim ki, 2025-ci ildə Hindistan-Özbəkistan arasında ticarət dövriyyəsi təxminən 1,3 milyard ABŞ dolları olub ki, bunun da təxminən 1,15 milyard dollar Hindistanın Özbəkistana ixracı, 164,6 milyon dollarını isə Özbəkistanın Hindistana ixracı təşkil edir".

Politoloqun sözlərinə görə, təbii ki, 1,5 milyard əhalisi olan Hindistan və 35 milyon əhalisi olan Özbəkistan üçün bu rəqəm olduqca çox kiçik rəqəm hesab edilə bilər:

"Gözləntilərdən biri də, Modinin səfərindən sonra önümüzdəki 4 ildə, yəni 2030-cu ilə qədər, tərəflər arasındakı ticarət dövriyyəsi təqribən 10 milyard ABŞ dolları həcminə qaldırılmalıdır. Burada müqayisə üçün qeyd edim ki, Hindistanın əsas rəqiblərindən biri olan Çinin Özbəkistanla 2025-ci ildə ticarət dövriyyəsi 17,2 milyard ABŞ dolları təşkil edib ki, bu da indiki halda Hindistan və Özbəkistan arasındakı illik ticarət dövriyyəsindən təqribən 10,5 dəfə çox olması deməkdir. Hətta Özbəkistanın Milli Statistika Komitəsinin məlumatına görə, Çin və Özbəkistan arasındakı ticarət dövriyyəsi ölkənin ümumi xarici ticarət dövriyyəsinin 21,2%-i deməkdir və Çin Özbəkistanın ən böyük ticarət tərəfdaşıdır. 2025-ci ildə Pakistan və Özbəkistan ticarət dövriyyəsi 445,9 milyon ABŞ dolları olub ki, bunun da böyük hissəsi Özbəkistanın Pakistana ixracını təşkil edir. 2025-ci ildə Özbəkistanın ixracı təqribən 325 milyon dollar təşkil edib. Bu statistik məlumatlardan aydın olur ki, Hindistan üçün Mərkəzi Asiyada ticarət mübarizəsində əsas rəqib Çin hesab edilir. Financial Times fDi Markets məlumatlarına əsasən, 2010-2023-cü illərdə Hindistan şirkətləri Mərkəzi Asiyada 10 layihə üzrə təxminən 1,5 milyard dollar kapital qoyuluşu nəzərdə tutan layihələr elan ediblər. Bunun böyük hissəsi enerji və mədənçilik layihələridir. Avrasiya İnkişaf Bankının (EDB) 2026-cı ildə dərc etdiyi hesablamaya görə, 2025-ci ilin ortasına Çin şirkətlərinin Mərkəzi Asiyanın 5 ölkəsində yığılmış birbaşa investisiya (FDI) portfeli 35,9 milyard dollar olub. Çin bununla Mərkəzi Asiyada ən böyük Asiya investoru olaraq qalır. Həm Çin, həm də Hindistan tərəfindən Mərkəzi Asiya ölkələrində investisiya qoyuluşunun həcminə diqqət yetrildikdə, burada da tərəflərin investisiya fərqləri aydın şəkildə görünməkdədir. Bu fərq təqribən 24 dəfə deməkdir".



S.Hümbətov deyib ki, Modinnin bu səfəri regional və qlobal baxımdan da diqqətlə izlənilməli hadisədir:

"Yəni, Modinin Özbəkistana səfərini yalnız Hindistan-Özbəkistan münasibətləri çərçivəsində qiymətləndirmək düzgün olmaz. Məlum məsələdir ki, son 15 ildə Hindistanın Mərkəzi Asiyada geosiyasi mövqelərini gücləndirmək istiqamətində ciddi strategiyasının olduğu gizli məsələ deyil. Əlbəttə, Hindistan üçün iki əsas rəqib olan Pakistan və Çinin Mərkəzi Asiya dövlətləri ilə əlaqələrini dərinləşdirməsi, Yeni Dehlinin seyirci mövqe sərgiləməsinə imkan verə bilməz. Məhz bu səbəbə görə Modi hökuməti həm Özbəkistan, həm də digər Mərkəzi Asiya ölkələri ilə münasibətləri inkişaf etdirməkdə qərarlı olduqlarını göstərməyə çalışır. Modinin Özbəkistandan sonra, yəni 30 avqustdan sonra Qırğızıstana səfər edəcəyi, 31 avqust-1 sentyabr tarixlərində Qırğızıstanın paytaxtı Bişkekdə Şanxay Əməkdaşlıq Təşkilatının zirvə toplantısında iştirak edəcəyi özlənilir. Baş nazirin bu səfərini iki istiqamət üzrə oxumaq mümkündür.Birinci istiqamət, Mərkəzi Asiya ölkələrinin hər biri ilə Hindistan arasında ikili münasibətləri dərinləşdirmək və beləliklə bu regionda Çinlə rəqabət aparmaq qabiliyyətini möhkəmləndirmək.İkinci istiqamət isə, regional çoxtərəfli diplomatiyanın daha gücləndirmək. 27 yanvar 2022-ci ildə Hindistan və Mərkəzi Asiya ölkələrinin rəhbərləri arasında online formatda zirvə toplantısı da reallaşmışdır. Hətta bu formatın qorunması üçün iki ildə bir dəfə sammitin keçirilməsi qərarlaşdırılıb. Daha sonra isə, Hindistanın və Mərkəzi Asiya ölkələrinin XİN başçıları arasında 2025-ci il iyunun 6-da Dehlidə artıq 4-cü "India-Central Asia Dialogue" adı ilə görüş keçrildi. Bütün bu atılan addımların əsas hədəfi isə, Hindistanın regionda güclənməsini sürətləndirməkdən ibarətdir. 18-19 may 2023-cü ildə Çinin Sian şəhərində Çin və Mərkəzi Asiya ölkələri arasında da eyni formatda əməkdaşlıq platformasının yaradılması həm də ondan xəbər verir ki, həm Çin, həm də Hindistan üçün Mərkəzi Asiya vacib strateji region kimi qəbul edilir. Nəzərə alsaq ki, Mərkəzi Asiya ölkələri Çin və Hindistanla birgə Şanxay Əməkdaşlıq Təşkilatında təmsil olunurlar, o zaman burada bir neçə taktiki və strateji gedişatın icrası mümkündür. Mərkəzi Asiya ölkələri üçün balans siyasətinin qorunması, yəni hər iki ölkə ilə balanslı şəkildə siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əlaqələri davam etdirmək gələcək perspektivlər üçün də baza rolunu oynaya bilər. Həm Çin, həm də Hindistan arasında Mərkəzi Asiya uğrunda ciddi mübarizəni görmək mümkündür".

**Sübhan**

# "Pezeşkian və SEPAH arasında qarşıdurma daha da dərinləşir"

**"İranda hakimiyyət daxilində fikir ayrılıqları getdikcə daha da dərinləşir və vəziyyət böhranlı xarakter alır. Prezident və hökumət nümayəndələri ABŞ sanksiyalarının İran iqtisadiyyatına ciddi zərbə vurduğunu bildirsələr də, SEPAH-ın nəzarətində olan televiziya kanallarında bu barədə fərqli və reallığı əks etdirməyən məlumatlar yayımlanır. Prezident dövlət televiziyasına xalqı yanlış məlumatlandırmaqda ittiham edir və ölkədə iqtisadi vəziyyətin getdikcə ağırlaşdığını vurğulayır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

O, bildirib ki, hazırda İranda əsas qərarların qəbulunda SEPAH-a sərt xətt tərəfdarlarının, o cümlədən komandan Əhməd Vahidi, Möhsin Rzayi və Yəhya Səfəvinin mühüm təsirə malikdir. Bu şəxslərin prezidentə və onun daha yumşaq siyasət yürütmək cəhdlərinə münasibətinə mənfidir: "Prezident Məsud Pezeşkian ABŞ ilə razılaşmanın əldə olunmasının, iqtisadi təzyiqlərin azaldılması üçün diplomatik kanalların işə salınmasının və ölkənin mövcud böhrandan çıxarılması istiqamətində addımların atılmasının vacibliyini vurğulayırlar. Onların fikrincə, iqtisadiyyatın mövcud vəziyyəti uzunmüddətli qarşıdurmanı davam etdirməyə imkan vermir. ABŞ-nin İrana qarşı hərbi əməliyyatları və lokal zərbələri fonunda bu fikir ayrılıqları daha da kəskinləşə bilər. ABŞ tərəfinin İranla danışıqlarda prezident institutunun ölkənin bütün təhlükəsizlik və hərbi siyasətinə tam nəzarət etmədiyini nəzərə alması da bu daxili hakimiyyət bölgüsünü göstərən amillərdən biridir. SEPAH-ın danışıqlarda daha sərt mövqe nümayiş etdirməsi isə mümkün razılaşmanın qarşısında əsas maneədir".

Politoloqun sözlərinə görə, SEPAH-ın Rusiya ilə hərbi və strateji əlaqələrinin də Tehranın xarici siyasətinə təsiri var:

"İranın Rusiyadan hərbi texnologiya və silah sistemləri əldə etməsi iki ölkə arasında təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirib. Bu baxımdan, SEPAH daxilində ABŞ-la genişmiqyaslı sövdələşməyə qarşı olan qüvvələrin mövqeyi daha da sərtləşə bilər.Proseslərin bu istiqamətdə davam etməsi halında İran hakimiyyəti daxilində istefalar və siyasi dəyişikliklər gündəmə gələ bilər. Əgər prezident və hökumətin siyasi manevr imkanları daha da məhdudlaşdırılarsa və real hakimiyyət tam şəkildə SEPAH-ın əlində cəmləşərsə, ölkənin yeni və daha ciddi hərbi qarşıdurmaya sürüklənməsi riski arta bilər.Bu isə İran daxilində siyasi böhranın dərinləşməsi ilə yanaşı, regionda daha genişmiqyaslı müharibə ehtimalını da yüksəldə bilər".

**Vasif ƏLİHÜSEYN**

*Orxan ASLAN*



# QUBADLI: 31 Avqustdan 25 Oktyabra...

***Bəzi insanların taleyi doğulduğu gündən deyil, ölümdən döndüyü andan yazılır***

***1993-cü il idi. Cəmi 1 yaşım var idi... Erməni raketinin qəlpələri Qubadlıdakı evimizin qapısını yerindən söküb atanda, uşaqlığıma qismət olacaq o balaca çarpayını darmadağın edəndə mən orada yox idim. Anamın hansısa qeyri-ixtiyari hissiyyatı, "nənəmgilə gedək" təkidi bizi o ölüm saçan qəlpələrdən qurtarmışdı. Qonşumuz həmin gün həlak oldu, biz isə sağ qaldıq... Amma o gün raketin darmadağın etdiyi təkcə evimizin qapısı və şüşələri olmadı; bizim sakit həyatımız, gələcəyimiz və uşaqlığımız darmadağın oldu.***

***Sonra 31 avqust gəldi. Qubadlı işğal olundu. Biz bir gecədə hər şeyimizi o torpaqda qoyub, adına "köçkünlük" deyilən və sony görünməyən bir sürgünə çıxdıq.***

***Böyüdüyüm o yarımtikili yataqxana... Külək əsəndə damı silkələnən, yağış yağanda tavanından su sızan, divarlarının sarı ləkəsi günü-gündən böyüyən o qocaman bina. Balaca ikən onu dünyanın ən hündür binası sanırdım. Sonra böyüdüm... Şəhərin göydələnlərini gördükcə gözümdə o bina kiçildi, amma içimdəki utanc böyüdü. Yaşıdlarım harada qaldığımı soruşanda küncə sıxılardım. Ünvanı deməyə dilim gəlməzdi, utanaraq "metroya yaxındır..." deyib yalan danışardım. O yalan mənim uşaqlıq sığınacağım, yoxsulluqdan və kimsəsizlikdən qorunduğum tək siparim idi.***

***Kasıblıq o yataqxananın divarlarını da deşmişdi. İmkanı olanlar köçüb gedir, qalanlar isə boşalan mənzillərin divarlarını söküb bir-birinə qapı açırdı. Biz o çökməkdə olan qocaman bina ilə baş-başa qaldıq. İllərimiz, gəncliyimiz, arzularımız o tavanı sızan otaqlarda, yurd həsrətinin kölgəsində əriyib getdi. Bizə bu cəhənnəm həyatını yaşadan, uşaqlığımızı əlimizdən alan erməni faşizmi idi! Amma bu ah yerdə qala bilməzdi!***

***25 oktyabr 2020-ci il... Müzəffər Ali Baş Komandanın sarsılmaz qətiyyəti, dəmir iradəsi və uzaqgörən siyasi zəkası sayəsində 30 illik o qara həsrət darmadağın edildi! Rəşadətli Ordumuz düşmənin başını əzdi, erməni vəhşilərini müqəddəs torpaqlarımızdan iti qovan kimi qovdu! Qubadlı azad olundu!***

***Bu Zəfəri bizə bəxş edən şanlı Ordumuza, qəhrəman əsgərlərimizə minnətdarıq! Torpaq uğrunda canını fəda edən müqəddəs Şəhidlərimizin ruhu qarşısında baş əyir, dərin ehtiramla rəhmət diləyirik. Canını Vətənə sipər edən Qazilərimizə möhkəm cansağlığı, məğrur Ordumuza hər zaman yenilməz güc və qüvvət arzulayırıq!***

***Bu gün 31 avqustdur... Artıq təqvimdəki bu gün matəm deyil, intiqamımızın alındığı, qürurumuzun göylərə yüksəldiyi gündür. Biz o saralmış yataqxana divarlarını, yarımçıq qalmış uşaqlıq kədərimizi arxada qoyub öz evimizə, azad Qubadlımıza qayıdırıq!***

***Başın dik olsun, Vətən! Qubadlı azaddır, biz də azadıq!***

# "Əsas problem problemli kreditlərin 723 milyon manata çatması deyil..."



**"Çünki 723 milyon manat hazırkı ümumi kredit portfelinin təxminən 2 faizinə bərabərdir. Beynəlxalq təcrübədə problemli kreditlərin 5 faizi keçməsi artıq xüsusi diqqət tələb edən səviyyə hesab olunur. Azərbaycanda problemli kreditlərin payının indikindən dəfələrlə yüksək olduğu dövrlər olub. Məsələn, 2018-ci ildə bu göstərici 12 faizdən yuxarı idi. Ona görə indiki 2 faiz ətrafındakı səviyyə özü-özlüyündə təhlükəli deyil".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. "Amma 37,85 faizlik artım sürəti ciddi siqnaldır. Bu gün 723 milyon manatlıq problem əsasən krediti qaytara bilməyən borcalanların problemidir. Bu arzuolunmaz dinamika bir müddət davam edərsə, bu bankların probleminə çevriləcək. Uzun müddət davam edərsə, onda bütövlükdə bank sektorunun probleminə çevriləcək. Ona görə də bu göstəriciyə təkcə bugünkü 723 milyon manat və ya 2 faiz səviyyəsindən baxmaq olmaz. Banklar artımın səbəblərini araşdırmalı, Mərkəzi Bank isə bu dinamikanı diqqətlə izləməlidir. Çünki proses vaxtında nəzarətə alınmasa, problem borcalanlardan banklara, bank sektorundan isə bütövlükdə maliyyə sisteminə keçə bilər", - deyə o, bildirib.

**Vasif**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# ... İndi göstər görüm restoranı?..

**Şair-publisist Tahir Taisoğlu ilə uzun müddət dostluq eləmişik, elə bu gün də dostuq ha! İntəhası, ötən əsrin 70-ci illərinin sonunda oluğu kimi tez-tez görüşmürük. O, çox istedadlı şair olmaqla yanaşı, duzlu, yumorlu, şirin və səmimi bir ziyalıdı. Tahir qardaşımız sovet dönəmində üzümçülük briqadiri də işləyib və səhv eləmirəmsə, 18 yaşında ilk şeirlər kitabı çap edilib. Bizim onun şairliyilə işimiz yoxdu!**

**Çünki bir istedadlı şair kimi çağdaş Azərbaycan ədəbiyyatında öz sözünü deyib və imzasını tanıdıb! Həmişə də onunla bulvarda "Venesiya" - deyilən yerdə görüşürdük. Ordakı restoranda yaxşı yeyib-içərdik! "Ağ süfrə" çaxırından çox xoşu gəlirdi. Əyləşən kimi xidmətçidən soruşurdu ki, "Ağ süfrəniz" var? Xidməçi də deyirdi ki, bəli, var! Bax onda Tahirin kefi ala buluddan nəm çəkirdi, və "gətir" - deyirdi .**

**Bax o vaxtlar böyük şair Tofiq Bayramdan danışırdı. Deyirdi ki, Tofiq Bayram həm böyük şair idi, həm də böyük insan! Onun dili ilə demiş olsaq, Tofiq Bayram bal kimi şirin adam olub. Tahir Taisoğlu o vaxtlar böyük şairlə bağlı bir neçə əhvalat danışdı, çox xoşuma gəldi, ancaq həmin əhvalatları onda qələmə ala bilmədim! Çox güman ki, tənbəllik elədim! İndi düşünürəm ki, səhv eləmişəm! Ona görə də Tahir qardaşımızın danışdığı əhvalatları qələmə alıram...**

**... Bir gün Tofiq Bayram Şamaxıya gedir. Onda da şairin, yazıçının, jurnalistin böyük hörməti vardı! Onu raykomun birinci katibi qarşılayır, qonaqlıq verir. Qonaqlıqdan sonra birinci katib, Tofiq Bayram və rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri şəhərə gəzməyə çıxırlar. Yağış yağandan sonra küçənin birində gölməçə yaranıbmış! Həmin yerdən keçəndə bir qoca kişi onlara yaxınlaşır! Görür ki, kimdisə lap böyük adamdı, hətta birinci katibdən öndə gedir. Qoca deyir: Görürəm, lap böyük adama oxşayırsan. Dərdimizi sizə deyək, biz kömək edin! Tofiq Bayram:**

**- Ağsaqqal, nə kömək lazimdı, de, edək?**

**Qoca kişi:**

**- Qadan alım, hər yağış yağanda bu küçədə bax belə gölməçə yaranır, arvad-uşaq burdan keçə bilmir, gərək ayağımıza ya uzunboğaz qaloş geyinək, ya da sapox! Onu da hər adam tapa bilmir. O gölməçə ilə bağlı yanındakı adamlara dəfələrlə demişik, bir iş görməyiblər, bəlkə siz kömək edəsiniz? Tofiq Bayram ağsaqqaldan soruşur:**

**- Kişi, o göl nədəndir! Ağsaqqal:**

**- Başına dönüm, nədən olacaq, sudan!**

**Şair:**

**- Bax bəla budur ki, o göl sudandı.**

**- Əgər araqdan, pivədən olsaydı, zəng edərdim Yazıçılar İttifaqına, İslam Səfərli gəlib dostları ilə bir saata qurudub gedərdilər! Bax bu bir zarafatdır. Heç bir gün keçmir ki, o küçənin suyunu çəkirlər və ora asfalt örtük döşəyirlər. Qoca da bunu görür və Tofiq Bayrama təşəkkürünü bildirir.**

**Yenə Tofiq Bayram Şamaxıya gəlir. Tahirgilin evinə çatanda onu çağırır! "Ay Tahir, ay Tahir" - deyir bir səs çıxmır. Axırda onu şeirlə səsləyir:**

***Demirik, qarajdan çıxar maşını,***
***Barı pəncərədən çıxar başını!***

**Sovet dövründə həm də tez-tez şairlər, müğənnilər və aktyorlar rayonlara gedir, kolxoz və sovxozlarda olur, əmək qabaqcılları ilə görüşürdülər. Tofiq Bayram da həmin insanlarla bir yerdə Astaraya gedir. Astaranın da birinci katibi çox savadlı, ziyalı, qurub-yaradan insan idi. Çingiz Fərəcov da onları kəndlərə, kolxoza, sovxoza aparır, gördükləri möhtəşəm işlərlə onları tanış edir.**

**Axırda Tofiq Bayram əsəbləşir və deyir:**

***Bəsdir, bizə göstərdin Astaranı,***
***Tay indi göstər görüm restoranı?***

**Və ruhu şad olsun Tofiq Bayramın! Onun kimi şairlər heç vaxt ölmürlər və həmişə sağdırlar!!!**

# Kövrək notlar və yağış...

**Tələbəlik illəri... O illərin şirinliyi, dadı, duzu düz əlli ildir ki, yadımızdan çıxmır! O illərin hər günü, hər həftəsi, hər ayı xatirələrimizə, yaddaşımıza köçüb və bu gün də yadımızdan çıxmır... Heç vaxt da çıxmayacaq! Ötən il avqustun 1-də tələbə dostlarımızla Bakıda "Çanaqqala"da görüşmüşdük.**



Və bu il də avqustun 31-də elə həmin məkanda yığışdıq! Görüşün təşəbbüskarı qazaxlı Nailə və Zemfira xanım idi. Amma həmişə olduğu kimi, bu dəfə də tədbirin təşkilatçısı, əziyyət çəkəni, bütün yükü üzərinə götürən polkovnik, gözəl insan və dostluqda hamıya sadiq olan, başqaları kimi özünü çəkib dağın başına qoymayan, böyük Borçalı mahalınından olan dostumuz və qardaşımız Elşad Həsənov idi... Elşad həm də bizim məclislərin aparıcısı olur və tədbiri də çox gözəl aparır... Yəni onun şırın söbətindən, yumorlu, dadlı-duzlu danışığından doymaq olmur...



Əsl Azərbaycan qadınının milli dəyərlərini daşıyan, kübar xanım və səmimi tələbə dostlarımızdan olan Zemfira xanım öncədən hamıya bildirmişdi ki, görüşü saat 18-də "Çanaqqala"da olacaq! Və mən 15 dəqiqə tez həmin yerə çatdım! Heç vaxt görüşə gecikməyi sevmirəm, ona görə də 10-15 dəqiqə tez gedirəm. Vaxt tamam olanda Elşad müəllimə zəng elədim. Dedi ki, 5 dəqiqəyə çatıram. Elə bu vaxt "Azərbaycan" qəzetinin əməkdaşı, Əməkdar jurnalist, bacım qədər çox istədiyim, Sovet İttifaqı Qəhrəmanı Yusif Sadıqovun qızı Flora xamın gəlir və çox səmimi görüşürük... Elşad qardaşımız dediyi vaxtda gəlir... Onunla da qucaqlaşıb, öpüşüb- görüşürük... Bir qədər keçir tələbə dostumuz Şamil Abdullayev təşrif buyurur...



Onunla da hal-əhval tuturuq ... Şamil uzun müddət "Bakı-Baku" qəzetlərində şöbə müdiri işləyib. Sonradan böyük biznes yaradıb və indi iş adamı kimi fəaliyyət göstərir. Amma o, 1999-cu ildə Almaniyada ağır ürək əməliyyatı keçirib. Şükür Allaha, indi lap yaxşıdı. Yeyib-içir və deyir ki, məni saxlayan bax bu araqdı. Əməliyyatdan 5 gün sonra yaxşı vurdum. Bir sözlə, mənim ən sadiq dostum bu araqdı.... Birazdan Əməl xanım gəlir... Gövhər xanım gəlir... Zemfira xanım gəlir... Yeganə xanım gəlir... Zaqatalalı Elmira xanım gəlir... Qəbələli Nailə xanım gəlir... Şirvanlı Elmira xanım gəlir... Yeganə Rəhimova bizim tələbə qızların gözü olub, yəni o, öz istedadı, səmimiyyəti və insanlığı ilə həmişə fərqlənib. Ona görə də hər iki qrupun uşaqları Yeganə xanımı çox istiyirlər. Elə mənim özüm də onu çox istəyirəm.

Və sonda qazaxlı, Almaniyada yaşayan Nailə xanım gəlir... Biraz gecikib, deyir ki, "probka"ya düşmüşdüm... O da hamımızla mehribanlıqla görüşür və keçib onun üçün ayrılmış yerdə əyləşir... Yenə məclisimizi Elşad qardaşımız aparır... Özü də çox şırın. Hərdənbir Şamil dostumuz da tədbirə bir yumor, duz, şirinlik qatır.

Səməd Vurğundan və Hüseyn Arifdən gözəl şeirlər deyir. Uşaqlar ondan yenə şeir istəyir! Şamil gözəl məhəbbət şeirləri səsləndirir... O, çox gözəl də şeir ifa edir...

Biz Azərbaycan Dövlət Universitetinin (BDU-nun) jurnalistika fakültəsini 1979-cu ildə bitirmişik! Bizə dərs demiş müəllimlərimizi xatırlayırıq! Rəhmətə gedənlərin ruhuna dualar edir, qalanlara can sağlığı arzulayırıq! Tələbə yoldaşlarımızı da yada salmağı unutmuruq! Rəhmətə getmiş dostlarımız-Azəri, Ağalar Mirzəni, Əli Səfəroğlunu , Qisməti, Nizaməddin Rəfiyevi, Vaqif Əliyevi, Beydullanı, Əhmədli, Mübarizi, Habili, Bəhruzəri, Məzahiri... xatırlayırıq... Və gözlərimiz dolur... Bunu hiss edən Elşad qardaşımız arada yaranmış kədərli notları aradan qaldırır....

Həmişə görüşümüzə şirinlik qatanlardan biri olan professor Tofiq Yusifov həmin günü yanımızda olmadı, çünki açıq ürək əməliyyatı keçirib! Amma biz onu unutmadıq! Biz həm də gözəl insan İbrahim Mehdiyevi də yaddan çıxarmadıq. O, öz həyat yoldaşına çox sədaqətlidir. İbrahimin 45 il bir yerdə çox mehriban yaşadığı həyat yoldaşı dünyasını dəyişib. Onun vəfatından sonra İbrahim qardaşımız hələ də özünə gələ bilmir. Mən onu tədbirə dəvət edəndə dedi ki, ora gəlib bikef halda oturaraq qanimizi qaraltmaq istəmirəm. İnan, Faiq, yoldaşımın vəfatından sonra özümə gələ bilmirəm... Balalarımla üç aylıq Almaniyaya gedirəm, görüm necə olacaq! O, bu sözləri deyib kövrəldi və məni də kövrəltdi... Filologiya elmləri doktorları Loğman Rəşidzadəni, Rəhman Salmanlını, Xalq yazıçısı Afaq Məsudu da yada salmağı unutmadıq...



Görüşdə olan hər bir tələbə dostumuz çox maraqlı söhbətlər elədi... Xüsusilə də Əməkdar mədəniyyət işçisi Elmira Mehdiyevanın həyat yolu ilə bağlı söhbəti bizim qəlbimizdə dərin iz qoydu... Onun hansı çətinlikdən keçib jurnalistikada uca zirvəni fəth etməsinin bir daha yenidən şahidi olduq ...

Saat 23-dür... Bal kimi söbhətimiz tükənmək bilmir... Və ayrılmaq istəmirik, hamımızın ürəyi doludur... Bir də Allah bilir nə vaxt görüşəcəyik! Bunu Elşad qardaşımız hiss edir! Və deyir kı, Allah qoysa yenə görüşərik.

**Qazaxlı Nailə nə vaxt istəsə, görüşümüzü təşkil edəcəm, özü də bütün məsələləri özüm həll edəcəm... Və yenidən kövrəlirik... Gözlərimiz dolur... Gözlərimiz sevincdən dolur... Ayrılırıq yenidən görüşmək üçün... Birdən göy guruldayır, şimşək çaxır... Bir leysan yağış yağır ki, tut ucundan göyə çıx! Yağışın ucundan tutub göyə çıxmırıq, maşınlara əyləşib isti ocaqlarımıza gedirik... Yağış da bir təmizlikdir ha! Ağacları və küçələri təmizləyir, ürəyimizə bir hərarət, sevgi gətirir! İlahi, min şükür bu günə!!!**

**Faiq QİSMƏTOĞLU**



# YTB VE TİKA'NIN ÇAĞIMIZ DÜNYASINDAKİ TÜRK KİMLİĞİNİN İNŞASINDA ROLÜ

**Türkiye Cumhuriyeti Cumhurbaşkanlığı İletişim Başkanlığı ve Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı (YTB) tarafından İbn Haldun Üniversitesi'nde düzenlenen Medya Yaz Okulu - 2'ye katılmak bana da nasip oldu. Cumhurbaşkanlığı İletişim Başkanı Sayın Burhanettin Duran beye ve Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanı Sayın Abdulhadi Turus beye ve Abdullah Özbay beye özellikle bu harika eğitim için kendim ve eğitime katılan arkadaşlarım adına**




**teşekkür ederiz. TRT'den, T.C. İletişim Başkanlığı'ndan ve Fokusplus'tan çok önemli isimlerden değerli bilgiler edindik.**

Bu eğitim programında yalnızca eğitim almadık, dünyanın dört bir yanından gelen insanlarla tanışmak, arkadaş, kardeş olmak şansına eriştik. Balkanlar'dan Kafkasya'ya, Orta Asya'dan Afrika'ya, Avrupa'ya kadar gönül coğrafyamızın en uzak köşelerinden arkadaşlarımız oldu. YTB, bizlere sadece eğitim sunmadı; farklı coğrafyadan, farklı dillerde ve geleneklerde olan insanların, asil Türk misafirperverliği eşliğinde bir arada, takım halinde çok güzel işler çıkarabileceğini uygulamalı olarak gözler önüne sermiş oldu. Daha önce kaleme aldığım bir makalede, ben de bir soykırım çocuğu olarak asrın acılarını omuzlarında taşıyan "soykırımın çocuklarından" bahsetmiştim. Evet, bizler oradaydık... Azerbaycan'dan, Bosna'dan, Gazze'den, Doğu Türkistan'dan, Kafkasya'dan, Afrika'dan kardeşlerimizle beraber eğitime katıldık. Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı (YTB) bizlere dilimizi, dinimizi, ırkımızı sormadı; aramızda zerre kadar ayrım da yapmadı. Asil Türk tavrına ve köklü devlet geleneğimize uygun olarak her birimize kardeşcanlılık ile yaklaştı. İnsan olmanın, insanca yaşamanın gereğini yaptı. İbni Haldun Üniversitesi'nde amfi sıralarında otururken bir an düşündüm: Sadece kendi soyuna değil, tüm dünyadaki diğer insanlara, özellikle de mazlum coğrafyalardaki insanlara karşı gösterilen bu hoşgörü, bu güzel Türk konukseverliği tam anlamıyla Yunusça, Mevlanaca ve Yesevice bir tavırdı. Hakikaten tarifi imkansız ve muazzam bir duygudu.

### *Türk Tipi Kamu Diplomasisi ve Vicdani İnsan Yetiştirmek...*

YTB ile alakalı olarak Başkan Sayın Abdulhadi Turus'un sözleri aslında kurumun faaliyetlerinin özeti gibidir: "YTB, kurumsal olarak özellikle kamu diplomasisi ve kültürel diplomaside dünya genelinde Türk tipi modelini oluşturmaya çalışan, insanı tahkim eden bir kurumdur. Bu kapsamda en önemli faaliyetlerinden biri olarak, dünyanın dört bir tarafından uluslararası öğrencileri Türkiye'ye getiriyor; onları akademik altyapıyla donatırken bir yandan da kendi kültürel değerlerimizi onlara aktararak ülkelerine geri döndüklerinde buradaki tecrübeyi kendileriyle birlikte ülkelerine götürmeleri için çalışıyoruz. Buradaki esas felsefe, Hz. Muhammed (s.a.s.) Efendimizin 'Komşusu açken tok yatan bizden değildir' hadis-i şerifinden ilham alarak bu işleri yapmaktır. Biz insan yetiştirirken sadece kendi alanında iyiyi; yani sadece iyi bir mühendisi, iyi bir medyacıyı, iyi bir ekonomisti yetiştirmiyoruz. Bir de vicdani, insani yetenekleri olan insan yetiştiriyoruz. Belki bizim kurumumuzun muadili kurumlardan en büyük farkı budur."

### *Dijital Çağda Ahlaki Medya Neferleri...*

Aslında YTB'nin Medya Yaz Okulu'nun hedefleri arasında, dijital çağın şuuruna, insani değerlere sahip birer medya neferi yetiştirmenin olduğunu da eğitim sırasında çok net anlamış olduk. Nitekim Başkan Sayın Abdulhadi Turus Bey de bu konuyla ilgili olarak şu ifadeleri kullandı: "Ben şuna inanıyorum: Biz medyada ahlaki nitelikleri bir duruş sergileyerek insanları daha çok çekebilecek farklı şeyler yapabiliriz. Dünyadaki en büyük sıkıntı şu: Bir mutlak doğru var; o mutlak doğruya yakın değilseniz yanlışsınız. Böyle bir şey yok. Bizim en iyi anlatmamız gereken şey de bu. Bunu medyada anlatacağız. Vereceğiniz mesaj, aslında medeniyetinizi de yansıtan bir unsur olacak. Biz, Türkiye Burslusu öğrencilerin dünyanın daha iyi olabilmesi için medyayı daha iyi, daha doğru ve ahlaki kullanmasından tarafız. Bununla ilgili mücadele veriyoruz açıkçası".



### *Sömürgecilere Türk Tavrıyla Hesap Sormak*

Özellikle belirtmek isterim ki, bir araştırmacı gazeteci olarak Yurtdışı Türkler ve Akraba Topluluklar Başkanlığı'nın ve Türk İşbirliği ve Koordinasyon Ajansı Başkanlığı'nın (TİKA) faaliyetleriyle yakından tanışmak beni hem sonsuz bir gurur ve mutluluğa sevk etti hem de aynı zamanda bir dert sahibi oldum. Evet, evet yanlış değil, doğru duydunuz; tam anlamıyla bir dert sahibi oldum. Düşünün, dünyanın dört bir yanındaki soydaşlarına ve gönül coğrafyasındaki mazlumlara karşı bu kadar iradeli, ilkeli, kalpten ve asla sömürgeci bir zihniyete kapılmadan hizmet etmek mümkünmüş. İşte asil, köklü, kutlu Türk devleti, Türkiye Cumhuriyeti Devleti adına YTB ve TİKA bunu yapabiliyor.

TİKA ihtiyaç gereği sahadaki kalkınma projeleriyle, ihya ettiği tarihi mirasla coğrafyaları ayağa kaldırırken; YTB ise o coğrafyaların insanını eğitip donatarak Türk hoşgörüsüyle küresel bir kardeşlik ağı örmektedir. Bu hizmetleri dünyaya duyurmak, bulunduğumuz ortamlarda anlatmak bizim derdimiz olmalı. Bu denli önemli hizmetlerinden dolayı TİKA'ya, Başkan Sayın Abdullah Eren Bey'e ve YTB'ye Sayın Abdulhadi Turus Bey'e teşekkür ederiz. Kendileri Türk Devletimiz Türkiye Cumhuriyeti Devleti Cumhurbaşkanı Sayın Recep Tayyip Erdoğan'ın "Dünya beşten büyüktür" ifadeleri doğrultusunda muazzam işler hayata geçiriyorlar.

Şimdi açıkça sömürgecilere; Avrupa'ya, Amerika'ya, Rusya'ya, Çin'e, Fransa'ya ve diğer egemen sömürgeci güçlere sormak lazım: Demek ki sömürmeden, ezmeden, ötekileştirmeden, insanca, adilce daha huzurlu bir dünya kurmak mümkünmüş. Niye insanları yüzyıllardır kendi çıkarınız doğrultusunda sömürüyor ve sömürmenin dünyayı nizama sokmanın tek yolu olduğunu savunuyorsunuz? Türk devletinin YTB ve TİKA eliyle dünyaya sunduğu bu şefkat ve adalet örneği insanlığın aradığı o huzur ikliminin ta kendisidir.

Sayın Cumhurbaşkanımız Sayın Recep Tayyip Erdoğan'ın ve Azerbaycan Cumhurbaşkanımız Sayın İlham Aliyev'in "Can Azerbaycan, Can Türkiye" siyaseti ve ortak vizyonu doğrultusunda; Azerbaycan Türk'ü soydaşlarımıza karşı sergiledikleri o üstün kardeşcanlılık, samimiyet ve derin sevgiden ötürü YTB'ye ve TİKA'ya yürekten teşekkür ederim.

***P.S.: Türk komutan İshak Çelik beye, her zaman verdiği değerli bilgiler ve destek için özellikle teşekkür ederim.***

**AYNUR TALIBLI,**
**TARİH VE MEDENİYET ARAŞTIRMACISI**

# 89 uşaq övladlığa verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 2026-cı ilin ötən dövründə 89 uşaq övladlığa verilib.**

Adalet.az xəbər verir ki, onlardan 45-i qız, 44-ü oğlandır. Uşaqların övladlığa verildiyi ailələrdə vəziyyətinin öyrənilməsi üçün onlar 18 yaşına çatanadək övladlığagötürmənin birinci ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə olmaqla monitorinqlər aparılır. Onu da qeyd edək ki, valideyn himayəsindən məhrum olmuş uşaqları övladlığa götürən şəxslər aylıq sosial müavinətlə (3-18 yaş arası hər uşağa görə 240 manat, əlilliyi olan hər uşağa görə 600 manat) təmin edilir.

Həmçinin onlar sosial təminat, əmək, vergi münasibətləri sahələrində bir sıra güzəştlərə də malikdirlər.

*Asif TALIBOĞLU*



# YADIMA DÜŞDÜ...

**Səninlə baş-başa verib şirin-şirin söhbət etdiyim günlər yadıma düşdü...**

**"Faiqin bilinmir yaşı," - deyib, uğunub getdiyin anlar yadıma düşdü...**

**Lətif Süleymanlıya "çiyninə çıxıb, qulağına deyərəm" - deyib, ciddi görkəm alaraq, gülməkdən özünü zorla saxladığın anlar yadıma düşdü...**



**Daşdəmirin üstünə cumub, mənim yazımı niyə qəzetin küncündə qoymusan dediyin anlar yadıma düşdü...**

**Lətif Novruzovun ağızdan pərtovluğunu bilə-bilə, "Agil müəllim gəldi"- deyib, onu cırnatdığın günləri xatırladım...**

**Hərdən də heç kimə deyə bilmədiyin, məni yanlayıb, kövrək səslə - bəlkə "Sədərəyə" gedək. Dərslər açılır, qıza bir şeylər alım - dediyin həmin o günü xatırladım...**

**Və bir də başımı qaldırıb baxdım ki, bu gün sentyabrın 1-i, sənin mövlud günündür..**

**Rahat uyu, əziz dost, gözəl insan. Ruhun da, xatirələrin də həmişə bizimlədir...**

**Bu xatirələri bizə sənin qədər əziz olan qardaşın Azərlə tez-tez bölüşürük.**

**Məkanın Cənnət olsun, əziz dost...**

## *"Erməni diasporu növbəti aksiyaları Paris və Praqada keçirəcək"*

**"Ermənistan hakimiyyəti Azərbaycanla sülh quruculuğuna üstünlük verir, baş nazir Nikol Paşinyan buna mane olan radikalları neytrallaşdırmaq istiqamətində zəruri addımlar atır. Ancaq erməni diasporu Ermənistan hökumətinə tabe deyil və müxtəlif dövlətlərdə Azərbaycan əleyhinə təbliğat kampaniyaları və təxribatçı sərgilər keçirməkdə davam edir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. O, erməni diasporunun yaxın günlərdə Parisdə və Praqada Azərbaycana qarşı növbəti aksiyalar keçirəcəyini bildirib: "Hər iki aksiyaya şəhər meriyalarının razılığı alınıb. Erməni diasporu müxtəlif aksiyalar vasitəsilə yaşadıqları ölkələrin siyasi dairələrinin və ictimai rəyinin Azərbaycan əleyhinə mövqe formalaşdırmalarına çalışır. Deyək ki, Fransanın siyasi dairələri əvvəldən anti-Azərbaycan mövqeyə kökləniblər. Bəs Çexiya niyə anti-Azərbaycan mövqeyində dayansın? Çexiya Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığa üstünlük verir. Bu arada, Polşanın dövlət tərəfindən maliyyələşən İctimai Televiziya kanalında Azərbaycan əleyhinə təxribatçı reportaj yayımlanıb. Bu səbəbdən Polşanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağrılıb. Ona etirazı notası təqdim edilib. Halbuki, Çexiya kimi Polşa da Azərbaycanın Avropadakı əsas tərəfdaşlarından biridir. Böyük ehtimalla yaxın günlərdə erməni disaporunun təxribatçı aksiyalarına şərait yaratdıqlarına görə, Fransa və Çexiya səfirləri də Xarici İşlər Nazirliyinə çağrılacaqlar. Belə də olmalıdır. Ancaq medalın başqa üzü də var".

Politoloqun sözlərinə görə, erməni diasporu oxşar təxribatçı aksiyaları digər Avropa dövlətlərində və ABŞ-nin ştatlarında da keçirə bilər:

"Deməli, Azərbaycan Xarici İşlər Nazirliyinə çağrılan və nota təqdim edilən səfirlərin sayı artacaq. Elə erməni disaporunun məqsədi Azərbaycanın Avropadakı tərəfdaşlarıyla münasibətlərdə sualların yaranmasını təmin etməkdir. Bunun qarşılığında Diasporla İş üzrə Dövlət Komitəsinin hansısa fəaliyyət proqramı var? Erməni diasporu Azərbaycanda həbs cəzası çəkən erməni separatçıların azadlığını tələb edən aksiyalar keçirərkən, biz həmin separatçıların törətdikləri cinayətlər barədə müxtəlif ölkələrdə tədbirlər keçirə bilərmikmi? Və ya Qərb ölkələrinin tamamı etiraf edir ki, Ermənistan və erməni separatçıları Qarabağ və Şərqi Zəngəzurda sayı bəlli olmayan minalar basdırıblar və müharibədən sonra partlayışlar nəticəsində yüzlərlə vətəndaşımız həlak olub, ağır yaralananlar var. Ermənistan minaların basdırıldığı ərazilərin xəritələrini Azərbaycana təqdim etmədi. Bundan sonra rəsmi Bakı müxtəlif dövlətlərə minaların müəyyənləşdirilməsində Azərbaycana dəstək çağırışı etdi. Qərb ölkələrinin bir qismi dəstək verəcəklərini açıqladılar. Ancaq minalar yenə partlayır. Bununla bağlı da müxtəlif ölkələrdə tədbirlər keçirmək və həmin tədbirlərə yerli siyasətçiləri, ictimai xadimləri və medianı dəvət etmək olar. Bunun üçün Diasporla İş üzrə Dövlət Komitəsinin Azərbaycan Xarici İşlər Nazirliyi ilə birgə fəaliyyət planı olmalıdır".

**Vasif ƏLİHÜSEYN**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Tofiq Abdinsiz qalmayan SÖZ!

## Ruhun şad olsun, 85 yaşlı ƏFƏNDİM!

Həyat etibarsızdı. Əslində isə həyatın etibarsız olmasının bir günahkarı da insandı - düşünən, yaradan, quran, dağıdan insan. Əks halda, nə sadaladıqlarım baş verə bilər, nə də dünyada insanın olmaması onun etibarsızlığına kimdəsə şübhə yaratmaz. Əgər biz varıqsa və düşünürüksə, yaradırıqsa, hansısa bir istəyimizdən çıxış edərək hətta dağıdırıqsa, onda günah daha çox bizim üzərimizə düşür. Görünür elə buna görə ağıllı adamlar həmişə öz tövsiyələrində diqqəti, qayğını, etibarı önə çəkiblər. İnsanın insana dost olmasını, bir-birinin əlindən tutmasını zərurət sayıblar. Çox təəssüf ki, bu zərurət bütünlüklə reallaşmayıb, yalnız ayrı-ayrı fərdlər bu etiketlərə əməl ediblər və edirlər. Onlar üçün diqqət, qayğı, dostluq, güvən, hər şeydən üstündür.

Yazıma bu girişlə başlamağım səbəbsiz deyil. Çünki barəsində düşüncələrimi bölüşəcəyim şair-publisist, həm də çox qiymətli ziyalı - aydınımız olan Tofiq Abdin türk dünyasında söz sahibi olub, imzası sayqı ilə qarşılanıb. Və mən onun çevrəsini, yaradıcılıq dünyasını bildiyimdən həmişə düşünmüşəm ki, bu qəbildən olan insanlar heç vaxt unudulmamalıdılar. Çünki onlar zaman-zaman tanıdıblar, yaşadıblar, təbliğ ediblər. Amma nə yazıqlar ki

İş elə gətirib ki, Tofiq Abdinlə "Ədalət" qəzetində, ədəbi mühitdə sıx təmasımız olubdur. Bir-birimizə sayqı ilə, sevgi ilə yanaşıb, bir-birimizlə sözün hər üzünü müzakirə etmişik. Yəni, yazılan, kağıza köçülən hər bir sözə münasibət bildirmək, fikir söyləmək Tofiq müəllimin içindən gələn bir istək idi və "Ədalət" qəzeti işıq üzü görəndə səhərin gözü açılan kimi redaksiyaya birmənalı olaraq ilk zəng vuranlardan biri Tofiq Abdin olurdu. Dərhal da "Əfəndim, günaydın. Yenə " və başlayırdı qəzetin həmin sayında çap olunmuş hansısa bir yazıya münasibət bildirməyə, hansısa bir yazını müzakirə etməyə. Özü də təmənnasız, qərəzsiz, tam yazı adamı kimi, sözlə yaşayan adam kimi və redaksiyaya hər gəlişində də özü ilə həmin ovqatı gətirirdi. Əməkdaşların demək olar hamısı ilə görüşüb hamını salamlayandan sonra qəzet barəsində, yaradıcı kollektiv barəsində fikir deməsi labüd idi. Sanki o, qəzetin kənardan müşahidəçisi, onu izləyib barəsində söz demək haqqını Tanrıdan almış bir bəndə idi. Ona görə də hamımız onu çox istəyirdik Yenə və Onun təbirincə yazsam - NOT...

Tofiq Abdin özünün işıq üzü görən bütün kitablarını avtoqrafla mənə bağışlayırdı. İndi əlimdə tutduğum və 2009-cu ildə işıq üzü görmüş "Poeziya" kitabına Tofiq Abdin yazıb. "Gözəl şair və insan Əbülfət Mədətoğluna ən xoş arzularımla. Tofiqdən 14.04.2009".

Tofiq Abdin şair və publisist kimi sözün təkcə çəkisini yox, həm də onun tutumunu da hiss edirdi. Ona görə də onun publisistikasında, elə poeziyasında da ağır bir sanbal var idi. O nədən yazırdısa oxucunun diqqətini ora yönəldə bilirdi və bir də maraqlı o idi ki, Tofiq Abdin yazılarına verdiyi adları sanki yazıdan əvvəl dünyaya gətirirdi. Ona görə də yazının başlığı oxucunu çəkirdi. Və başlayırdın oxumağa. Oxuyanda artıq ikinci bir məqamla qarşılaşırdın və görürdün ki, başlıqla bu ikinci məqam arasında ilk nəzərdə bir yaxınlıq görmədiyin halda sən demə elə bunlar bir-birinin içərisində imiş. Məsələn, "Yaş yandırır gözümüzü" olduğu kimi:

*Göyün buludlunun yağışı yoxdu,*
*Dağın yamacının yoxuşu yoxdu,*
*Ananın oğula qarğışı yoxdu,*
*Səni kim qarğıdı -*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*

*Dəniz gəmilərsiz dəniz deyilsə,*
*İçimiz - çölümüz təmiz deyilsə,*
*İncimə bizdən,*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*

*Neçə yol Göyçaydan keçib gedirik,*
*Yolüstü biz yeyib-içib gedirik,*
*Sən çimdiyin çayda çimib gedirik,*
*Vaxt olmur dönməyə məzarın üstə,*
*Ağrıdır, acıdır dönüklük bizi,*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*



*Bu yerin daşının yaşı bilinməz,*
*Ağlayan gözlərin yaşı bilinməz,*
*Ustadlıq bilinməz, naşı bilinməz,*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*

*Şeir adlı təsəllimiz sən idin,*
*Şair adlı təsəllimiz idin,*
*"Ölümmü qədrimi biləsən" dedin,*
*Əsr, o əsr deyil,*
*Şair Əli, vaxtmı tapdın ölməyə?!*

Yəqin ki, bu şeiri oxuyanda siz də mənim dediyimlə müəyyən mənada razılaşdınız. Çünki gözümüzü yaşın niyə yandırdığı şeiri oxuyanda artıq bizə bəlli oldu. Bildik ki, Əli Kərim ünvanlı bir şairi itirmək nə deməkdir. Anladıq ki, Əli Kərim bir şair olaraq ölməyə tapdığı vaxtla əslində ölümsüzlüyə köçərək, yaşayış yerini dəyişib söz ömrü qazanıb. Ona görə də ölümün qədrini bilmək lazımdır. Çünki ölüm Əli Kərimin qapısını vaxtsız döysə də, o Əli Kərimi bizdən yaxşı qiymətləndirdi və biz də onu itirəndən sonra artıq gözümüzü yaşın niyə yandırdığını düşünməyə başladıq

Və yaxud Tofiq Abdin dünya şöhrətli ifaçı Vaqif Mustafazadədən yazanda hamıya bəlli olan bir gerçəyi misralara köçürür. O gerçək də Vaqif Mustafazadənin doğulduğu məmləkətdə öz gerçək dəyərini ala bilməməsidi. Onun ifası, onun barmaqlarının "qızıldan" olması Azərbaycanda heç kimin diqqətini çəkmir. Onun ürəyinin piano ilə birlikdə döyündüyünü, nəfəs aldığını Azərbaycanda duymurlar, amma dünya onu duyur, dünya onu görür. Çünki o, qeyri-adi ifaçıdı. Caz musiqisinin yeni nəfəsidi. O nəfəs Bakıdan yayılır dünyaya. Bax, bunu şeirləşdirən isə Tofiq Abdindi. Ona görə də yazır:

*Yurdundan çox*
*orda-burda*
*öz ömrünü yaşadı,*
*Nota döndü,*
*suya hopdu,*
*hava oldu,*
*ömrümüzün yaşıdı.*
*Cansız nota can verməkdək*
*barmaqları incəydi.*
*Kim deyər ki,*
*bu barmaqlar*
*harda, nə vaxt dincəldi?!*
*Qara mərmər pianodur*
*məzarının başında*
*Çalanı yox, çalanı*
*Kim deyir ki,*
*bu dünyada o olmayıb, yalandı!*

Və şeirində də hər kəsə içindən gələn bir çılğınlıqla sanki diktə edir, sübut edir, göstərir ki, o bu dünyada var, olub və olacaqdır. Onun barmaqları dünyanı gəzəcək və hər kəs də o barmaqların qarşısında baş əyəcək və onu alqışlayacaqdı, özü də ayaq üstə. Zaman da göstərdi ki, Tofiq Abdinin şeir dili ilə dediyi həqiqət birmənalıdır.

Tofiq Abdinin "Poeziya" kitabında şeirimizin bütün çalarlarını özündə yaşadan, özündə daşıyan nümunələr var. Onların hər biri ilə baş-başa qalmaq , həmin o ovqatın içərisində olmaq deməkdir. Çünki istər poemalarda, istər ayrı-ayrı şeirlərin özündə Tofiq Abdin təkcə yazmır, danışmır, həm də öz qəhrəmanları ilə üz-üzə oturub söhbət edir, istər Rəsul Rza ilə, istər Əliağa Kürçaylı ilə, istər Aydın Məmmədovla, istər Osman Sərvərli ilə Yəni onun həmsöhbətləri təkcə tanıdığımız adamlar yox, həm də sevdiyimiz, xatırladığımız insanlardı. Üstəlik də onun öz qanından, canından olanlara yazdığı şeirlərində də o həmsöhbətlik öz missiyasını, öz əlaqələndirmə bacarığını arxa plana keçirmir. Orda da oxucu Tofiq Abdinin yanında olur. Baxmayaraq ki, bəzən Tofiq Abdin özü-özünü ittiham edir, özü-özünü qınayır, necə deyərlər, bütün hallarda o Tofiq Abdin olaraq qalır və yazır:

*Mən qaçdım, yoxsa ki, məni qovdular,*
*yaman ayrı düşdüm eldən-obadan.*
*Gəldim bu şəhərə,*
*burdakı yadlar*
*götürmək istədi məni aradan.*

*Ayrıldım gördüm ki, orda bir kənd var,*
*orda mənsiz ölür doğmalar.*

*Orda bir ev var ki, aralıyam mən,*
*İndi düşünürəm mən niyə gəldim?!*
*Orda xəstələndi ixtiyar nənəm,*
*nə dadına çatdım, nə yetə bildim.*

*O nədir, hasartək aralı durar,*
*Orda mənsiz ölür mənə doğmalar.*

Bu şeirdəki ovqat qaçqınlığın, yurdsuzluğun, vətəndə vətənsizliyin poetik ifadəsidir, məzmunudur. Amma həm də Tofiq Abdinin özünün özünə ittihamıdı. İçində cavabı hazır olan ittihamıdı Oxuyanda bilirsən ki, digər qaçqınlar kimi Tofiq Abdin də Zəngilandan qaçmayıb, qovulub, özü də silah gücünə. Və o da bütün qaçqınların yaşadığı ağrı-acını yurd itirən insan kimi canından keçirib. Baxmayaraq ki, əsl həqiqətdə Tofiq Abdin Bakıda yaşayıb, amma eli, obası, tanıdığı, bildiyi adamlar qaçqın düşəndə, onların qaçqın taleyi onun taleyi ilə birləşib, qovuşub. Doğma sevinc kimi, doğma kədər də bir-birinə sarılıbdı. Bu isə qədərdi, alın yazısıdı. Onu şeirə çevirmək də Tofiq Abdin qələminin gücüdü.

Bəli, heç vaxt unutmadığım və hər dəfə də "Əfəndim" sözünü harda eşitməyimdən asılı olmayaraq dərhal xatırladığım Tofiq Abdinin "Poeziya" kitabı məni yenə onunla görüşdürdü, yenə xatirələrə çəkib apardı. Ruhun şad olsun Tofiq Abi!..

## Karton stəkanda çay-qəhvə içənlərə pis xəbər

**"ACS Food Science & Technology" jurnalında dərc edilən araşdırmada iki fərqli karton stəkan növü araşdırılıb. Bunlardan biri neft əsaslı polietilen (PE), digəri isə biomənşəli parçalana bilən polilaktik turşu (PLA) örtüyə sahib idi.**

Adalet.az xəbər verir ki, karton stəkanlar kənardan tamamilə kağızdan düzəldilmiş kimi görünsə də, mayeni buraxmaması və quruluşunu korlamaması üçün daxili səthində adətən incə bir plastik təbəqə olur. Tədqiqatçılar bu örtüklərin isti su ilə təmasda olarkən nə qədər plastik hissəcik buraxdığını incəyiblər. Nəticədə hər iki stəkan növündən mikro və nano ölçüdə plastik hissəciklərin suya keçdiyi sübut edilib. Ölçülərdə bioloji olaraq parçalana bilən PLA örtüklü stəkanlardan millilitr başına təxminən 4,3 milyon nanohissə, ənənəvi PE örtüklü stəkanlardan isə təxminən 2,7 milyon nanohissənin ayrıldığı müəyyən olunub. Tədqiqatçılar bu hissəciklərin insan saçından təxminən min dəfə incə olduğunu qeyd ediblər.

Araşdırmanın ən təəccüblü nəticəsi isə ətraf mühit üçün dost alternativ kimi istifadə edilən PLA örtüklü stəkanlarda müşahidə olunub. Bu stəkanlardan yaranan plastik hissəciklərin ümumi kütləsi PE örtüklü stəkanlarla müqayisədə təxminən 12 dəfə daha çox ölçülüb. Tədqiqatçılar bunun PLA-nın birbaşa olaraq zərərli demək olmadığını xüsusilə vurğulayırlar. Araşdırmanın məqsədi fərqli stəkan örtüklərinin isti içkilərlə təmasda olarkən nə qədər hissəcik buraxdığını üzə çıxarmaqdır.

## "Telegram"dan bloklamalara qarşı yeni addım

**"Telegram"ın Android tətbiqinə veb-proksi əlavə edilib.**

Adalet.az xəbər verir ki, bu barədə ixbt.com məlumat yayıb. Web-proksi mesencerin trafikini veb-kanal üzərindən yönləndirməyə və onu veb-resurslarla adi bağlantı kimi maskalamağa imkan verir. Bunun sayəsində şəbəkə filtrləmə sistemləri "Telegram"a müraciətləri saytların ziyarəti zamanı yaranan standart trafikdən ayırmaqda daha çox çətinlik çəkir. Belə mexanizm, xüsusilə, bağlantı növlərinin və "Telegram" trafikinə xas əlamətlərin təhlilindən istifadə etməklə bloklamanın tətbiq edildiyi hallarda mesencerin şəbəkə məhdudiyyətlərinə qarşı davamlılığını artıra bilər. Adi proksidən fərqli olaraq, veb-proksinin əsas xüsusiyyəti ötürülən trafikin adi veb-trafik kimi maskalanmasıdır. Oxşar mexanizm artıq "Telegram"ın masaüstü tətbiqində də tətbiq edilib.

# İlğım kimi bir yaşam...

## Onu yalnız O görür!..

**Elə bil dünən idi... Elə bil heç nə baş verməmişdi... Elə bil nə o var idi, nə də mən... Elə bil ki, o da, mən də eyni anda, eyni məkanda dünyaya gəldik... Gəldik ki, bir-birimizi görək, tanıyaq, bir-birimizə güvənək və... Birimiz o birimizi sevək!..**

Bütün bunlar mənim təxminim idi, mənim düşüncəm idi. Mənim içimdən gəlib keçənlər və mənim yaşadıqlarım idi... Yəni ikimizdən biri olan mən bu cür düşünmüşəm, bu cür qəbul etmişəm, bu cür də düşünürəm və bu cür də düşüncələrim içərisində qəbul etdiyimlə yol gedirəm. Bu yolun adını kimsə bilmir... Allahdan və səndən başqa! Allah da, sən də bu adı kimsəyə deməyəcəksiz. Çünki onu deməyin də, bəyan etməyin də heç bir önəmi yoxdur. Ən azından ona görə ki, bu yolu mən gedirəm, səninlə birgə. Deməli, onun adı da sənə və mənə məlumdur. Başqa kimsə üçün bunun nə mənası var, nə də önəmi. Baxmayaraq ki, biz də bu adamların içərisində, bu yerin üstündə, bu göyün altındayıq. Deyəsən bir az təmtəraqlı çıxdı. Bədii bir səhnəyə bənzədi. Amma yox, gerçəklik onsuz da özü-özlüyündə oynanılan tamaşadı. Senarisini Allah yazır, rolları bəndə ifa edir. Bax, elə yazının ilk cümləsində dediyim həmin o andan yazını indi diktə etdiyim ana qədər biz Allahın iradəsini, yəni senarisini gerçəkləşdiririk. Baxmayaraq ki, inancımız da, inamımız da, bəzən bir-biri ilə baş-başa gəlir, toqquşur. Amma bütün hallarda şəxsən mənim içimdən gəlib keçən səs bunu deyir. Yəni söyləyir ki, sevmək üçün yaşamaq lazımdır. Yaşamaq üçün sevmək yox. Doğrudur, bunu başqa bir formada aqillər deyib. Onlar söyləyiblər ki, "yemək üçün yaşamaq yox, yaşamaq üçün yemək" lazımdır. Deməli, mənim inancım da budur ki, mütləq mənada sevmək üçün yaşamalıyam. Bu sevginin çalarlarını, naxışlarını, hətta saç düzümündən tutmuş aldığı nəfəsə qədər hər bir halını ifadə etmək, özününküləşdirmək üçün yaşamalıyam. Bax, onda Məcnun mənim qarşıma çıxa bilməyəcək, Leyli də sənin. Çünki Şeyx Füzuli demişkən "Məcnunun yalnız adı" olacaq.

Hər bir addım, hər bir qərar başlanğıca söykənir. Bu mənada mən sevginin hardan, nədən başlandığını, nəyin üzərində pərvəriş tapdığını öyrənmək, onun bütün varlığına nəzər salmaq üçün demək olar ki, hər gün, hər an baş sındırıram. Amma öyrəndiklərim, hətta varlığıma hopanlar belə məni qane etmir. Görürəm ki, aclıq çəkirəm. Daha çox ehtiyac duyuram o sevginin çalarlarına... mahiyyətinə... mənasına... və hətta mənə verdiklərinə, bağışladıqlarına...

Bax, beləcə sevgidən doymadıqca daha çox sevmək, daha çox bu yolda hər zərbəyə, hər sərtliyə, hər laqeydliyə, hər təpkiyə dözmək haqqının ətəyindən, əlindən bərk-bərk tuturam...

Sizə bəlkə də qəribə gələcək... Bəlkə də kimsə dodaq büzəcək... Bəlkə də kimsə başını bulayıb "boş şeydir, şairlik eləyir!" deyəcək. Olsun, hər kəs öz məntiqində, öz baxışında haqlıdır. Mən kimisə mənim kimi düşünməyə, mənim kimi sevməyə məcbur edə bilmərəm. Ona görə ki, Allah o haqqı mənə verməyib. İkincisi, mənə o güc də bağışlanılmayıb. Deməli, qərar verən də, onu icra edən də özümən. Elə demək istədiyim də budur. Qoy, heç kim məndən inciməsin. Mən öz yolumun yolçusu, öz sevgimin fədaisi və nəhayət öz duyğularımın şairiyəm. Və...



Ona görə də sığındığım küncdə dayanıb öz-özümə pıçıldayıram:

*Dilimi sıxıb tuturam,*
*Sözü - demədən uduram...*
*Mən, hamını unuduram -*
*Allahdan və səndən başqa!..*

*Gözümü yola sancıram,*
*Dərd tapdağında qançıram.*
*Səssiz - hamıdan qaçıram -*
*Allahdan və səndən başqa!..*

*Sinəmi yara edirəm*
*Günümü qara edirəm...*
*Bilən yox, hara gedirəm? -*
*Allahdan və səndən başqa!...*

*Qəlbimdə çıraq - şam - adın*
*Başına dönən şamandım...*
*Heç kim üçün yaşamadım -*
*Allahdan və səndən başqa!...*

***

Bəli, bəzən insan təklənmək, hamıdan qaçmaq, hətta heç nəyi düşünməmək istəyində bulunur və belə anda ən xoş söz də, ən şad xəbər də adamın tükünü tərpətmir. Ona görəki, həmin o dediyim ovqatın içərisində adam özü və bir də özünün yarısı ilə üz-üzə dayanır. Səni bircə Allah görür, Allah dinləyir və sən də yalnız onu görüb, onunla danışırsan. İndi özün təsəvvür et. Bir ağac dibində Sən və O. Artıq kimsə yox, hətta ağacın budağına sərçə də qonmayıb. Çevrəndə kəpənək də uçmur. Olsaolsa hərdən yarpaq xışıldayır. O da sənin pıçıltılarına nəqarət olur... Bu mənzərə ən kübar məclislərdən, ən zəngin mənzillərdən, imarətlərdən, ən gur insan çevrəsindən gözəl deyilmi?

Ömürdən ötüb gedən hər bir an özü ilə çox şeylər alıb aparır. Biz onu həmin an, həmin gün hiss etmirik və hətta bizə elə gəlir ki, heç nə baş vermir. Lakin dərindən düşünəndə ötən anın ömrünə ömür yüklədiyini və yaxud da ömründən ömür kəsdiyni fəhm edəndə onda... susursan. Susmaya da bilməzsən, çünki artıq o hökm icra olunur. Və sən onu geri oxutmaq gücündə deyilsən. Deməli, bu nöqtədə güc yalnız sumağa, bir də kiprikləri suvarmağa çatır... Nəysə...

Bir az pafoslu səslənsə də, mən daha çox duyğulara, hislərə üstünlük verdiyimdən, özüm də fərqinə varmadan həyatdan nəm çəkirəm. Su çəkən kağız kimiyəm.. . Ona görə də yazılarımın damarındakı qəm nəmdən qaynaqlanır. Axı dünyanın harasına getsəm, hansı səmtinə üz tutsam orada qəmin də, nəmin də qonşu olduğunu bəzən isə lap gözgözə dayandığını dəqiq bilirəm. Bu dəqiqliyi yaşayıram da, yaşayıram da. Ona görə yazmışam ki:

*Yaşayıram, yaşamaqsa əgər bu*
*Mən anlara bölə-bölə ömrümü...*
*Həsrətinlə savaşdayam, günlərə -*
*Paylayıram, ölə-ölə ömrümü...*

*Bilirəm ki, çox batmışam günaha,*
*Bürünübdü talehimdə gün aha!..*
*Sənin üçün, əl açaraq Allaha -*
*Nəzir dedim, gülə-gülə ömrümü!..*

*Bəlli anda, sən ən böyük sirrimsən,*
*Qibləgahım, güvənc yerim, pirimsən!*
*O da birdi, sən də mənim Birimsən -*
*Qurban etdim, bilə-bilə ömrümü.*

*Zaman atı yük götürmür tərkinə*
*Çəkilsəm də sınaqların bərkinə!*
*Sərf etmədim, bu dünyanın dərkinə -*
*Bir Qadına - verdim gülə, ömrümü.*

Bütün duyğular bir not üstündədi, bütün simlər eyni havaya köklənib. Deməli, bütün yazı boyu yaşadığım an Allaha və sənə aiddi. Və mən də Allaha və sənə aid olanın qarşısında ümidlə dayanıb gözləyirəm. Bu da mənim haqqımdı...

**Görkəmli şair, publisist və nasir Tofiq Abdinin anadan olmasının 85 illiyinə həsr olunmuş "Ömür çiləsi" kitabı nəşr olunub.**

Topluda onun şeirlərindən, publisistikasından və nəsrindən, yaradıcılığı haqqında sənət adamlarının qələmə aldığı məqalələrdən, xatirələrdən, eləcə də müsahibələrindən seçmələr toplanıb. Təqdim edilən materiallar tanınmış Söz Adamının bənzərsiz portretini tamamlamaq məqsədi daşıyır.

Toplunu yazıçı-tərcüməçi Nəriman Əbdülrəhmanlı tərtib edəni və nəşrə hazırlayıb, nəşrinə məsul Mətin Abdin, redaktoru Elmin Nuridir.

Əminik ki, kitab Tofiq Abdin şəxsiyyətinə və yaradıcılığına dəyər verənlər, həm də ədəbiyyat araşdırıcıları üçün dəyərli mənbə olacaq.

Xatırladırıq ki, Tofiq Abdin (Abdinov Tofiq Məhərrəm oğlu, 1941, 1 sentyabr - 2014, 24 fevral) Salyan rayonunun Qırmızıkənd kəndində anadan olub. İlk təhsil illəri həmin kənddə alıb, sonra qonşu kəndində orta məktəbi bitirib. Bir müddət kənddə müxtəlif vəzifələrdə çalışıb, kitabxana müdiri olub və həmin illərdə ilk yazıları işıq üzü görüb. 1950-55-ci illərdə respublika qəzetlərində çap olunan məqalələrinə görə Azərbaycan Lenin Komsomolu Gənclər İttifaqının Fəxri Fərmanına layiq görülüb.

# Tofiq Abdinin "Ömür çiləsi"




1962-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun (sonradan İncəsənət İnstitutu) teatrşünaslıq fakültəsinə daxil olub və 1968-ci ildə təhsilini bitirib. 1967-ci ildə Azərbaycan Sovet Ensiklopediyasında müxtəlif vəzifələrdə çalışıb.

1968-ci ildə "Qobustan" incəsənət toplusu teatr, kino, musiqi şöbəsinə müdir təyin olunub. 1969-cu ildən publisistik və poetik topluları, `990-cı illərdən "Adlerdə bir körpü var", "Monoloq" və "Qürbətdə ölüm havasında" povestləri, "Dövlət çevrilişi" sənədli povesti, "Oralarda kimlər var", "Onların dünəni", "Danüzü yazıları", "Geriyə baxanda", "Onlar və məmləkətimiz" publisistik silsilələri, türk poeziyasından çevirləri işıq üzü görüb, H.Cavid adına Naxçıvan Poeziya teatrında Rəsul Rzanın "Bir gün də insan ömrüdür" poeması əsasında tamaşası göstərilib və həmin tamaşa Azərbaycan televiziyasında nümayiş etdirilib.

2001-ci ildən "Qobustan" jurnalında məsul katib, daha sonra isə bir müddət Azərbaycan Yazıçılar İttifaqının "Ulduz" jurnalında, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində, "Xəzər" jurnalında işləyib. Televiziyada və radioda sənətkarlar haqqında səslənən bir çox verilişlərin müəllifidir. Uzun illər dövri mətbutda incəsənətin müxtəlif sahələri və sənət adamları haqqında yazıları mütəmadi çap olunub. "Etüd" (oçerklər toplusu, 1969), "Nəğməli gecələr" (şeirlər, 1972), "Ata sevgisi" (şeirlər, 1978), "Bəlkə bir də görüşdük" (publisistika, 1984), "Beşir Səfəroğlu" (publisistika, 1986), "Sahilsiz dünya" (şeirlər, 1986), "Şəhərimiz ayaq açır" (şeirlər, 1991), "Şeirlər" (üç bölümdə, 2001), "Ah, İstanbul... İstanbul..." (şeirlər, 2004), "Proza" (nəsr, 2006), "Əsrar Dədədən Orhan Arasadək" (tərcümə, 2008), "Poeziya" (şeirlər, 2009), "Dövlət çevrilişi" (publisistika, 2010), "Onların dünəni" (publisistika, 2007), "Daşa toxunan könül" (seçmə şeirlər, 2023) kitabları nəşr olunub.

**T.Abdin 2002-ci ildə xalq şairi Rəsul Rza adına Beynəlxalq Ədəbiyyat mükafatına, 2010-cu ildə "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adına, Türk Poeziyasının inkişafındakı xidmətlərinə görə bir çox mükafatlara layiq görülüb. Türkiyənin TRT telekanalının Bakı təmsilçiliyi 2007-ci ildə haqqında çəkdiyi yarım saatlıq sənədli film (2007) çəkib, Türkiyədə Orxan Arasın "Bu dünyadan sən də keçdin, Tofiq Abdin" (2019) kitabı nəşr olunub.**

# Sürücülərin diqqətinə: Pəncərəsi açıq maşın sürmək...

**Onkoloq Anastasiya Kosyakova pəncərə açıq vəziyyətdə maşın sürməyin ciddi sağlamlıq riski yaratdığını izah edib.**

Adalet.az Medicina.az-a istinadən xəbər verir ki, o, sürücülərin mütəmadi olaraq işlənmiş qazlara məruz qaldığını və bunun bir çox sağlamlıq problemlərinə səbəb ola biləcəyini xəbərdar edib. Pəncərə açıq vəziyyətdə maşın sürmək problemi daha da ağırlaşdırır:

"İnsanlar tıxaclarda işlənmiş qazlardan çox zərər görürlər. Yayda sürücülər hava ilə birlikdə karbonmonoksit, karbohidrogenlər, aldehidlər, kükürd diok-



sid, his və benzopiren udanda pəncərələrini açaraq vəziyyəti daha da ağırlaşdırırlar.

Bu maddələr bədəndə toplanaraq ciddi xəstəliklərə səbəb ola bilər".

**Kosyakova əlavə edib ki, işlənmiş qazların mənfi təsirləri nəfəs darlığı, başgicəllənmə, angina və digər ürək-damar problemlərinə səbəb ola bilər. Sürücülər həmçinin tromboz, ateroskleroz və miokard infarktı kimi təhlükəli vəziyyətlər riski daşıyırlar. Artan əsəb, qıcıqlanma və yuxusuzluq kimi nevroloji xəstəliklər də mümkündür. Mütəxəssis vurğulayıb ki, avtomobil işlənmiş qazlarının müntəzəm olaraq nəfəs alınmasının ən ciddi nəticələrindən biri xərçəngdir.**

# MÜBARİZ İBRAHİMOV – VƏTƏN SEVGİSİNİN ƏBƏDİYYƏTƏ ÇEVRİLƏN ADI

**Bəzi insanlar dünyaya gəlir, yaşayır və zaman keçdikcə xatirələrdən uzaqlaşırlar. Bəzi insanlar isə qısa ömürlərinə bir xalqın əsrlərlə danışacağı qədər böyük bir tarix sığdırırlar. Azərbaycanın Milli Qəhrəmanı, şəhid gizir Mübariz Ağakərim oğlu İbrahimov məhz belə insanlardan biridir.**

Mübarizin ömrü uzun olmadı. Amma onun adı uzunömürlü oldu. O, cəmi 22 il yaşadı, lakin bu qısa ömrün içərisinə elə bir Vətən sevgisi, cəsarət və fədakarlıq yerləşdirdi ki, bu gün onun adı Azərbaycan tarixində qəhrəmanlıqla yanaşı çəkilir.

Mübariz İbrahimov 7 fevral 1988-ci ildə Biləsuvar rayonunun Əliabad kəndində dünyaya göz açdı. Sadə bir kənd uşağının arzuları vardı: yaşamaq, sevmək, ailə qurmaq, gələcək yaratmaq... Lakin onun qəlbində bütün şəxsi arzularından daha böyük bir məhəbbət vardı - Vətən sevgisi.

Bəzən tarixdə elə günlər olur ki, həmin gün yalnız bir insanın deyil, bütöv bir xalqın yaddaşına yazılır. 18 iyun 2010-cu ilin gecəsi Mübariz İbrahimov Vətən uğrunda son döyüşünə getdi. Qarşısında ölüm vardı. Amma Mübarizin qarşısında daha böyük bir amal dayanırdı - Vətənin müdafiəsi. Qeyri-bərabər döyüşə atılan gənc Mübariz bilirdi ki, qarşısındakı yolun sonu ölüm ola bilər. Amma geri çəkilmədi. Çünki onun üçün Vətən yaşamaqdan da üstün idi. Mübarizin qəhrəmanlığı həmin gecə ilə bitmədi. Əksinə, onun şəhadəti ilə adı Azərbaycanın yaddaşında əbədiləşdi. 22 iyul 2010-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Mübariz İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi.

Mübariz haqqında yazarkən bu mövzu mənim üçün yalnız tarixi bir qəhrəmanlıq hekayəsi deyil. Bu adın arxasında şəxsən şahidi olduğum və yaddaşımda silinməz iz buraxan bir görüş də var. 2 oktyabr 2024-cü ildə Biləsuvar rayonunun Əliabad kəndində Mübarizin atası Ağakərim kişi və anası ilə görüşmək mənə nəsib oldu. O görüş mənim üçün adi bir görüş deyildi. Qarşımda Azərbaycanın Milli Qəhrəmanını böyüdən ata və ana dayanmışdı. Bir övladını Vətənə qurban vermiş, onun adı ilə yaşayan iki müqəddəs insan...

Söhbət etdik, xoş sözlər danışdıq, xatirələr bölüşdük. Mübarizdən, onun uşaqlığından, xarakterindən və ailə içindəki xatirələrindən danışıldı. Hər kəlmədə bir ata qüruru, bir ana həsrəti, hər xatirənin arxasında isə böyük bir Vətən sevgisi duyulurdu. Həmin görüşdə Ağakərim kişi mənə kitablar bağışladı və onları öz əli ilə imzaladı. O imza mənim üçün sadəcə bir imza deyildi. Bu, Mübarizin atasından mənə qalan qiymətli bir xatirə, bir əmanət idi. O zaman bilmirdim ki, həmin imza çox keçmədən mənim üçün daha böyük məna daşıyacaq... Görüşümüzdən cəmi bir neçə gün sonra Ağakərim kişinin də vəfat etdiyi xəbərini eşitdim. Bir neçə gün əvvəl qarşısında oturub söhbət etdiyim, Mübarizin



xatirələrini dinlədiyim ata artıq həyatda yox idi. İndi həmin kitabların üzərindəki Ağakərim kişinin imzasına baxanda o görüş yenidən gözlərimin önünə gəlir. Sanki onun səsi, danışdığı xatirələr və Mübariz haqqında söylədiyi sözlər yenidən eşidilir. Bəzən insan bir əşyanın gələcəkdə nə qədər qiymətli xatirəyə çevriləcəyini həmin anda bilmir.

O kitablar bu gün mənim üçün sadəcə kitab deyil. Onlar Milli Qəhrəman Mübariz İbrahimovun atasından qalan bir xatirədir. Bir imza isə bir insanın öz xətti ilə yaddaşda qoyduğu izdir.

Mübariz İbrahimovun Vətən qarşısında göstərdiyi fədakarlıqdan sonra Mübariz milyonlarla insanın övladına çevrildi. Onun şəkillərinə baxanda insanın ağlına ilk gələn fikir budur: "Kaş daha uzun yaşayaydı..."

Amma qəhrəmanların ömrü yalnız illərlə ölçülmür. Bəzən 22 il bir insanın həyatıdır, bəzən isə bir xalqın yaddaşında əbədiyyət qədər uzun bir tarixdir. Mübariz öz ömrünü Vətənə bağışladı. Azərbaycan isə onun adını yaddaşına həkk etdi. Mübariz olmaq yalnız silah götürmək deyil. Mübariz olmaq - Vətəni özündən üstün tutmaqdır, ən ağır anda geri çəkilməməkdir, qorxuya baxmayaraq doğru bildiyin yoldan dönməməkdir, torpağın, bayrağın və xalqın adını öz həyatından üstün tutmaqdır. Buna görə də Mübarizin adı sadəcə bir insanın adı deyil. "Mübariz" artıq Azərbaycan xalqının qəhrəmanlıq yaddaşında bir məna daşıyır. O, Vətən üçün yaşadı, Vətən üçün döyüşdü və Vətən yolunda şəhid oldu. Atası isə ömrünün sonuna qədər oğlunun adı ilə yaşadı. Bu gün onların hər ikisi həyatda yoxdur. Amma onların adı var. Mübarizin adı var, Ağakərim kişinin adı var. Və onların adı Azərbaycan torpağında, Əliabad kəndində, bir xalqın yaddaşında yaşayacaq. Bəzən bir ata öz oğlunu Vətənə verir. Bəzən isə bir xalq həmin oğulu öz yaddaşına əmanət edir. Mübariz İbrahimov məhz belə bir əmanətdir. Ağakərim kişinin mənə öz imzası ilə bağışladığı kitablar isə bu böyük hekayənin mənim yaddaşımda qalan ən qiymətli izlərindən biridir. Hər dəfə həmin kitablara və o imzaya baxanda bir görüş, bir ata, bir ana və bir qəhrəman gözlərim önündə canlanır. İnsan həyatdan gedir, amma onun qoyduğu iz, söylədiyi söz və bağışladığı xatirə yaşamağa davam edir. Ruhunuz şad olsun, Ağakərim kişi!

**Ruhun şad olsun, Milli Qəhrəman Mübariz!**

**Biri Vətən üçün canından keçdi, digəri Vətənə qəhrəman oğul bəxş etdi. Sizin adınız artıq bir ailənin deyil, bütöv Azərbaycanın yaddaşındadır.**

**Unudulmayacaqsınız!**

**Elgün ƏLİYEV**
**Heydər Əliyev adına Beynəlxalq Hava Limanı Aviasiya Təhlükəsizliyi Xidmətinin inspektoru**



***Düzgün ATALI***

# DİN TACİRLİYİ VƏ İNSAN RUHUNUN İSTİSMARI

**3-cü esse**

İnsan inama ehtiyac duyan varlıqdır.

O, həyatı anlamaq, ölümün sirrini dərk etmək, varlığının mənasını tapmaq və naməlum qarşısında özünə mənəvi dayaq yaratmaq istəyir. İnam insanın ən dərin mənəvi ehtiyaclarından biridir.

Lakin insanın inama ehtiyacı ilə bu ehtiyacdan istifadə etmək arasında böyük bir fərq vardır.

İnam insanı yüksəldə bilər.

Amma inamın istismarı insanı əsarətə sala bilər.

Tarixin müxtəlif dövrlərində bəzi insanlar və qurumlar insanın bu mənəvi ehtiyacını öz şəxsi maraqları üçün istifadə ediblər. İnsanların qorxuları, ümidləri, ölüm qarşısındakı narahatlıqları və əbədi həyat arzuları üzərindən hakimiyyət qurulub.

Beləliklə, müqəddəs olanla maddi maraq bir-birinə qarışıb.

İnam mənəviyyat olmaqdan çıxıb idarəetmə vasitəsinə çevriləndə, insanın ruhu da istismar obyektinə çevrilir.

İnsana deyilir:

"Sən düşünmə - biz sənin üçün düşünərik."

"Sən soruşma - biz cavabları bilirik."

"Sən şübhə etmə - şübhə günahdır."

"Sən itaət et - mükafatını alacaqsan."

Beləliklə, insanın ən qiymətli xüsusiyyətlərindən biri - düşünmək və sorğulamaq qabiliyyəti onun əlindən alınır.

İnsan artıq həqiqəti özü axtarmır.

O, həqiqəti başqasından hazır şəkildə almağa başlayır.

Bu zaman insanın inamı onun mənəvi dayağı olmaqdan çıxıb, onun şüurunu idarə edən mexanizmə çevrilə bilər.

Burada "din tacirliyi" anlayışı meydana çıxır.

Din tacirliyi - müqəddəs dəyərlərin, insanın inamının və mənəvi ehtiyaclarının şəxsi mənfəət, nüfuz və hakimiyyət üçün istifadə edilməsidir.

Din taciri insanın ruhuna deyil, onun qorxusuna müraciət edir.

O, insana deyir:

"Mənə tabe ol - xilas olacaqsan."

Beləliklə, insanın Tanrı ilə, müqəddəslə və ya mənəvi həqiqətlə birbaşa münasibəti aradan çıxarılır; onun yerinə vasitəçi qoyulur.

İnsan öz vicdanına deyil, vasitəçinin hökmünə qulaq asmağa başlayır.

Bu isə insanın mənəvi azadlığının ən təhlükəli itkilərindən biridir.

Çünki insanın ruhu ilə həqiqət arasında məcburi vasitəçi yarandıqda, insan öz mənəvi iradəsini başqasına təslim edə bilər.

Mənəviyyat isə azadlıq tələb edir.

Həqiqətə gedən yol düşüncədən keçir.

Düşüncə sual verir.

Sual isə azadlıq tələb edir.

Ona görə də insanın düşünmək hüququnu əlindən alan hər bir sistem, istər dini, istər siyasi, istərsə də ideoloji olsun, insanın ruhuna müdaxilə edir.

İnsan qorxudulduqda, onun iradəsi zəifləyir.

İnsan daim cəhənnəmlə qorxudulduqda, o, düşünməkdən çox itaət etməyə başlayır.

İnsan daim cənnətlə mükafatlandırıldıqda isə onun yaxşılığı daxili mənəvi ehtiyacdan deyil, şəxsi qazanc gözləntisindən doğa bilər.

Beləliklə, qorxu və mükafat arasında sıxışdırılan insan mənəvi cəhətdən azad ola bilmir.

Əsl mənəviyyat isə nə qorxudan, nə də mükafatdan asılı olmalıdır.

İnsan yaxşılığı cəhənnəmdən qorxduğu üçün etməməlidir.

İnsan yaxşılığı cənnət qazanmaq üçün də etməməlidir.

İnsan yaxşılığı yaxşılıq olduğu üçün etməlidir.

Ədaləti ədalət olduğu üçün müdafiə etməlidir.

Sevgini sevgi olduğu üçün yaşatmalıdır.

Vətənini mükafat gözləmədən sevməlidir.

Millətinə şəxsi mənfəət üçün deyil, mənəvi məsuliyyət hissi ilə xidmət etməlidir.

İnsanlığın yüksəlişinə öz varlığının mənası kimi baxmalıdır.

Əsl mənəviyyat burada başlayır.

Çünki insanın mənəvi dəyəri onun nə qədər mükafat gözləməsində deyil, nə qədər qarşılıqsız yaxşılıq edə bilməsindədir.

Din tacirliyinin ən böyük təhlükəsi də məhz budur: insanın daxili mənəviyyatını zəiflədib onu xarici vasitəçidən asılı vəziyyətə salmaq.

İnsan artıq özü düşünmür.

Özü qərar vermir.

Özü məsuliyyət daşımır.

Bütün məsuliyyəti başqasının üzərinə qoyur.

"Belə dedilər."

"Belə yazılıb."

"Belə əmr olunub."

Və bununla insan öz mənəvi məsuliyyətindən qaçır.

Halbuki insanın böyüklüyü onun öz seçiminə sahib çıxmasındadır.

Seçim yoxdursa, məsuliyyət də yoxdur.

Məsuliyyət yoxdursa, mənəviyyat da tam deyil.

İnsan yalnız özü seçdiyi zaman mənəvi varlığa çevrilir.

Çünki yaxşılıq etmək məcburiyyət deyil, seçim olmalıdır.

Ədaləti müdafiə etmək qorxudan deyil, vicdandan doğmalıdır.

İnsan öz vicdanının səsinə qulaq asmağı öyrənməlidir.

Vicdan isə heç bir tacirin malı deyil.

Heç bir vasitəçinin şəxsi mülkiyyəti deyil.

Heç bir hakimiyyətin əmrində deyil.

Vicdan insanın öz ruhundakı ən böyük azadlıq məkanıdır.

Ona görə də insanın ruhunu azad etmək üçün əvvəlcə onun düşüncəsini azad etmək lazımdır.

İnsan sual verməlidir.

Şübhə etməlidir.

Araşdırmalıdır.

Düşünməlidir.

Və ən əsası, öz mənəvi məsuliyyətini başqasına təhvil verməməlidir.

İnam varsa, o, insanı daha yaxşı insan etməlidir.

Mənəviyyat varsa, o, insanı daha azad etməlidir.

Din varsa, o, insanı qorxuya deyil, xeyirxahlığa aparmalıdır.

Əgər bunların əvəzinə insanın ruhu qorxu ilə idarə edilir, inamı mənfəət üçün istifadə olunur və müqəddəs dəyərlər şəxsi qazanc vasitəsinə çevrilirsə, onda burada artıq mənəviyyatdan deyil, din tacirliyindən danışmaq lazımdır.

Biz insanın inancına qarşı deyilik.

Biz insanın müqəddəs duyğularının istismarına qarşıyıq.

Biz insanın mənəvi axtarışına qarşı deyilik.

Biz onun mənəvi axtarışının başqasının hakimiyyət alətinə çevrilməsinə qarşıyıq.

Çünki insanın ruhu satılacaq bir şey deyil.

İnam satılacaq bir mal deyil.

Vicdan kirayəyə veriləcək bir məkan deyil.

İnsanın ruhu heç kimin mülkiyyəti deyil.

İnsan öz ruhunun sahibi olmalıdır.

Və insanın ən böyük azadlığı da məhz burada başlayır:

Öz düşüncəsinə sahib olmaq.

Öz vicdanına sahib olmaq.

Öz iradəsinə sahib olmaq.

Bəlkə də əsl mənəvi inqilab budur:

İnsan artıq cənnət vədi ilə idarə olunmur.

Cəhənnəm qorxusu ilə susmur.

Başqasının hökmü ilə yaşamır.

O, düşünür.

Dərk edir.

Seçir.

Və seçiminin məsuliyyətini özü daşıyır.

Çünki azad insanın ən böyük cənnəti - azad ruhudur.



Qardaşxan FƏRZİ

# Banan sevgisi

(hekayə)

Yayın ortaları idi. Anamla qonşu kənddə ərdə olan bacımgildən qayıdırdıq. Bacım iki ildən çox idi ki, böyrək çatışmazlığından əziyyət çəkirdi. Yolboyu onun sifətindəki şişkinlik, tez-tez ürəkbulanması və nəfəs darlığı gözlərimiz önündən çəkilmirdi. Ürəyimizi didən bu nigarançılıq anamı möhkəm sarsıtmışdı. Yazıq arvad son illər xeyli qocalmışdı. Əsəbləri də yerində deyildi. Adi bir hadisəyə dözümsüzlük göstərirdi. Digər tərəfdən də havanın dözülməz hərarəti bizi hövsələdən çıxarmışdı. Kəndin tozlu, dolanbac yollarına yayın indiyə kimi görünməyən yandırıcı sükutu çökmüşdü. Hərdən bu sükutu cırcıramaların qulaqlardan çəkilməyən uzun-uzadı səsi pozurdu. Təzə aldığım "Jiquli-07"-nin şüşələri açıq olsa da, havamız çatmırdı, sanki kimsə boğazımızdan ikiəlli yapışmışdı. Dayımın məsləhət gördüyü "Mercedes-Benz"-dən imtina etdiyimə görə özümü elə bu dəqiqələrdə də danlamaqda davam edirdim. Deyəsən, anam da bunu hiss etmişdi. Tez reaksiya verəcəyindən çəkinirdim. Amma nə yaxşı susurdu, dinmirdi. Nəhayət, yaranmış durum ona güc gəldi. Sifəti portmüşdü, başını bulaya-bulaya dedi:

- Dayın bugünkü günə deyirdi də, oğlum. Sovetin törtöküntülərinin ömrü çoxdan bitib. Dağ boyda kişinin dönə-dönə dediyi sözü özünə qaldı. Sən isə ceyran kimi maşından atkaz elədin. İndiki cavanların çoxu ayaqqabılarının ucundan uzağı görmürlər.

Düz sözə nə deyəsən? Küyə getmişdim, yanlışlığımı boynuma aldım. Gözucu anama nəzər yetirib:

- Haqlısan, ana, - dedim. - Mütləq yenisini alacağam, təki bacım sağalsın.

Anam alnından süzülən təri yaylığın ucuyla silə-silə:

- Allah ağzından eşitsin, oğlum, - dedi. - Dünən gecə qurbanlıq da boyun almışam, qızım tezliklə ayağa qalxsın.

- Allah qəbul eləsin, ana. Özünü üzmə, bacım mütləq sağalacaq, - deyə anamı ümidləndirməyə çalışdım.

Elə bu vaxt gözlərimə bir qaraltı göründü. Aramızda kifayət qədər məsafə olsa da, üz-üzə gəldiyimizdən onun xanım yox, yaşlı bir kişi olduğuna əmin oldum. Həm də qocanı kiməsə oxşadırdım. Məsafə yaxınlaşdıqca onun qəribə hərəkətlərindən məni təəccüb bürümüşdü. Qoca tez-tez əlini arxasına aparır, nəyisə tələsik halda ağzına ötürürdü. Elə bil, illərin acı idi. Yaxınlaşanda tam əmin oldum. Zənnim məni aldatmamışdı: bu, Gülməmməd kişi idi. Əynində qısaqol köynəkdən savayı heç nə yox idi.

- Ətin tökülsün, it oğlu it! - deyə anam yerində qurcalanaraq üzünü yana çevirdi.

Gülməmməd kişidən yan keçib, maşını beş-altı metr aralıda saxladım. Qapını açanda:

- Hara ?! - Anam üstümə qışqırdı. - Qoy cəhənnəm olsun, abırsız köpək oğlu!

Anamı sakitləşdirməyə çalışdım:

- Niyə söyürsən, ana? Yazıq özündə deyil, xəstədir. Bir neçə gündür başı qaçıb, yaddaşını da itirib.

Anam sakitləşmək əvəzinə bir qədər də coşdu:

- Yalansa, onu yazıq ilan çalsın! Biz də bilərik: bir şərəfsizin nəfəsi kəsildi! - Nə düşündüsə: - Yox, yox kəsilməsin, - dedi. - Ömrü uzun, əzabı davamlı olsun.

Anamın sözləri qulaqlarımda cingildəyirdi. Deyəsən, təzyiqim qalxmışdı, sifətim od tutub yanırdı. Boynumdakı tər damcıları üzüaşağı süzülürdü. Dodaqlarım əsə-əsə:

- Bəsdir də, ay ana, ürəyin soyumadı təhqirlərdən, qarğışlardan?! Deyirlər, qarğış ikibaşlı olur. Qızın da yataq xəstəsidir. Yığışdır bu qarğışları, sən Allah.

- Sən niyə coşursan, üreyin yanır əclafa?! Bir buna bax, atalardan məsəl çəkir mənə. Birincisi, o vaxtkı atalar avam olub, ikincisi də gözəgörünməz qarğa deyil, göz deşə. Gülməmməd nə tökübsə aşına, o da çıxır qaşığına...

- Nə pislik edib sənə, qoymayıb çörək növbəsində ayaqlar altında qalam, hə?

- Başına dəysin oğraşın! Harınlıqdan nə uşaq tanıyırdı, nə yaşlı. Ahılları lağa qoyub təhqir etdiyi anları heç vaxt unuda bilmərəm. Sağ qalsam, lap goruna da söyərəm...

Səbrim tükəndi. Dözə bilmədim, maşından necə düşdüyümü hiss etmədim. Gülməmməd kişi xeyli aralanmışdı. Tələsik maşının baqajından idman kostyumu götürüb arxasınca qaçdım. Yaxınlaşdım, üfünətdən ürəyim bulandı. Az qala qusacaqdım. Əli, dodaqları nəcis idi. Ağır duruma düşmüşdüm. Nə edəcəyimi bilmirdim. Amma onu özbaşına da buraxa bilməzdim. Dilə tutb kəndə qaytarmalıydım. Yoxsa, baş götürüb haralarasa gedəcəkdi.

- Gülməmməd dayı, bu nədir belə? - deyə sağ əlinə işarə etdim.

Qoca gözləri şübhəli tərzdə bir xeyli mənə dikdi. Haçandan-haçana qalın qaşları dartılmış halda elə şaqqanaq çəkdi ki, üst çənəsindəki protezi yerə düşdü. Uşaq cəldliyi ilə əyilib ikiyə bölünmüş potezi götürəndə:

- Sən Burhan deyilsən? - əminliklə şoruşdu.

- Yox, Azərəm, Sədinin keçmiş sinif yoldaşı.

- Kim?

- Azər.

- Hə, Azər, Azər... Başa düşdüm, bayaq nəyi soruşdun, Azər?

- Soruşdum ki, əlin, ağzın niyə batıqdır?

- Heç, elə-belə. Banan yeyirdim.

Təəccübdən gözlərim bərələ qaldı. Ayaqlarım əsə-əsə:

- Nə banan, banan nədir? - dedim.

Dinmədi. Nə düşündüsə nəzərlərini məndən ayırmadan yenidən bir şaqqanaq çəkdi. Əllərini qəribə tərzdə yelləyə-yelləyə dedi:

- Ay-hay, bu indiyə kimi banan yeməyib ki! Haradan biləcək, yazıq? Yeməyib qaz ətini, bilməyir ləzzətini.

Susdum. Sözünün qarşısına söz çıxarmadım. Bəbəkləri o qədər böyümüşdü ki, az qala pörtdüyüb yerə səpiləcəkdi. Birdən-birə elə bil yer ayaqlarımın altından qaçdı. Diksindim, dizlərim əsdi. Güclə iki addım geri çəkildim. Möhkəmcə tərləmişdim. Cib dəsmalını çıxarıb sifətimdə gəzdirdim. Handan-hana nə yaxşı özümü ələ ala bildim. Süni alınsa da, gülümsədim. Asta səslə dedim:

- Hə, Gülməmməd dayı, indi yola düş, birlikdə gedək.

Qoca gözlərimə diqqətlə baxdı. Heç nə başa düşməmiş kimi çiyinlərini çəkdi:

- Hara? - soruşdu.

- Evimizə.

- Mən də elə evə gedirəm.

- Gülməmməd dayı, kənd arxada qalıb, - deyə əlimlə kəndin istiqamətini göstərdim. - Hə, əvvəlcə yaxınlıqdakı çayda əl-üzümüzü yuyaq, sonra maşınımla yola düşərik.

Gülməmməd kişi bir qədər ətrafa özünəməxsus tərzdə nəzər yetirdi. Birdən gözləmədiyim halda geriyə dönüb:

- Gedək, - dedi.

Elə sevindim ki... Çaya enənə qədər hər ikimiz susmuşduq. Xəyallarım məni çox-çox uzaqlarda qalan uşaqlıq illərinin acılı-şirinli anlarına qovuşdurmuşdu. Atamı çox erkən - iki yaşımda itirmişdim. Ailədə üç nəfər idik: anam, bacım və mən. Onda üçüncü sinifdə oxuyurdum. Ağır illər idi. Heç kimin ağlına gəlməyən SSRİ kimi nəhəng bir ölkə dağılmışdı. Azərbaycan müstəqilliyini təzə bərpa etmişdi. Bir tərəfdən Qarabağ müharibəsi, digər tətəfdən keçid dövrü sadə adamları çaşbaş salmışdı. Bir çox bölgələrdə taxıl və un çatışmazlığı yaranmışdı. Bəzən çörək zavodlarında günlərlə kəpək unundan çörək hazırlanırdı. Nə yaxşı, kəndimizdə uzun illər idi çörək sexi fəaliyyət göstərirdi. Və ora Gülməmməd kişi müdirlik edirdi. O, çox imkanlı, bir o qədər də qudurğan adam idi. Yeri gəldi - gəlmədi ürəkbulandırıcı zarafatlarından qalmırdı. Yaranmış ağır durum elə bil ona bir az da qolqanad vermişdi. Uzunuzadı növbələrdə duran zəif xarakterli adamları lağa qoymaqdan həzz alır, gözləri yaşaranacan gülərdi.

Bir gün qonşu Palıdlı kəndindən olan yaşlı bir qadın əli əsə-əsə ovucundakı pulu Gülməmməd kişiyə uzadır. Gülməmməd kişi hırıldaya-hırıldaya:

- Nə istəyirsən? - soruşur.

Qadın yazıq-yazıq cavab verir:

- Çörək.

- Nə dedin?

- Çörək.

Gülməmməd kişi əlini qulağına aparıb yenidən soruşur:

- Eşitmədim, bir də söylə görüm, nə istəyirsən?

- Çörək.

Gülməmməd kişi qəhqəhə çəkərək deyir:

- Sənə quzu kəsim, Palıdlı madmazeli, bəlkə banan...

Bu vaxt lap arxada duran Murtuz kişinin qəzəbli səsi Gülməmməd kişinin sözlərini yarımçıq qoyur:

- Kəs səsini, Gülməmməd! Heç utanmırsan?! Bir utanan üzün olsun da, anan yaşındadır. Axı sənin də arvadın, qızın var...

Hadisəni elə həmin gün anamdan eşitmişdim. Amma bananın mahiyyətini başa düşməmişdim. Səhəri gündən anamı mən əvəz etmişdim. Bəxtim gətirmişdi. Sədi ilə həm sinif yoldaşı, həm də dost olduğum üçün hər gün çörəyi növbədənkənar alırdım. Həmyaşıdlarım isə mənə həsəd aparırdılar. Sevinirdim. Və əlbəttə, bütün bunları əsl igidlik kimi anlayır, beləcə də düşünürdüm. Amma həsrətlə gözlədiyim bircə şey vardı: heç olmasa bir dəfə anamdan "Mənim qoçaq oğlum" sözünü eşitmək. Anam isə... Anam doğru edirmiş...

***

Günün günorta çağı məscidin minarəsindən yayılan azan səsi kənddə əks-səda verdi. Öz-özümə: " Görəsən, ölən kimdir?" - deyə sual etdim. Yeyin addımlarla həyətdən çıxdım. "Banan" sevgisindən zəhərlənən Gülməmməd kişi bir saat öncə rayon mərkəzi xəstəxanasında gözlərini əbədi olaraq yummuşdu.

# Fizioterapiya ilə bağlı vacib məqamlar

## Səhiyyə Nazirliyinin mütəxəssisi açıqladı

**"Fizioterapiya müasir tibbdə xəstəliklərin müalicəsi ilə yanaşı, reabilitasiya və profilaktika prosesində də mühüm rol oynayır". Adalet.az xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun fizioterapevti Ülviyyə Mikayılzadə fizioterapiyanın tətbiq sahələri və prosedurlar zamanı diqqət edilməli məqamlarla bağlı danışarkən bildirib.**

Onun sözlərinə görə, fizioterapiya müxtəlif fiziki amillərdən istifadə etməklə orqanizmin funksional imkanlarının bərpasına, ağrıların azalmasına, hərəkət qabiliyyətinin yaxşılaşdırılmasına və həyat keyfiyyətinin yüksəldilməsinə kömək edir.

Mütəxəssis qeyd edib ki, fizioterapiyanın tətbiq sahələri kifayət qədər genişdir. Bu üsullardan terapevtik, nevroloji, pediatrik, kardioloji və pulmonoloji xəstəliklərin müalicəsi və reabilitasiyasında istifadə olunur. Bəzi hallarda kəskin xəstəliklər zamanı və onkoloji pasiyentlər üçün də fərdi yanaşma əsasında bərpa proqramları tətbiq edilə bilər.

Ülviyyə Mikayılzadə vurğulayıb ki, fizioterapiya prosedurları bütün pasiyentlərə eyni qaydada təyin edilə bilməz. Prosedurdan əvvəl xəstənin ümumi vəziyyəti, yaşı, əsas və yanaşı xəstəlikləri nəzərə alınmalıdır.

Onun sözlərinə görə, qalvanizasiya və elektroforez bəzi hallarda hətta 1-2 aylıq körpələrə, ultrasəs 2-3 yaşdan sonra, induktotermiya isə 5 yaşından etibarən tətbiq oluna bilər.

Fizioterapevt yaşlı insanlar üçün fiziki aktivliyin də xüsusi əhəmiyyət daşıdığını bildirib. Açıq havada piyada gəzmək, yüngül idman və dozalanmış məşqlər ürək-damar və tənəffüs sisteminin fəaliyyətinə, həmçinin əzələ və oynaqların tonusunun qorunmasına müsbət təsir göstərə bilər.

Mütəxəssis əməliyyatdan sonrakı reabilitasiyanın müddətinin isə hər pasiyent üçün fərqli olduğunu diqqətə çatdırıb.

"Adətən əməliyyatın ikinci günündən müalicəvi bədən tərbiyəsinə, xüsusən də tənəffüs məşqlərinə başlayırıq. 7-10 gündən sonra yüngül masaj, lazer və maqnitoterapiya, üçüncü həftədən isə bəzi elektroterapiya prosedurları tətbiq oluna bilər", - deyə o qeyd edib.

Ülviyyə Mikayılzadə hərəkətsiz həyat tərzindən uzaq durmaq üçün gündəlik fiziki aktivliyə, düzgün qidalanmaya və açıq havada gəzintilərə üstünlük verilməsini tövsiyə edib.

Fizioterapiya seanslarından sonra yaranan ürəkdöyünmə, hərarət, tətbiq olunan nahiyədə qızartı, şişkinlik və ya ağrı kimi hallarda isə dərhal həkimə məlumat verilməsinin vacibliyi bildirilib.

Mütəxəssis qeyd edib ki, fizioterapiya seansları xəstəliyin gedişindən asılı olaraq hər gün, günaşırı və ya həftədə iki dəfə təyin edilə bilər. Müalicə kursu zamanı seanslar arasında uzun fasilələrin verilməsi tövsiyə olunmur.

Bildirilib ki, ehtiyac yarandıqda fizioterapiya kursunun təkrarlanma müddəti tətbiq olunan prosedurun növündən asılıdır. Palçıq müalicəsinə 5-6 ay, balneoloji müalicəyə 4 ay, elektroterapiyaya isə 2-3 aydan sonra yenidən müraciət etmək mümkündür.

# Direktorun əmri 900 uşağı ölümdən xilas etdi

**Nepalda Trişuli çayında baş verən güclü daşqın zamanı məktəb direktoru Rajendra Davadi yüzlərlə şagirdin həyatını xilas edib.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, daşqın və torpaq sürüşməsi nəticəsində çayda suyun səviyyəsi qəfil yüksəlib. Fəlakət genişmiqyaslı dağıntılara və çoxsaylı insan tələfatına səbəb olub. Son məlumatlara görə, 919 nəfər həyatını itirib, 4 700 nəfər isə itkin düşmüş hesab olunur. Faciənin miqyası məktəbin yerləşdiyi əraziyə də çatıb. Lakin direktor Rajendra Davadinin vaxtında verdiyi qərar daha böyük itkilərin qarşısını alıb.

Davadi daşqın təhlükəsi barədə bir neçə telefon zəngi aldıqdan sonra təcili təxliyə qərarı verib. Vəziyyətin ciddiliyinə məktəbə gələn şagirdlərdən birinin atası da diqqət çəkib. O, qızını məktəbdən aparmaq üçün gəldiyini və daşqın olacağını bildirib. Direktor BBC-yə açıqlamasında valideynlərin ciddi zərurət olmadığı halda uşaqları məktəbdən götürməyə tələsmədiklərini nəzərə aldığını deyib.

Davadinin başqa bir dostundan aldığı telefon zəngi də həlledici olub. Trişuli çayının yuxarı hissəsində yerləşən Betrawati şəhərindən zəng edən dostu ona təhlükənin yaxınlaşdığını bildirib. Direktorun sözlərinə görə, qərarı cəmi 10 dəqiqə gec versəydilər, həm şagirdlər, həm də müəllimlər bu gün hadisə barədə danışa bilməyəcəkdilər.

Təxliyə çox qısa müddətdə həyata keçirilib. Bəzi uşaqlar ayaqqabılarını belə geyinməyə macal tapmadan məktəbi tərk ediblər. Həmin vaxt məktəbdə təxminən 900 şagird olub. Daha 700 şagird isə məktəbə gəlmək üçün yolda olub və ya məktəb avtobuslarında olub.

Davadi avtobus sürücüləri ilə əlaqə saxlayaraq onlara geri qayıtmağı tapşırıb. Beləliklə, məktəbə doğru hərəkət edən digər uşaqların da təhlükəli əraziyə daxil olmasının qarşısı alınıb. Şagirdlər qısa müddətdə daha yüksək əraziyə çıxarılıb. Onların təhlükəsiz yerə çatmasından az sonra isə sel məktəb binasını dağıdıb. Beynəlxalq mediaya görə, məktəbdə həmin gün 1 600-dən çox şagird təhsil alırdı. Onlardan təxminən 900-ü hadisə zamanı məktəbdə idi.

Davadi baş verənləri qiymətləndirərkən qərarının riskli olduğunu bildiyini, lakin təhlükə olmadığı halda bunun sadəcə bir dərs gününün itirilməsi anlamına gələcəyini düşündüyünü deyib.

Onun bu qərarı nəticəsində yüzlərlə uşaq həyatını xilas edə bilib. Hadisədən sonra Rajendra Davadi Nepalda qəhrəman kimi təqdim olunur. Məktəbin özü isə daşqın nəticəsində tamamilə dağılıb.



**Mirqiyas SEYİDSOYLU,**
**Polkovnik**

# EDƏMƏM TƏRK, FÜZULİ...

**(əvvəli ötən saylarımızda)**

" Haça gədik " yüksəkliyinin zirvəsində post qurmuş erməni terror dəstəsi, Yuxarı Divanallar kəndinin müdfiəsində xidmət aparan əsgərlərimizə qarşı bayaqdan bəri cığırbağırla təhqiramiz sözlər deyir və nalayiq söyüşlərlə edirdilər...

**- Ara eey... Turki, Turki eşidirsiniz məni ?..**

Molla-molla, ara it uşaqları niyə cavab vermirsiniz ?..

**- Ara heyy... Nədir ölmüsüz ?..**

**Vidadi :** canın ölsün !

Köpəyin oğlu, nədir nə istəyirsən?

**- Ara elə bu gün, bizimkilər sizə yaxşı dərs verdilər. Qradlar cammatınızın başına yaman qəşəng yağırdı. Həəə necədi, xoşunuz gəldi ?..**

**Vidadi :** eyy Vazgen ! Uzaqdan durub daş atmağı qəhrəmanlıq hesab edirsən ? Kişiliyin çatır bir az yen aşağı görərsən aqibətini. Düş də, düş aşağı. Gəl bura !..

**- Aaa məni orda nə işinə var...**

Onsuz da bu torpağlar bizimdir. Siz çıxın gedin buradan.

**Nüsrət :** sən, deyəsən çox qudurdun a..

Şərəfsiz erməni. Haram olsun sizə Azərbaycanın çörəyi...

**- Ara it uşağları, yaxın günlərdə baxarsınız sizin hamınızı Xocalı kimi qırıb qovacayığ...**

**Vidadi :** kişilənmə ə..." Şon dğa " sənin kimi qeyrətsizlərin gücü ancaq arvad-uşağa çatar. Ölmürsən hələ bir xoruzlanırsan..

Görərsən sizi buralardan it balası kimi qovacağıq...

**- Ara molla nə böyük-böyük danışırsan ?**

Mən, elədiyimiz kaxramanlıqdan danışıram eyy...sənin nəyin var göstər də, mənə ?..

**Şakir :** eyy şon dğa darıxma görəcəksən...

**- Ara nəyi göstərəcəksən mənə, göstər görüm ?**

**Mətləb :** tələsmə dığa, tələsmə...

**- Ara molla, ancaq indi mən, sizə yaxşı bir komedə göstərirəm baxın, yaxşı-yaxşı baxın !..**

Bu zaman, ermənilərin Haça gədik postundan iki nəfər gənc qadın bir qədər irəliyə doğru gəlib dayandılar. Sonra onlar, ucadan Azərbaycan dilində bizə çağrış etməyə başladılar.

**- Ay azərbaycanlı qardaşlar, gəlin bizi bu ermənilərin əlindən xilas edin. Əgər, azacıq qeyrətiniz varsa bizi bunların əlində qalmağa ikman verməyin. Bu ermənilər burada bizə olmazın əzablarını verirlər.**

Gəlin qardaşlar, gəlin. Vidadi əsəbləşərək əlindəki avtomat silahdan erməni postuna tərəf atəş açmağa başladı. Mətləb Vidadinin dayandırıb dedi : Sən, bu nə hərəkətdir edirsən ? O, qadınlar azərbaycanlı deyil. Bu bir təxribatdır. Onlar istəyir ki, biz əsəbləşib Haça gədiyə qalxaq, asanlıqla bizi məhv eləsinlər. Səbrli və təmkinli olun.

**Nüsrət :** Allah sizə lənət eləsin, alçaq və murdar qaraçılar !..

**- Ara hey.. molla-molla !**

Ara sizin Allax yoxdur eyyy, otbuska gedib, səyaxatdadır. Ara yaxşı olar ki, sən, bizim Allaxı çağırasan. Bizim Allax yaxşıdır..

**Nüsrət :** hamsı sənə qənim olsun...

**Mətləb :** qardaşlar bəsdir qurtarın. Siz, bu alçaqların təxribatına uymayın. Onların danışdıqlarının hamsı cəfəngiyatdır. Buraxın nə qədər istəyirlər hürsünlər. Siz bu davranışınızla hərbi sirri verirsiz. Hərbi sirr o, demək deyil ki, düşmənə hansısa gizli məlumatı ötürəsən. Başa düşün sizin bu gün müdafiə postundan durub onlarla açıq söhbət etməyiniz onların kəşfiyyat orqanları üçün hərbi sirri özünüz də bilmədən verməkdir. Mən, yenə də deyirəm, o, qadınlar bizim azərbaycan qadınları deyil. Bizim qadınları öldürsələr də gəlib postdan Azərbaycan dilində müraciət etməzlər. Bu bir oyundur. Siz, bizim məhşur Azərbaycan filmi var " Yeddi oğul istərəm " yəqin hamınız o, filmə baxmısınız. Xatırlayırsınızsa filmdə Gəray bəyi " Qan çanağı " na çəkmək üçün Bəxtiyarın dəstəsi kənddə bəyi necə məsxərəyə qoyurlar. Çünki, onlar bilirdi ki, Gəray bəy bunlara dözməyib kəndə gələcək və onu asanlıqla məhv edəcəklər. Görürsünüz, bax hadisələr beləcə tamamlanır və komsomolçular öz istəklərinə nail olurlar. İndi bu axmaq dığalar bizim ağlımızı yoxlayır, əsəblərimizlə oynayırlar. Onlara layiqli cavab vermək üçün yığılıb müzakirə edəcəyik. Mənə elə gəldi ki, siz məni anladınız....

1992-ci il martın 16-dan 17-ə keçən gecə saat 02.15 dəqiqədə əslən DİVANALLAR kəndindən olan Vətənsevər oğullar, polis serjantı Mətləb Allahverdiyevin komandirliyi ilə əsgərlər Şakir Quliyev, Nüsrət Həsənov, Elxan İmanov, Vidadi Əhmədov, İlham Əliyev, Bəxtiyar Babayev əvvəlcədən apardıqları hesablamalara görə, vacib olan silah-sursat və ləvazimatlarla yanaşı, əsgər torbasında hərəyə bir ədəd tank əleyinə TM-57 tipli mina götürərək hərəkətə başladılar. Onlar HAÇA GƏDİK yüksəkliyində yerləşən erməni postunun şimal-şərqindən sızaraq MAŞADKƏND və ÇARTAZ ( GÜNEY XIRMAN, QUZEY XIRMAM ) kəndləri istiqamətindən arxaya keçməklə düşmən postuna gələn təminat-təxliyə yollarını minaladılar.

Sonra ehtiyatla, posta yaxınlaşaraq səngərə girdilər. Düşmənin dairəvi müdafiə sxemi üzrə qurduğu postun səngərləri boş idi. Müşahidə mövqeləri tamamilə boş qalmışdı. Maraqlıdır, erməni nəyə bu qədər arxayın olub postda müşahidəni dayandırmışdı ??

Qrup komandiri serjant Mətləb dərin araşdırmadan sonra bir daha arxayın oldu ki, düşmənin müşahidə mövqeləri həqiqətən də boş və nəzarətsizdir. O, qərar qəbul etdi ki, daha irəli və dərinliyə doğru hərəkətə davam edək. Gecə saat 04.50 - dəqiqədə nəhayət ki, dairəvi müdafiə sxeminin giriş nöqtəsini tapdılar. Mətləb dərhal Nüsrətə tapşırıq verdi ki, giriş qapısının 5-6 metrə yaxınlığında kolların arasında pusquda dayansın. Babayev Bəxtiyar, İmanov Elxan, Əliyev İlham giriş qapısının qərb istiqamətində basqı üçün çıxış vəziyyətini alsınlar. Quluyev Şakir və Əhmədov Vidadi aşkar olunmuş yeraltı qazmaya daxil olmaq üçün hazır olsunlar. Mətləb, Şakir, Vidadi yeraltı qazmanın giriş qapısından asılmış əsgər adyalını sakitcə aralayıb qaranlıq qazmadan yarı rus, yarı erməni dilində söhbətlər və musiqi səsini müşahidə etdilər. Sarımsağ qarışıq tünd spirtli içkinin qoxusundan az qalırdı adamın bağrı çatlasın. Məhşur Rus müğənnisi Alla Puqaçova " Million alıx roz " mahnısını oxuyurdu. Onlar içəridə erməni quldurlarının olduğunu dəqiqləşdirib, sakitcə bayıra çəkildilər. Belə qərara aldılar ki, içəridən bir nəfərin çıxmasını gözləyib onu zərərsizləşdirmək, sonra ondan istifadə etməklə digərlərini sakitliklə və itkisiz əsir götürsünlər. Tapşırıq üzrə hər kəs öz vəzifəsini yerinə yetirmək üçün hazır vəziyyətdə dayanmışdı. Saat 05.40-dəqiqədə yeraltı qazmadan 2 metrə hündürlükdə bir nəfər çıxdı. O, müvazinatını saxlaya bilmir, sağa-sola aşırdı. Deyəsən gecə çox spirtli içki qəbul etmişdi. O, öz aləmində ətrafı nəzətdən keçirir, müşahidə aparırdı. Ancaq, heç özünü idarə edə bilmirdi. Ən maraqlısı onun silahsız olması idi. Onun bu vəziyyətini görən Nüsrət kolların arasından qalxaraq silahı ona tuşladı...

**Nüsrət :** tərpənmə, əllər yuxarı !

**- Vaaa, Jora can, ara sən, elə bilisən mən, sarxoş olmuşam. Aaa sən, məni qorxuda bilmərsən...**

**Nüsrət, sakit səslə onu avtomatın qundağı ilə Mətləbə tərəf itələyərək dedi :** axmağ dığa, sarsağlama keç rəisin qarşısına.

O, Mətləbin başındakı polis furaşkasını görüb, yerindəcə dondu. Sanki içkili vəziyyətində yol polisinin qarşısında günahkar-günahkar dayanıb baxırdı.

**Mətləb erməni dilində ona sual verdi :** dığa de görüm qazmada neçə nəfər var ?

O, susdu. Mətləb Vidadiyə tərəf bunun əllərini bağla.Birdən erməni dığası sanki yuxudan oyandı. O, qəflətən Mətləbə əl-qol atmaq istədi. Vidadi avtomat silahdan ona atəş açdı. O, aldığı güllə yarasından arxası üstə yerə yıxıldı. Bu zaman qazmadan bir nəfər çıxıb Maşadkənd istiqamətində var gücüilə qaçmağ başladı. Elxanla İlham onun təqib etdilər.

**Mətləb :** Şakir qumbaraatanla kazarmanı vur. Şakir dərhal kazarmanın içərisinə qumbaraatanla iki dəfə atəş açdı. Qumbaraatan atəşindən sora içəridə ard-arda partlayışlar baş verdi. Çox güman ki, bayırdan edilən atəşin təsirindən içəridə olan silah-sursat və partlayıcı qurğular partlayışa məruz qalmışdı. Bu səbəbdən kazarmada böyük dağıntı və partlayışlar baş verdi. Partlayışlar zamanı kazarmada bağırtı səsləri eşidilirdi. Hər tərəfi tüstü, torpaq sovruntusu və rezin yanığının qoxusu bürüdü. Elxanla İlham arxasınca qaçdıqları erməni əsgərini tuta bimədiklərini və gecənin qaranlığında itirdiklərini bildirdilər. Hamı bir yerdə çox da böyük olmayan, dağılmış kazarmaya baxış keçirdi. İçəridə səkkiz erməni əsgərinin leşi qalmışdı. Ancaq dünən günorta çağı bizə Azərbaycan dilində müraciət edib, köməyə çağıran qadınları tapa bilmədik.

Kənarda bağıra-bağıra qalmış yaralı erməni əsgəri isə bizə qarşı murdar-murdar söyüşlər edirdi.

**Vidadi onu təpiklə vuraraq dedi :** ayə ay axmağ dığa dünən mən sənə deyənd ki, qudurma, ancaq sən, çaşırdın. De görüm dünənki qadınları hara aparmısınız ?

**- Mən, bilmirəm...**

**Vidadi :** it oğlu deməsən, sənin qulağını kəsəcəm. Sonra onu təpikləyir. O, isə bağırırdı.

**Mətləb :** yaxşı götürün bu dığanı da, gedək. Artıq hava işıqlaşır.

Yolda gələndə erməni dığası aldığı yaradan öldü..

Biz kəndə çatanda könüllü döyüşçülərdən olan, Yuxarı Dilağarda kəndindən Əsgər Hüseynov ( Vətən Müharibəsi Qəhrəmanı, Əlahiddə Ümumqoşun Ordunun qərargah rəisi Telman Hüseynovun atası ) bir kəşfiyyatçı kimi vəziyyəti öyənmək məqsədilə serjant Mətləbin cəsur dəstəsini görmək üçün gəlmişdi. O, ölmüş erməni dığasını görüb dedi : həə mən, bunu tanıyıram. Bu SOS kəndindən qalaycı Vazgenin oğlu Samveldir. Samvel 1980-ci illərdə Rusyada Ali Hərbi Tankçılar məktəbini bitirmişdi. Sovet ordusunda tank batalyonunun komandiri idi. Bu yaramaz erməni, 1986-cı ildə komandiri olduğu batalyondan bir tankın qülləsini və lüləsini çıxarıb gətimişdi SOS kəndinə. O, deyirdi ki, guya bu tankı öz pulu ilə alıb. Həə, indi mənə bəlli oldu ki, demək tankı bu müharibəyə hazırlıq üçün gətirbmiş. Ay sizi, namərd ermənilər...

Görüm sizi lənətə gələsiz....

Ardı var...

## İlk qatlanan "iPhone" təqdim ediləcək

**"Apple"ın 9 sentyabrda keçirəcəyi təqdimatda şirkətin ilk qatlanan smartfonu olan "iPhone Ultra" modelini nümayiş etdirəcəyi gözlənilir.**

Adalet.az xəbər verir ki, qatlanan "iPhone"un ilin sonuna qədər satışa çıxarılması və ilkin qiymətinin təxminən 2200 avro (təxminən 4300 manat) olması gözlənilir.

Məlumata görə, "iPhone Ultra" kitab kimi açılan daxili və ənənəvi smartfon kimi istifadə edilə bilən xarici ekranla təchiz olunacaq. Cihazın daxili ekranının ölçüsünün 19,8 santimetr, xarici ekranının isə 13,5 santimetr olacağı bildirilir.

Smartfonun ümumilikdə dörd kameraya sahib olacağı gözlənilir. Kameralardan ikisinin arxa paneldə, birinin daxili ekranda, digərinin isə ön hissədə yerləşdiriləcəyi bildirilir.

"iPhone Ultra"nın "Apple"ın yeni nəsil A20 Pro prosessorundan istifadə edəcəyi gözlənilir.

Yeni çip əvvəlki nəsil A19 Pro ilə müqayisədə təxminən 18 faiz daha sürətli işləyəcək və 30 faiz daha az enerji sərf edəcək.

Eyni prosessorun "Apple"ın yüksəksəviyyəli "iPhone 18 Pro" və "iPhone 18 Pro Max" modellərində də istifadə olunacağı gözlənilir.

Bu ilin əvvəlində yayılan bəzi görüntülər isə yeni modelin qeyri-adi, asimmetrik ekran künclərinə sahib ola biləcəyinə dair ehtimalları artırıb.

Şirkətin təqdimatda yeni "iPhone" modelindən başqa "Apple Watch Series 12", "Apple Watch Ultra", "iPad mini 8" və "AirPods Pro" modellərini də nümayiş etdirəcəyi gözlənilir.

## Bu kənddə hamı xalatla gəzir

**İsveçin cənubundakı sahil qəsəbəsi Torekovda xalat geyinmək gündəlik həyatın ayrılmaz hissəsinə çevrilib.**

Adalet.az xəbər verir ki, təxminən 1000 nəfərin yaşadığı qəsəbədə insanlar səhər dənizə girdikdən sonra geyimlərini dəyişmir, sadəcə xalatlarını geyinərək gündəlik işlərinə davam edirlər.

Torekovda xalat yalnız hamamdan və ya dənizdən sonra geyilən paltar hesab olunmur. İnsanların xalatla velosiped sürməsi, it gəzdirməsi, kafedə qəhvə içməsi və marketə getməsi tamamilə normal qarşılanır.

Bu qeyri-adi ənənənin arxasında qəsəbədə uzun illərdir davam edən səhər dənizi ritualı dayanır. Sakinlər məşhur Morgonbryggan körpüsündən sərin sulara girir, sudan çıxdıqdan sonra isə paltarlarını dəyişmək əvəzinə xalatlarını geyinirlər.

Torekov sakinləri üçün səhər dənizinə girmək sadəcə üzmək deyil, həm də sosial ənənədir. Xüsusilə yay aylarında insanlar səhər tezdən körpünün ətrafında toplaşaraq birlikdə dənizə girirlər.



Dənizdən çıxdıqdan sonra xalatlarını geyinən sakinlər günün qalan hissəsində də bu geyimdən istifadə edirlər.

Torekov küçələrində yalnız klassik ağ xalatlara rast gəlinmir. Rəngli və naxışlı xalatlar, papaqlar və rahat başmaqlar qəsəbəyə özünəməxsus küçə üslubu qazandırıb.

İsveçli kontent yaradıcısı Freja Settergren də sosial mediada qəsəbənin bu xüsusiyyətindən danışaraq burada günün istənilən saatında, hətta supermarketdə belə xalatla gəzməyin tamamilə normal olduğunu bildirib. Torekov təbii gözəllikləri və kiçik limanı ilə turistlərin diqqətini çəkən sahil qəsəbələrindən biridir. Lakin xalat mədəniyyəti buranın ən qeyri-adi xüsusiyyətlərindən biri hesab olunur.

Sakinlərin rahat həyat tərzi və səhər dənizi ənənəsi Torekovu İsveçin digər sahil yaşayış məntəqələrindən fərqləndirən maraqlı xüsusiyyətlərdəndir.



ALLAHVERDİ EMİNOV

# Şairə Nəzakətin lirikası barədə düşüncələrim

(əvvəli ötən sayımızda)

*Dünya çox incidə bilərdi səni,*
*Bəlkə düz etmisən, çıxıb getmisən.*
*Qısa bir ömürlə sınadı səni,*
*Yoxsa bu dünyanı yıxıb getmisən?*

*O zərif vücuda sığmırdı ürək,*
*Yükü ağır idi çəkmirdi ürək.*
*Sorğudan, sualdan bezmişdi ürək,*
*Canını dişinə sıxıb getmisən.*

*... Ölümün Tanrıya aparan yolmuş,*
*Çiçək arzuların açmadan solmuş,*
*Şəklinə baxıram gözləri dolmuş,*
*Dünya pəncərəymiş, baxıb getmisən.*

Nə olaydı bu "pəncərə" gec açılaydı!..

Poeziyaya qrammatik bilik bazası üstündə gələnlər bu gün əndazəni aşıbdır, şeir kitabları öz çəkilərindən çoxdur və bu kəslər unudurlar ki, şeir praqmatik - tarixi olayların yalnız zahiri əlaqələrindən və ardıcıllığı baxımından təsviri deyil, müəllifin reallığa, görünənə naturalist baxışı da həmçinin predmetin poetik - həyəcanlı yanaşmasıdır. Bunun üçün daxili coşğunluq lazımdır, bu isə lirikaya gətirib çıxarır. Lirikada şair öz pak hisslərinin başına hərlənir, hətta kimsəni maraqlandırmayan adi bir predmet, yaxud nəhəng bir mövcudat olsun - baxır şeirdə necə tərənnümünü tapır. Bu baxımdan Nəzakət xanımda həmin nəsnələrin bəxti gətirir. "Həmdəmim dəniz" şeiri elə dənizin özü qədər gömgöy - şəffaf; pıçıltısı qədər həzin, həmfikir qədər aşinadır; bu tutuşdurmada heç bir bələğət yoxdur.

***Dəniz, sənlə bölüşəndə***
***Qəlbim yaman narahatlanır.***
***Duruluram suların tək,***
***Sızıldamır dərdli ürək.***

***Həmdəmimdir mavi sular,***
***Sualıma cavabları***
***öz dilində***
***ləpələrin pıçıldayır.***
***Söylə, açsam ürəyimi***
***Dərdlərimə gücün çatar?***
***Dalğa - dalğa, ləpə - ləpə***
***dindi dəniz.***
***Gözlərində bir insana***
***döndü dəniz.***

***... Çox dərdləri mən udmuşam,***
***Eh... dərdlər də yaratmışam.***
***Ünvansızam***
***hər dərdinə gücüm çatmır.***
***Bunu da bil ki,***
***hər dənizin***
***özü boyda ürəyi var.***

Şairənin öz obrazını görürəm: dənizlə dərdini bölüşür; şairlər həmişə şad olmur, öz qəmini ürəyində gəzdirir və bir gün bu poetik yükü misralarına boşaldır və rahatlanır. Hər cür didaktik və mücərrəd ricətlərdən uzaqlaşır, belə olduqda şair özünün munisliyini təsdiq etmiş olur.

Nəzakət xanımın lirikası onun üçün oxucunun içərisinə hopur - bu Dünyanın hay-küyünə, insanların gülüb - danışmasına baxmayaraq qəribliyə aparır, mən bu hissi poeziyanın bir zərif qanadı hesab edirəm. şair qəriblik, nisgillik çəkmirsə... şeiri hədəfi tutmaz.

Qəribliksə həsrəti dünyaya gətirir, axı şair təkcə təfəkkürü ilə yox, hisslərilə qəribliyin uzaqlığını duyur və həsrətində qovuşmaq istəyir, poeziyada bədii sərvətə çevirir. Şairənin "Həsrət" şeiri var, elə sandım - misraların hər birisi bir durnadır. Vaqifdən, Vidadidən, Zakirdən yadigar qalıblar, onlar da qəribliкdən xiffət edirlər. Qəribəsi odur, qəribliyi sevən bu quşlar payızı sevirlər, payızda vətənləri yada düşür.

***Durnalar köç edir payız gələndə,***
***Boş qalır "evləri", yurd - yuvaları.***
***Dönürlər yenə də bahar gələndə,***
***Yenə doğmalaşır "yad" yuvaları.***

***Gör necə payızdır, gör necə yazdır,***
***Həsrətəm ocağı sönmüş yurduma.***
***Durnalar qayıdır, mən qayıtmıram,***
***Bəxti əllərimlə dönmüş yurduma.***

**Esse**

***Mən də dönəcəyəm günün birində,***
***Ürəyim deyir ki, çox belə getməz.***

***Lazımsa ölümə verib ömrümü***
***Dünyaya deyirəm: - Yox belə getməz.***

Şeirin eyni zamanda sosial - siyasi qayəsi var qəriblik rəmzində oxucusuna çatdırılır: düşmən əlində qalan ulu Qarabağ torpağıdır. Əlimizdə saxlamağı bacarmadığımız Qarabağ qəbirlərimizi də sinəsində saxlamadı, daşnaqlar daha cəld tərpəndilər, şairlərin, söz adamlarının yaralı yerinə toxundular. Nəzakət xanım da susa bilməzdi, ağrısını misralara səpəcəkdi "Yurd həsrəti", "Qarabağ qoxusu", "Vətən, bizi bağışlama" mövzulu şeirlərini qələmə aldı. Şeirləri oxuyanda onu idrak etdim ki,



şairə hansı əzabları yaşamamışdır? Hansı ümidlərin yolunu gözləməmişdir? Ürək gərəkdir bu ağrıya dözə. Həsrətə bax ki, "Çopur daşına da öz balam deyir", "Yolunda kəsilən baş olmağı arzulayır" - deyən şairə "Düşmənə atılan bir daş olmağı"ndan təsəlli tapır.

Əziz Nəzakət xanım, şairə bacım, hər şeydən əlini üzüb gör nədən təsəlli tapırsan.

***Kaş külək olaydım, dəli bir külək,***
***Əsəydi üstündə sözüm yurdumun.***

***Çopur daşına da öz balam deyib,***
***Qalandı üzündə izim yurdumun -***

***Ən səmimi etiraf! Ən nikbin arzu!***

***Öpsün Vətən torpağını gözlərim,***
***Dəysin Vətən torpağına dizlərim.***

Əlbəttə, Qarabağ azadlığı şəhid ruhundan keçir, bütün vətən diyarını qarış - qarış dolanır və yenə öz qəbrinə sığınır. Və inanır ki, əsirlikdən bu torpağı onun övladları xilas edəcəkdir.

***Yolu yox Vətənə aparan yolun,***
***Şikəstəm, sınıbdır qanadım - qolum.***
***Didərgin ruhumun qurbanı olum,***
***Məni də kəfənə bələ, şəhidim...***

Nəzakətin poeziyasındakı lirik xətt solğun, titrək, şərti təsirli deyil, bu qənaəti israrla deyirəm. Ona görədir bu şeirlərin ruhunda və fəlsəfəsində Dünya ilə Həyat arasında bir vəhdət, ünsiyyət mövcuddur, poeziyaya məxsus substansial atributlar öz yerindədir, fikirləri tamamlayır və əsərin məzmununa xidmət edir, nəhayət, duyğulara çevrilir, həyatın fantomunu romantik bir məcraya salır. "Qar yağır" şeirini iyun ayında (2018), isti havada oxudum, vaxt stixi alınmışdı, amma yerinə düşmüşdü. Pəncərəmə günəşin şəfəqləri sızırdı, mənsə pıçıldayırdım:

***Qar yağır.***
***Naxışlı, dümağ, bəmbəyaz.***
***Dünyanın ağlığı üzünə çıxır.***
***Yerlərdə gözləmiş qar gəlişini,***
***Alır, qucaqlayır, köksünə sıxır.***

***Qar yağır.***
***Naxışlı, dümağ, bəmbəyaz.***
***Torpaq bərəkətə bələnir yatır.***
***Çılpaq ağacların qol - budaqları***
***Bir ana hənrinə bələnib yatır.***

***Qar yağır.***
***Naxışlı, dümağ, bəmbəyaz.***
***Rəqs edir elə bil hər qar dənəsi,***
***Gözümün önünə gəlir uşaqlıq -***
***Həyatda hər fəslin öz ənənəsi...***

Bu misraları yazıya alanda üşüdüm və pəncərədən ağacları süzdüm. Yarpaqlar budaqlarına sığınıb tərpənişirdi, quşlar kölgə axtarmırdılar, bəlkə də - nə bilim fantaziyam idi - qışın dalısınca getmişdilər. Beləydi, çün şeirdə elə möcüzə var - fəsillərin yerini dəyişir. Şeirdə elə möcüzə olur - insan bu günündən çox-çox irəliyə qayıdır, necə ki, mən də uşaqlığımda qar həsrətində yaşamışam, barmaqlarımı dodaqlarıma sıxa - sıxa məktəbə yollanmışam. Taleyə bax ki, həsrətində olduğum o qar gilələri neçə illərdir saçlarımda qırovlaşıbdır. Bu hissləri yaşadan şairə Nəzakət xanım arzulamır qar insan ömrünə qış havası gətirsin.

***Qar yağır.***
***Naxışlı, dümağ, bəmbəyaz.***
***Yağsın yerə yurda, çölə - çəmənə.***
***Kaş insan ömrünə qış tələsməsin,***
***Yağmasın qar, yağış insan ömrünə.***

Nəzakət Məmmədlinin yaradıcılığında "Dünya" obrazı var və dünyada onun doğmaları, dostları, şəhidləri, qələm yoldaşları yaşayır, onların surətləri boylanır. "Dünya", "Ey dünya" şeirlərində şair dünyanı haqsızlıqda, vəfasızlıqda, amansızlıqda məzəmmət edir, "axı, Dünya əzəldən, başdan belədir, heç kəsə qalan da deyil. Dünya, nadanlara da həyan olmusan, min dəfə aşınmışan, şükür ki, kül altda yenə qocalıb". Bu, Dünyadır, anasını, atasını, bacısını xatırladıb, övladlarını. "Anam" şeirini oxuyanda anamı xatırladım, isti qucağına sığındım, nəfəsini duydum. Nəzakət bir övlad kimi ana həsrətində uşaqlaşır:

***Gör neçə vaxtdı ki, həsrət qoymusan,***
***Səsinə, sözünə, özünə anam.***
***Torpağın qoymayır bircə yol baxam,***
***Ay kimi ay kimi nurlanan üzünə, anam -***

"hələ də gözü axtaran, ana!... Çün, "Analıq haqqını, sevgi payını övlad ömrünə bəxş eləyən ana!" Ana məhəbbəti "Ana, heç köhnəlmədi", "Anam", "Şəhid anası", "Ana haqqı", "Darıxma, ay ana" şeirlərinin leytmotividir, yollara dikilən övlad baxışlarıdır.

***... Bu ayrılıq bənzəməz heç bir ayrılıqlara,***
***Gəl, aydınlıq gətir sən, bütün qaranlıqlara.***
***Gəlmək sənə çətinsə, məni çağır yanına -***

Nəzakət Məmmədlinin ithaf şeirləri sadəcə sözgəlişi deyil, yaşanmış hisslərin əks-sədasıdır Zabit anası olaraq hərbi həyatını, Qarabağ müharibəsini, şəhid balalarını bağrına sıxıb həm qürrələnmiş, həm də ağlamışdır; bu ana - oğul, qız anasının sevinciydi. "Ramilə, Aytənə, Elxana" şeirində ana məhəbbətinin qüdsiyyəti əyaniləşmişdir, "Ramilim, Aytənim, Elxanım", - deyən bir şairə - xanımın bala sevincini yaşamamaq mümkünmü? Eləcə də vaxtsız dünyasını dəyişmiş istedadlı şairə Fərqanə Mehdiyevaya iki şeir həsr etmişdir. "Bir dosta" və "Gəl, dərdləşək". Qeyd edərdim ki, mən Fərqanə şairəni çoxdan tanıyırdım, zərif, içindən gələn şeirlərini izləyir, görüşümdə razı qaldığımı gizlətmirdim. Onun ilk şeirlər kitabı haqqında "Ədalət" qəzetində resenziyada çap etdirdim. Görüşüb minnətdarlığını bildirdi.

Nəzakət Məmmədli poeziyası ilahi verginin cənnət payıdır, oxuculara hədiyyəsidir. O, qrammatik şeir yazmır bəzi "püxtələşmiş" şairsayağı, şeirin zorən gəlişinin də intizarında deyil. O halda yazır - yazmaya bilmir. Mən onun poeziyasına daima bu nəzərlə baxmışam...

Sonda deyərdim ki, istedadlı şairin poeziyasına ötəri ekskurs elədim və bu "ötəriliyi" vaxt məhdudluğunun adına yazıram.

Halbuki, bu lirik - bütöv poeziyada mən özümü tapdım, sevincimi və kədərimi tapdım, şeir də budur! Nədən belə bir fikrə gəldim: şairin poetik yaradıcılığında abstrak fəlsəfəçilik, soyuq mühakiməçilik, qrammatik qafiyəçilik elementləri yoxdur, poetik fikrin qəlb yaxınlığı, sənətkar təhtəlşüuru, təbii ehtiraslar poeziyanın leytmotividir, duyğuların əkssədasıdır. Bunlara şairənin - Nəzakət xanımın şəxsiyyəti imkan verir və mənə dahi V.Q.Belinskinin sözlərini diqtə edir: "Lirikada şairin şəxsiyyəti ön planda dayanır, biz yalnız onun vasitəsilə hər şeyi qəbul edib anlayırıq..., lirik poeziya başlıca olaraq subyektiv, daxili poeziyadır, şairin özünü ifadə etməsidir".

## Videoya baxmasalar da, "izlənmə" gələcək

**Yutub platformadakı videoların baxış sayını hesablama qaydasını dəyişir.**

Adalet.az xəbər verir ki, yeni sistemlə videonun ilk kadrının oynadılması artıq baxış kimi qeydə alınacaq.

Bu isə istifadəçilər videoya tam baxmasa belə, göstərilən baxış saylarının əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq.

Platforma qısa və uzun videolardan podkastlara və canlı yayımlara qədər bütün formatlarda yeni "görüntü əsaslı model"ə keçəcək. Yeni qaydalara əsasən, videonun ilk kadrı oynadılan kimi "görüntü" qeydə alınacaq. İstifadəçi sadəcə videonun üzərinə gəlsə və video avtomatik olaraq oynamağa başlasa belə, bu, baxış kimi hesablanacaq. Dəyişiklik 24 avqustdan sonra yüklənən videolara şamil ediləcək. Platformada artıq mövcud olan videoların əvvəlki baxış sayı isə dəyişdirilməyəcək. Bundan sonra həmin videolara əlavə olunan baxışlar yeni qaydalar əsasında hesablanacaq.

Yutub bu dəyişikliklə platformadakı baxışların hesablanmasında daha çox ardıcıllıq yaratmaq istədiyini bildirir. Şirkətin sözlərinə görə, məqsəd izlənilən məzmunun baxış sayında əks olunmasını təmin etməkdir. Ancaq yeni sistem məzmun yaradıcılarının gəlirlərinin avtomatik artacağı anlamına gəlmir. Yutub reklam gəlirlərinin hesablanması üçün ayrıca metrikdən istifadə etməyə davam edəcək. "Məşğul baxışlar" adlanan bu göstərici istifadəçinin videoya müəyyən müddət baxmasını nəzərə alır və əvvəlki baxış standartına daha yaxındır. Yeni videoların altında görünən baxış sayları sürətlə artsa da, bu artım birbaşa reklam gəlirlərinə təsir etməyəcək.

## İlk görüşdə bunu edənlər 2-ci görüş şansı qazanır

**Mütəxəssislərin fikrincə, ilk görüşdə qarşı tərəfin etibarını qazanmağın əsas yolu bahalı məkan və nümayişkaranə jestlər deyil, səmimi və hörmətli ünsiyyətdir.**

Adalet.az bildirir ki, söhbət zamanı söz kəsmədən diqqətlə dinləmək, göz təması qurmaq və telefonu kənara qoymaq qarşı tərəfdə dəyərli olduğu hissini yaradır. Təbii və dürüst davranmaq, görüşə vaxtında gəlmək, empatiya göstərmək və xidmət işçiləri ilə nəzakətli rəftar etmək də müsbət təəssüratı gücləndirir. Mütəxəssislər bildiriblər ki, ilk görüşdə qüsursuz görünməkdən daha vacib olan qarşı tərəfin özünü rahat və güvəndə hiss etməsidir. Bu davranışlar ikinci görüş ehtimalını xeyli artıra bilər.



BAYAT

№ 95 (955)





# Bu dünyadan gedəndə

Tofiq ABDİN

bəlkə... bir daha şeir yazmadım
yazmamağımın min bir nədəni var
bəlkə
min birdən də çox
minindən biri
bu dünyadan gedəndə
onları tapşıra biləcəyim
kimsəm yox!!!!!!!!!

* * *

bu qorxu o tindəymiş
həmən qarşıma çıxdı
çıxıb bir yad gözündən
həmən içimə axdı

mən necə görməmişəm
mən necə kor olmuşam
bu yaşda bu qorxunu
içimə doldurmuşam

ha çapala, ha vuruş
ata bilmərəm onu
heç belə gözləmirdim
mən ömrümün sonunu

yazıq ömrümə yazıq
məni güdürmüş bu şər
atalar düz deyirmiş
qorxan gözə çöp düşər

* * *

bu yaşda sevmək üçün
havalanmaq gərəkdi
bu yaşda sevmək üçün
sevdalanmaq gərəkdi

o da mənim əlimdə
bu da mənim əlimdə
ortada ağlın gücü
adın mənim dilimdə

adına od düşəcək
içimdəki alovdan
üz tutacaqsan mənə
bir gün söküləndə dan

çətin gəlib çıxasan
ayrılığın içindən
durmusan durduğun yerdə,
yad adam var içində...

gəlib çıxa bilməzsən
ayrılıq yaşayırsan
sən elə gəlirsən ki,
gedənə oxşayırsan...

* * *

hara gedir bu məmləkət görəsən
gedir şellənə-şellənə
qarşıdan bir bəla gəlir
aman yellənə-yellənə

adamları adamlıqdan çıxıbdı
boyunbağı körpüləri taxıbdı
öz əliylə öz evini yıxıbdı
yollarını daş- kəsək yox
sular tutub
sular sellenə-sellənə

sözlərinə heç bir məhəl qoyan yox
təklənibdi bir kimsədən həyan yox
tikənindən dağıdanı daha çox
danışmağa dili də var
eşitmirlər
qalıb dillənə-dillənə
yaman uzun sürdü bu alış-veriş
zamana sığmayır bu vaxtsız gərdiş
xeyrə yozulmayır bu gediş-gəliş
bizsə qalmışıq ortada
hələ küllənə-küllənə

küçələri gül-çiçəyə bürünür
adamları yaşamır ki, sürünür
kimsə bilmir sabah necə görünür
gözlər ora millənib
qalıb millənə-millənə...

* * *

mən on il əvvəlki Tofiq deyiləm
heç beş il əvvəlki Tofiq deyiləm
gəlib dayanmışam bir ah içində
quş kimi çırpınnam günah içində
sevmək cəsarəti sıfırın altda
sevilməksə ondan bir aşağı
sabah duaları dilimdə şəkər
axşam duaları sabahı çəkər
titrək yarpaq kimi içim əsməkdə
bu yaşda, bu gündə bu əsarətdə
yenə də olanlar məni üzməkdə

mən on il əvvəlki Tofiq deyiləm
heç beş il əvvəlki Tofiq deyiləm
bəzən çiçəklər də incidir məni
yazıq böcəklər də incidir məni
nəymiş bu dünyanın bilinməz yeri
bu halla, bu günlə, bu ağrılarla
yeri tofiq abdin geriyə yeri
yeriyə bilsən
niyə gəlmişdin ki
niyə bezmisən
dünya elə buymuş
dözüb yaşa sən

* * *

Bir eldə doğuldum - mərkəzdən uzaq,
Üz tutub bir böyük şəhərə gəldim.
Başımı soxmaqçün gəzdim künc-bucaq,
Nə bir soyuq bildim, nə isti bildim.
Döydüm bir qapını, dedim ki, mənəm,
Gəlin tanış olaq, Tofiq Abdinəm!

Şairlik sevdası vardı başımda,
Bilmirdim dünyanın nizamı varmış.
Hardan biləydim ki, bu yolbaşında
İnsan öz-özünə bədbəxt olarmış -
Bəzən qoymadılar danışam, dinəm,
Gəlin tanış olaq, Tofiq Abdinəm!

Bəzən qaraladım tale yazanı,
özüm gedirdimsə bəxtin nə işi.
Sevdim şairlikdə Rəsul Rzanı,
sən demə başqaymış dövrün gərdişi -
İnanın, inanın peşman deyiləm,
Gəlin tanış olaq, Tofiq Abdinəm!

* * *

sevdim elə bildim ki
səni xoşbəxt edərəm
bilmədim ki nə vaxtsa
səni yalqız buraxıb
səndən öncə gedərəm.

bu sözləri yazanda
içimdə ayrılıqlar
illər öncə bir idik
indi isə ortada
yaşanmaz ayrılıq var.

titrək yarpaq bilirəm
uzanan əlimizi
güc yox tale tükənib
qınamaz kimsə bizi

mənsiz qalmağın da dərd
mənlə getməyin də dərd
gör nə gec anlamışam
dünya namərdmiş, namərd.

tez getsəm də bağışla
gec getsəm də bağışla
səni də bədbəxt etdim
bu bəxtlə, bu naxışla.

* * *

məni sevmək nə böyük bəla imiş
alnınıza ay doğdu sevmədiniz
güllər yağdı başınıza sevmədiniz
bu güllərlə çıxdım sizin qarşınıza
sevmədiniz
mən neyləyim
məni sevmək nə böyük bəla imiş

bu yaşımda şeir yazdım sevilməkçin
mənə imkan yaratdınız əyilməkçin
qarşınızda boynu bükük dayandım
dırnaq boyda şəfqət üçün
qapınıza dayandım
bu vətənin havasını çox gördünüz
düz üstümə yeridiniz
sonra məni qınadınız

Allah mənə bel vermişdi
qarşınızda dik durmağa
ömrüm boyu əymək üçün sınadınız
içimdəki dözüm məni sınamadı
evimdəki iki gözüm sınamadı
bəlkə onlar sınasaydı
öyrəşərdim beli bükük yaşamağa
sizin kimi onun, bunun
yüklərini daşımağa

mənə olan qəsdiniz nə
niyə qənim kəsilmisiz
Allah verən bu ömürə.

* * *

bu dünyaya düşəli
getmək günün gözlədim
dərdimi danışmadım
günahımı gizlədim

yaşamaq bu imişsə
demək yalanam yalan
nə məni satan oldu
nə də ki məni alan

qarşımda bir daş divar
bundan o yana yol yox
ha çırpın bu üzündə
o üzdə gözləyən çox

görəsən tanıyarlar
səsimi çıxarmasam
bəlkə də qınayarlar
neçə illərdi yoxam
mənmi vəfasız çıxdım
onlarmı vəfasızdı
əgər son bu imişsə
bu yazı nə yazıdı

* * *

sənə ağırlığım yox
bu ömür mənim ömrüm
niyə tələsirsən ki
mən səndən qabaq ölüm.

sənə elə gəlir ki
çox yaşadım deyəsən
mənlik deyil bu işlər
bunları bilməlisən.

içimdə çiçək açıb
ayrılığın qorxusu
sanki ərşə çəkilib
gözlərimin yuxusu

canım ruhum həyatım
səni kimə tapşırım
sən çağrılmaz bayatım
bayatıtək yaşarım.

gəlmişəm gedəcəyəm
qalası deyiləm ki
məni üzmək nə verir
axı niyə ölüm ki...

* * *

nə yaşadım yaşamışam
bundan sonrası Allahın
güman üstdə köklənmişəm
yarı dərdin yarı ahın

dualarla yatıb qalxmaq
indi ömrümün mayası
məndən o yanda yaşayır
ömrümün böyük yarısı

baxıram yaşanan yola
"çoxu getdi, azı qaldı"
nə mənlikdi nə də sizlik
kimdisə qapımı çaldı

aman tanrım kimdi görən
hansı əsrdən yol gəlib
ya qapını yanlış salıb
ya məni tanışmı bilib

* * *

indi baxıb görürəm ki
nə mən deyən oldun sən
nə sən deyən oldum mən
bu yol hara uzanacaq
bu yol harda bitər görən.

nə mən gözlərdim bu günü
nə sən gözlərdin bu günü
hədər yaşadın ömrünü
hədər yaşadım ömrümü.

bir acıq var bu şeirdə
ünvanını tapammıram
səndən ayrı bir ömürü
ömür kimi yaşamıram

bəs niyə içimiz dolu
acıqla, heyflə dərdlə
yüz kərə dedim mən sənə
mənə itirdiyin ömrü
yaşamısan sən hədərlə

artıq gecdi döz bu zülmə
hələ buna nə var gülüm
məzarımın üstündəki otlara
baxıb ağlarsan
zülüm-zülüm

bəlkə belə də olmadı
gözündə yaş qalmaz olar
hələ sağam düşünürəm
sonrası nə olar olar.

* * *

zaman-zaman nə havadı içimdə
bu türkümü bayatımı ağımı
alıb bütün ovqatımı əlimdən
qaralığa qərq eləyər ağımı

ağac idim budağımı vurdular
sonra gəlib əhvalımı sordular
uzun illər öncələri qırdılar
pərvazlanan qolumu qanadımı

nə sevdadı bu içimdə göyərən
hara qaçım bu sevdanın əlindən
bu nə dünya gəlib onda durdum mən
kimsə sevməz mənim kimi adamı

içim sızlar sızıltısı o yanlıq
mən etmədim kimlərəsə yamanlıq
yazıq könlüm yazıq oldu çox yazıq
görən kimə tapşırım mənim adımı

bu sızıltı xəstə qasım havası
yoxa çıxdı içimin gur davası
bu hal məni yıxasıdı yıxası
bir bəndə yox alsın mənim qadamı.

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 33 (2505) 4 sentyabr 2026-cı il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Bu gün bütün regionlarda bir-birindən möhtəşəm tikinti-quruculuq və abadlıq işləri görülür. Təbii ki, bu işlərin həyata keçirilməsi üçün öncə maliyyə qaynaqları tələb olunur. Və heç kimə də sirr deyil ki, son illər Azərbaycan sosial-iqtisadi cəhətdən daha da inkişaf edib, onun neftdən, qazdan və digər təbii sərvətlərdən gəliri artıb. Aydındır ki, bu maliyyə mənbələri olmadan heç daşı daş üstə qoymaq mümkün deyil. Əlbəttə, ölkəmizin belə sürətlə sosial-iqtisadi və hərbi cəhətdən inkişafı bizim bir çox möhtəşəm layihələrin həyata keçirilməsinə münbit şərait yaradır.**



# QUBA TANINMAZ DƏRƏCƏDƏ GÖZƏLLƏŞİB



Onu da qeyd edək ki, həm Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə, həm də prezident İlham Əliyevin fəaliyyət göstərdiyi 20 ildən çox bir zaman kəsiyində birmənalı olaraq ölkəmizin bütün regionlarında möhtəşəm quruculuq, abadlıq işləri həyata keçirilir. Heç kim deyə bilməz ki, bu işlərin gerçəkləşməsində Azərbaycana hansısa xarici ölkədən bir dəstək olub. Bütün bunların hamısını ölkəmiz öz daxili imkanları hesabına reallaşdırmağı bacarıb.

Böyük abadlıq və quruculuq işləri görülən rayonlardan biri də Qubadır. O Quba ki onun saf havası, bulaq suyu, gözəl meşələri və istirahət mərkəzləri var. 30-40 il bundan əvvəl Qubada indiki kimi tikililər, sosial obyektlər, istirahət mərkəzləri, xəstəxanalar, uşaq bağçaları, olimpiya idman kompleksi, sanatoriyalar mövcud deyildi. Amma bu gün Qubaya yolunuz düşsə görərsiniz ki, orda hansı böyük işlər həyata keçirilib. Və bu böyük işlər də heç də birdən-birə gerçəkləşməyib. Yəni həmin işlərin görülməsi üçün müəyyən illər, zaman tələb olunub.

Bu yaxınlarda yolum Qubaya düşmüşdü. Hardasa 15 il bundan əvvəl həmin şəhərdə olmuşdum. Onda da Qubada bir çox yeniliklər gördüm. O yeniliklərdən biri Olimpiya İdman Kompleksinin istifadəyə verilməsi idi. Amma bu dəfə isə bir-birindən gözəl sosial obyektlər, xəstəxanalar, məktəblər, uşaq bağçaları, parklar və xiyabanlar göz oxşayırdı. Havanın isti keçməsinə baxmayaraq, Qubada çox sakit və sərin hava mövcud idi. Hiss olunurdu ki, regionlardan, o cümlədən Bakıdan Qubaya çoxlu sayda insanlar istirahətə gəliblər. Bu da təsadüfi deyildi. Çünki Quba həm Bakıya yaxındır, həm də abhavasına görə insanların daha çox xoşuna gəlir. Amma bir məsələ var ki, bir də görürsən ki, göy üzünü bulud aldı və yağış yağdı. Bu yağış da yağanda insanlara ləzzət edir, çünki yağış həm havaya sərinlik gətirir, həm də tozu-torpağı küçələrdən təmizləyir. Elə ağacların budaqlarında hopan tozu-torpağı bu yağış yuyur. Və biz orda olanda belə bir gözəl yağış yağdı. Yağışın yağmasına da çoxları kimi mən də sevindim, amma sabahı günü Qubada bir gün çıxdı ki, gəl görəsən. Hardasa havanın temperaturu müsbət 36 dərəcəni keçmişdi. Bax onda da camaat özlərini sərin yerə və istirahət mərkəzlərinə çatdırır. Qəçreşdəki istirahət mərkəzi isə çox unikal və gözəldir. Burda çoxlu sayda insanların istirahət etdiyini gördüm. Hətta Rusiyadan gələn, İsraildən gələn turistlərlə rastlaşdım.

İsraildən gələn bir vətəndaş dedi ki, mən Azərbaycana - Qubaya tez-tez gəlirəm. Özüm orda yaşasam da, atam-anam Qubanın "Qırmızı bazar" qəsəbəsində anadan olub, orda yaşayırlar. Amma mənim özüm Təl-Əvivdə yaşayıram, ana-atama görə ən azı ildə bir dəfə üç ay gəlib burda istirahət edirəm. Son illər Quba daha da gözəlləşib. Heç adam gözlərinə inanmır. Bir çox küçələr yenidən asfalt örtüklə və müasir stildə təmir edilib. Ən çox da tamet daşlarından istifadə olunub.

Ümumiyyətlə, Qubada milli-memarlıq abidələri çoxdur. Xüsusən də orda soyqırım abidəsi ilə bağlı yaradılmış muzey bizim diqqətimizi xüsusilə cəlb elədi. Çünki ermənilər tək azərbaycanlılara qarşı soyqırımı etməyiblər, həm də Quba qırğını zamanı çoxlu sayda yəhudiləri də amansızcasına qətlə yetiriblər. Bu abidə-muzey tarixi baxımdan çox dəyərlidir. Çünki Azərbaycan və yəhudi xalqlarının faciəsini dünyaya çatdırır. Şəhəri gəzməyə çıxmışdım, bir neçə yeni xiyabanın inşa edildiyini gördüm və sevindim. Mən həmişə Qubadan Təl-Əvivə qayıdanda Azərbaycan xalqının böyüklüyündən, qonaqpərvərliyindən və Qubanın gözəlliyindən qohum-əqrəbama danışıram.

Qubanın ən gözəl yerlərindən biri də Heydər Əliyev adına parkdır. Ümumiyyətlə, Qubada bir-birindən yaraşıqlı, gözəl və füsunkar parklar və xiyabanlar kifayət qədərdir. Həmişə də isti yay günlərində orda çoxlu sayda insanların istirahət etdiyini görürük və biz də axşamüstü həmin parka baş çəkdik. Orda bir neçə yaşlı nəslin nümayəndəsi ilə rastlaşdıq və onlarla səmimi söhbət etdik. Onlardan biri uzun müddət Quba məktəblərinin birində idman müəllimi işləmiş Əlikram Əliyevdir. Onu qubalılar çox yaxşı tanıyır və çox vaxt ona "müəllim" deyirlər. Təbii ki, müəllim adını el-oba arasında qazanmaq və onu yaşatmaq hər ziyalının işi deyil. Çünki Əlikram müəllim həm də gözəl ziyalı və səmimi insandır. Onunla söhbət zamanı bir daha məlum oldu ki, "müəllim" deyilən adam yəhudilərlə uzun müddət dostluq edib və həmişə də onların etibarından, sədaqətindən və səmimiyyətindən razı qalıb.

Əlikram müəllim bizimlə söhbətində onu da qeyd etdi ki, Quba gözəl, füsunkar və ecazkar bir məkandır. Amma insanları ondan da gözəl və mehribandır. Burda mənim yanımda əyləşənlər hamısı təqaüdçülərdir. Ümumiyyətlə, Qubada belə istirahət mərkəzləri az deyil. Biz burda söhbət edir, nərdtaxta, şahmat oynayır, günümüzü mənalı keçiririk. Vaxtınız olsa bizim qonağımız olarsınız, özü də bunu ağızucu demirəm ha, ürəkdən deyirəm. Şükür Allaha, evimiz-eşiyimiz, ruzumuz və bərəkətimiz kifayət qədərdir. On qonağımız olsa hamısını qarşılaya bilərik.

Qubada çoxlu sayda iş yerləri açılıb, kəndlərdə, qəsəbələrdə sosial obyektlər, xəstəxanalar, uşaq bağçaları və istirahət mərkəzləri inşa edilib. Əvvəllər insanlar müalicə üçün Rusiyaya üz tuturdu, amma indi Quba şəhərində iki-üç yerdə ən müasir müalicə metodu ilə insanlara şəfa verən sanatoriyalar fəaliyyət göstərir. Yəni bütün bunlar insanların işini daha da asanlaşdırıb. Və rayonda bu gün birmənalı olaraq deyə bilərik ki, möhtəşəm abadlıq və quruculuq işləri davam edir. Hər ay hansısa bir yeni sosial obyekt istifadəyə verilir. Bütün bunlar isə rayonda insanların daha yaxşı və firavan yaşaması üçün əlverişli şərait yaradır. Buna görə qubalılar cənab prezident İlham Əliyevə öz təşəkkürlərini bildirirlər.

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Fethiye: Həyəcanlı yamac paraşütü...

**Müasir səyahətçilər artıq yalnız görməli yerləri ziyarət etməklə kifayətlənmirlər. Onlar bir səfər çərçivəsində müxtəlif təcrübələri bir araya gətirən, daha dinamik və zəngin səyahətlərə üstünlük verirlər. Bu tendensiya çoxsaylı fəaliyyətləri özündə birləşdirən idman turizminin inkişafını da sürətləndirir. Son araşdırmalar da bu səyahət modelinə marağın artdığını göstərir. Belə ki, sorğuda iştirak edənlərin 44,1 faizi müxtəlif fəaliyyətləri əhatə edən istirahət proqramlarına maraq göstərib. Bu tendensiya çərçivəsində qadınlar fitnes, yoqa və sağlamlıq yönümlü istirahət proqramlarına daha çox üstünlük verdikləri halda, kişilər canlı idman tədbirlərinə və təlim əsaslı fəaliyyətlərə daha çox maraq göstərirlər. Türkiyə isə müxtəlif turizm istiqamətlərində təqdim etdiyi geniş idman və aktiv istirahət imkanları ilə dəyişən səyahət tələblərini qarşılamaq üçün əlverişli mövqedədir.**

Bu təcrübələr arasında yamac paraşütü Türkiyənin özünəməxsus təbiətini və zəngin tarixi mənzərələrini kəşf etməyin ən fərqli yollarından biri kimi seçilir. Adrenalin dolu bu macəranın ən parlaq ünvanlarından biri Muğlanın füsunkar Egey sahilində yerləşən Fethiyedəki Ölü dənizdir. Babadağdan havaya qalxaraq firuzəyi rəngli suların və möhtəşəm təbiət mənzərələrinin üzərində süzmək bir çoxları üçün gerçəkləşən arzudur. Lakin uçuş zamanı yaşanan həyəcan Fethiyedəki macəranın yalnız bir hissəsidir. Bölgə quruda və dənizdə səyahəti davam etdirmək üçün trekking, su idman növləri, yoqa və sağlamlıq proqramlarından tutmuş çoxsaylı fəaliyyət imkanları təqdim edir.

Muğla vilayətinin Türkiyənin seçilən turizm destinasiyalarından biri olan Fethiye şəffaf təmiz suları, dünyaca məşhur çimərlikləri və heyrətamiz təbiəti ilə ziyarətçiləri özünə cəlb edir. Muğlanın bu cənnət guşəsi, eyni zamanda, dünyanın aparıcı yamac paraşütü məkanlarından biri olan Babadağa ev sahibliyi edir. Fethiyədə yamac paraşütü macəra həvəskarlarının mütləq yaşamalı olduğu təcrübələr sırasında xüsusi yer tutur.

Hər il Türkiyədən və dünyanın müxtəlif ölkələrindən minlərlə yamac paraşütü həvəskarını qəbul edən Babadağ Ölü dəniz çimərliyindən avtomobillə təxminən 30 dəqiqəlik məsafədə yerləşir. Türkiyənin ”ilk yamac paraşütü destinasyonu” kimi tanınan dağ müxtəlif yüksəkliklərdə yerləşən bir neçə uçuş nöqtəsinə malikdir. Ziyarətçilər dəniz səviyyəsindən təxminən 2 min metr yüksəklikdə yerləşən zirvə də daxil olmaqla fərqli uçuş məntəqələrindən birini seçərək peşəkar və lisenziyalı pilotların müşayiəti ilə tandem (yamac paraşütündə iki nəfərin eyni paraşütlə birlikdə uçmasıdır) uçuşu həyata keçirə bilərlər. Bunun üçün avadanlıqları geyinmək



və göyə doğru bir neçə addım atmaq kifayətdir.

Yamac paraşütü uçuşları adətən təxminən 30 dəqiqə davam edir. Uçuş zamanı daha çox adrenalin axtaranlar pilotun nəzarəti altında 360 dərəcə fırlanma və ”wingover” kimi akrobatik manevrləri də sınaqdan keçirə bilərlər. Firuzəyi rəngli suların və yamyaşıl meşələrin üzərində süzərək dünyanın ən gözəl çimərliklərindən biri hesab olunan Ölü dəniz sahilinə enmək unudulmaz təəssürat yaradır. Yerə endikdən sonra isə macəranı Ölü dənizin təmiz, ağ qumlu sahillərində dincələrək və kristal kimi şəffaf firuzəyi suların dadını çıxararaq davam etdirmək mümkündür.

Fethiye yamac paraşütündən əlavə, trekkinqdən su idmanlarına qədər geniş fəaliyyət imkanları ilə müxtəlif təcrübələrlə zəngin istirahət axtaran səyahətçilər üçün ideal məkandır. Ölü dənizin üzərində göylərə qalxdıqdan sonra ziyarətçilər səfər proqramlarını quruda və dənizdə saysız-hesabsız macəralarla zənginləşdirə bilərlər. Bölgənin ən məşhur məkanlarından biri 80-dən çox kəpənək növünə ev sahibliyi edən və xüsusi mühafizə altında olan təbiət ərazisi Kəpənəklər Vadisidir.

Endemik kəpənək növləri və möhtəşəm təbiət mənzərələri ilə tanınan vadi dünyanın müxtəlif ölkələrindən təbiətsevərləri və kəpənək müşahidəçilərini özünə cəlb edir.

Ziyarət edilməli digər məkan isə Kabak körfəzidir. Faralya kəndinin ərazisində yerləşən bu toxunulmaz körfəz şəhər həyatının gündəlik ritmindən uzaqlaşmaq istəyənlər üçün sakit və özünəməxsus məkan təqdim edir. Təmiz təbiəti ilə seçilən Kabak körfəzi düşərgə həvəskarlarının sevimli ünvanlarından olmaqla yanaşı, Türkiyənin ən çox seçilən yoqa düşərgələrindən birinə də çevrilib. Taxta bungalovlardan dəbdəbəli çadırlara qədər müxtəlif yerləşmə imkanları təqdim edən yoqa mərkəzləri burada iştirakçıları möhtəşəm təbiət qoynunda sağlamlıq və yenilənmə səyahətinə dəvət edir.

Fethiyənin heyranedici sahil coğrafiyası onu su idmanları üçün də əlverişli destinasiyaya çevirir. Dalğıclıq həvəskarları xüsusilə sualtı mağaraları və zəngin dəniz canlıları ilə tanınan Afkuləyə üz tuturlar. Eyni zamanda, möhtəşəm Saklıkent kanyonu Eşen çayı boyunca rafting həvəskarlarına həyəcan dolu anlar yaşadır. Bölgə həmçinin dünyanın ən məşhur uzunməsafəli yürüş marşrutlarından biri olan ev sahibliyi edir. Bu marşrut Aralıq dənizinin nəfəs kəsən mənzərələri fonunda unudulmaz trekkinq təcrübəsi yaşamaq imkanı yaradır.

**Fethiyədə bütün bu bənzərsiz macəraları müxtəlif yerləşmə seçimləri və Aralıq dənizi mətbəxinin ləziz nümunələri müşayiət edir. Təzə dəniz məhsulları və yerli şərabların ön planda olduğu gastronomik təcrübələr bölgədəki səyahəti daha da zənginləşdirir.**

## BAKIDA BORÇALI AŞIQLARININ KONSERTİ OLACAQ




**Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə ”Ozan Dünyası” Aşıq Yaradıcılığının Təbliği ictimai birliyində həyata keçirilən ”Borçalı aşıq mühitini tanıyaq və tanıdaq” adlı layihə çərçivəsində Bakıda Borçalı aşıqlarının konserti təşkil olunacaq.**

Bu barədə məlumat verən ictimai birliyin üzvü, filologiya üzrə fəlsəfə doktoru, dosent, ustad aşıq Altay Məmmədli bildirib ki, layihənin həyata keçirilməsində əsas məqsəd aşıq sənətinin inkişafında tarixən mühüm rol oynamış Borçalı aşıq mühiti haqqında ətraflı məlumat vermək, bu mühiti daha geniş müstəvidə təqdim etmək, xüsusən də, bu mühitin aşıqlarına, onların ifalarındakı özünəməxsusluqlara diqqəti cəlb etməkdir.

2026-cı il sentyabr ayının 14-də R.Behbudov adına Dövlət Mahnı Teatrında baş tutacaq tədbirdə Borçalı aşıq mühitini təmsil edən ustad aşıqlarla yanaşı, sənətdə ilk uğurlu addımlarını atan və sabahlarına böyük ümidlər bəslənilən gənclərin də çıxışları nəzərdə tutulur.

Tədbirdə əsasən Borçalı aşıq mühiti aşıqlarının repertuarında zaman-zaman mühüm yer tutmuş aşıq havaları səsləndiriləcək ki, bu da tamaşaçıların zövqünü oxşamaqla yanaşı, bu aşıq mühiti ilə bağlı daha əhatəli bilgi əldə edilməsində, eləcə də, bu mühitin digər aşıq mühitləri ilə qarşılıqlı əlaqəsinin öyrənilməsində mühüm rol oynayacaqdır.

Layihənin rəhbəri ”Ozan Dünyası” Aşıq Yaradıcılığının Təbliği ictimai birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur.

**Emil FAİQOĞLU**

## Xalq artisti: “Qolumla alnımın tərini silib, o sənədə imza atdım”



**Xalq artisti Afaq Başirqızı illər əvvəl yaşadığı əzablı həyatından söz açıb.**

Adalet.az bildirir ki, aktrisa ”Pryanik zavodu”nda işlədiyi vaxtlarda yaşadığı acı xatirəsini xatırlayıb:

İndi hər kəs ekranlarda mərd, dözümlü, sözünün kəsəri olan Afaq Başirqızını görür. Amma bu görüntünün alt qatında yaşananları çoxları bilmir. Mən Afaq olmaq üçün çox əziyyətlərə qatlaşdım. Atamın zamansız ölümü ilə ikinci dəfə yetim qaldım. Bu həyatımın mənəvi yükünü daha da artırırdı. Çətindir bu yükün altından çıxıb, həyata sinə gərib düz yaşamaq. Həyata sinə gərmək iki cür olur: namusu qorumaqla və aclığa dözməklə. Həyat gördündüyü qədər asan deyil. Atamdan qalan evi öz adına keçirmək üçün analığım iş yerimə gəlmişdi. Onda mənim 16-17 yaşım olardı. Pryanik zavodunda işləyirdim. Qolumla alnımın tərini silib həmin sənədə qol çəkdim. Heç düşünmədən, sonumun nə olacağını fikirləşmədən bu addımı atdım”.

## Səidə Dadaşova: “Belə doğmaları necə sevim?!”

**Müğənni Səidə Dadaşova illərdir anası ilə küsülü olmağın səbəbini açıqlayıb.**

Adalet.az xəbər verir ki, müğənni atası ilə anasının ayrılığından sonra anası ilə danışmadığını etiraf edib:

”Mən anamı asanlıqla bağışlaya bilmədim. Mənim üçün çox çətindir. Axı analıq başqa bir hisdir. İnsana ən doğma adam anadır. Uşağına ad günü edirəm, gəmirlər. Mən necə belə doğmaları sevim? Onların hörmətsizliklərindən yorulmuşam. Ana qayğısı görmək istəyən vaxtlarımda anam bizi tərk etdi. Öz həyatın düşündü. Bu necə analıq hissidir?! Övladıma yaxşı ana olacağıma söz vermişəm”.

**Əntiqə**

**”AAAF-inşaat”Məhdut Məsuliyyətli Cəmiyyəti tərfindən Cəfərova Xədicə Qurban qızına verilmiş No M-7893 nömrəli zirzəmi sahəsinin alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.**

## “İstedadlı insan qürurlanar, yekexanalıq etməz”



**Xalq artisti Gülyanaq Məmmədova qazandığı uğurların sirrindən danışıb.**

Adalet.az xəbər verir ki,o heç bir uğuruna görə yekexanalıq etmədiyini qətiyyətlə söyləyib:

”Mən heç vaxt yekexana insanları sevməmişəm. Ömrümün heç bir mərhələsində özümü öyməmişəm. Ancaq dəfələrlə bunu eşitmişəm. ki, Özbəkistana gedəndə niyə özünü öymürsən? Sən azərbaycanlı ola- ola Özbəkistanın xalq artistisən. Razıyam, bu bir fəxrdir. Amma özünü öymək üçün vasitə deyil. Mən sadəcə bundan qürurlanıram. Düşünürəm ki, istedadlı insan qürurlanar, yekexanalıq etməz.Hər bir uğurun alt qatında zəhmət dayanır. Zəhmətlə görülən hər bir işin , əlbət, bəhrəsi var”.

**Əntiqə**

## Sevda Əliqızı: “Səmədi unuda bilmərəm”



**Müğənni Sevda Əliqızı xalq artisti Səməd Səmədovla bağlı xatirələrini danışıb.**

Adalet.az xəbər verir ki, müğənni hələ də həmkarının ailəsi ilə əlaqələrini kəsmədiyini etiraf edib: ”Onunla möhkəm dostluğumuz olub. Hətta sənət dostundan əlavə ailəvi dost idik. Səmədin mehriban, vəfalı, gözəl həyat yoldaşı var. Mən bir az tənbəl adamam. Proqramlara getməyi, el məclislərində iştirak etməyi Səməd təşkil edirdi. Bu işlərlə o məğul olurdu. Səmədin yoxluğu ilə barışmaq çətindir. İradə xanımla danışıram, dərdimizi bölürük. Artıq doğmalaşmışıq. Mən Səmədi unuda bilmərəm axı. O mənə çörək qazanmaqda vasitəçi olub. Yaradıcılığımda rolu böyükdür”.

## Türkan Vəlizadə: “Belə oğlana ərə getmərəm”



**Türkan Vəlizadə açıqlaması ilə diqqət çəkib. Adalet.az bildirir ki, müğənni necə bir bəylə ailə qurmaq istədiyini söyləyib:**

”Əksər qızlar hündürboy kişiləri sevirlər. Anlamıram ki, bu boy nəyi həll edir. Heç vaxt belə bir arzum olmayıb ki, hündür boy oğlana ərə gedim. Daha çox ortaboylu oğlanları çox bəyənirəm. Hündürboy adamla bağlı məşhur misalı bilirsiniz yəqin (gülür). Ona görə də hündür boy oğlanlardan qaçıram. Görkəmi önəmli deyil. Əsas ürəyi geniş, ruhu sağlam adam olsun”.

**Əntiqə**

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 293
Çapa imzalanmışdır: 03.09.2026